بسم الله الرحمن الرحيم

# Mömünlərin xəbəri

**Ön söz**

Həqiqətən, şükr və tərif yalnız Allaha məxsusdur! Biz ona həmd edir, Onu köməyə çağırır, Ondan bağışlanma və bizi doğru yola yönəltməyi diləyir, nəfsimizin şərindən və pis əməllərimizdən qorunmaq üçün yalnız Ona pənah aparırıq. Allah kimə hidayət verərsə, o, doğru yolda olar, kimi azdırarsa onu doğru yola yönəldən tapılmaz. Mən şahidlik edirəm ki, Allahdan başqa ibadətə haqqı olan məbud yoxdur, Onun şəriki yoxdur və şahidlik edirəm ki, Muhəmməd onun qulu və elçisidir.

***"Ey iman gətirənlər! Allahdan Ona layiq olan tərzdə qorxun və ancaq müsəlman olduğunuz halda ölün!"***

***"Ey insanlar! Sizi tək bir candan xəlq edən, onun özündən zövcəsini yaradan və onlardanda bir çox kişi və qadın törədib yer üzünə yayan Rəbbinizdən qorxun! Adı ilə bir-birinizdən cürbəcür şeylər istədiyiniz Allahdan və qohumluq əlaqələrini kəsməkdən çəkinin! Həqiqətən, Allah sizə nəzarət edir".***

***"Ey iman gətirənlər! Allahdan qorxun və doğru söz danışın ki, O, sizin əməllərinizi islah etsin və günahlarınızı bağışlasın. Kim Allaha və Onun Elçisinə itaət etsə, böyük bir uğur qazanar".***

Hörmətli oxucu, dəyərli müsəlman qardaş və bacılarım! Allaha iman ətrafı nurlandıran bir işıqdır. Hansı ki, bu işıq altında şücaətlilər, təqva sahibləri və Rəbbinə layiqliyi ilə güvənənlər irəliləmişlər. İman elə bir silahdır ki, əgər onu əldə etmiş olsanız digərlərindən seçiləcəksiniz. İman elə bir gücdür ki, qəlbləri, üzləri, sözləri, əməlləri və hədəfləri doğru olana dəyişər. Lakin təəssüflər olsun ki, zaman keçdikcə insanlar bu dəyərləri unutdular, bununlada ümmət zəif düşdü. Ümmətin sonra gələnlərinin də əvvəli kimi güclü olmasını istəyiriksə o zaman ümmətin əvvəlinə müraciət etməli olacağıq. Çünki onların xəbərlərində izzət, sədaqət, Allaha layiqli iman var. Bizimdə onlar kimi izzətli olmamız üçün onların xəbərlərini bilməmiz lazımdır, çünki bu ümmətin əvvəli nə ilə islah olmuşsa axırıda onunla islah olmalıdır. Onun üçündə bu "Mömünlərin xəbəri" kitabını yazmağa qərar verdim ki, insanlar gedəcəkləri hədəflərini bilsinlər. Bununlada Allahdan, Onun əfv və məğfirətini umdum. Bu kiçik cəhdi, nə malın nə də övladın fayda vermədiyi bir gündə saleh əməllərimin siyahısında etməsini istədim.

***Əbu Ubeydə Usamə ibn Muhəmməd əl-Cəmməl***

**¤Saleh dəvətçi¤**

Suheyb ﴾رضي الله عنه﴿ Peyğəmbərin ﴾صلى الله عليه وآله وسلم﴿ belə dediyini rəvayət edir: "Sizdən əvvəlki tayfaların birində bir şah yaşayırdı. O şahın bir sehirbazı var idi. Sehirbaz yaşa dolduğu zaman şaha belə dedi: "Mən artıq yaşa dolmuşam, mənə bir oğlan uşağı ver ki, ona sehri öyrədim!" Şahda sehirbazın yanına bir oğlan uşağı göndərdi ki, ona sehr öyrətsin. Uşağın getdiyi yolda bir rahib yaşayırdı. Bir dəfə uşaq rahibin yanına gəlib oturdu və onun sözlərini eşitdi. Rahibin sözlərindən uşağın xoşu gəldi. Beləcə uşaq sehirbazın yanına gələrkən, rahibin yanınada oturardı. Sehirbazın yanına gələndə sehirbaz onu (gecikdiyi üçün) döyərdi. Uşaq bu hadisə ilə bağlı rahibə şikayət etdi. Rahib də ona (məsləhət verərək) dedi: "Əgər sehirbazın səni döyməyindən qorxsan, de ki: "Ailəm məni gecikdirdi." Səni ailənin döyməyindən qorxsan, de ki: "Sehirbaz məni gecikdirdi." Uşaq bu şəkildə davam edərkən bir gün nəhəng bir heyvanın insanların qarşısını kəsdiyini gördü. Bunu görən uşaq dedi: "Bu gün mən rahibin, yoxsa sehirbazın Allaha daha yaxın olduğunu biləcəyəm. O, əlinə bir daş götürüb dedi: "Ey Allahım, əgər rahibin işi, sehirbazın işindən Sənə daha sevimlidirsə, onda həmin heyvanı öldür ki, insanlar keçib getsinlər!" O, bunları deyib əlindəki daşı atdı və heyvanı öldürdü. İnsanlar da keçib getdilər. Uşaq rahibin yanına gəlib ona bunu xəbər verdi. Rahib uşağa dedi: "Ey uşaq, bu gün sən məndən üstünsən, sənin işin (halın) gördüyüm həddə çatmışdır. Sən imtahana çəkiləcəksən. Əgər sən imtahan olunsan, məni ələ vermə!" Uşaq anadan gəlmə korları, cüzam xəstəliyinə tutulanları və insanları başqa xəstəliklərdən müalicə edirdi. Həmişə şahın məclisində iştirak edən və yaxınlarında olan kor birisi uşaq barəsində eşitdi və onun yanına çoxlu hədiyyələrlə gedib belə dedi: "Mənə şəfa ver, burada olanların hamısı sənin olsun!" Uşaq dedi: "Mən heç kəsə şəfa vermirəm! Şəfa verən Allahdır. Əgər Allaha iman gətirsən, məndə Ona dua edərəm və sənə şəfa verər!" O, Allaha iman gətirdi. (Uşaq Allaha dua etdi) Allah da ona şəfa verdi. Sonra həmin adam əvvəllər olduğu kimi gəlib şahın yanında oturdu. Şah ondan soruşdu: "Sənə gözlərini kim qaytardı?" O: "Rəbbim!" deyə cavab verdi. Şah ona: "Sənin məndən başqa Rəbbinmi var?" deyə soruşdu. O: "Bəli!" Mənim və sənin Rəbbin olan Allah!" dedi. Bundan sonra şah ona o qədər işgəncə verdi ki, axırda məcbur olub uşağın adını şaha söylədi. Şah uşağın yanına adam göndərib onu gətirtdi və ona dedi: "Oğlum, sehrin elə bir mərtəbəyə çatıb ki, anadan gəlmə korları, cüzam xəstəliyinə tutulanlara şəfa verirsən!" Uşaq dedi: "Mən heç kimə şəfa vermirəm! Şəfa verən ancaq izzət və cəlal sahibi olan Allahdır!" Şah ona da işgəncə verməyə başladı. Nəhayət uşaq məcbur olub rahibin adını söylədi. Şah rahibin yanına adam göndərib onu gətirtdi. Ondan dinindən dönmək tələb edildi. Rahib onun bu tələbini yerinə yetirmədikdə şah mişarla Rahibin başından ayağına kimi kəsib onu iki yerə parçaladı. Sonra da əvvəlcə kor olmuş yaxınını gətirtdi. Ondan dinindən dönmək tələb edildi. O da onun tələbini yerinə yetirmədi. Şah tələbinin yerinə yetirilmədiyini görüb onu da mişarla başından ayağına kimi kəsib iki yerə böldü. Sonra uşağı gətirtdi. Ona da dinindən dönməsi tələb edildi. Uşaqda onun bu tələbinə qarşı çıxdı. Şah uşağı öz adamlarına verib onlara dedi: "Uşağı filan dağa aparın! Dağa qalxıb zirvəyə çatdıqda ondan dinindən

dönməsini tələb edin! Yox əgər o, yenə də öz dinindən dönməsə, onda onu dağın başından aşağı atın!" Onlar uşağı apardılar və onunla dağa qalxdılar. Uşaq dedi: "Ey Allahım, Sən istədiyin şəkildə onlara qarşı məni qoru!" Bu zaman dağ silkələndi və onların hamısı dağdan yuvarlandılar. Uşaq şahın yanına gəldi. Şah ondan soruşdu: "Səninlə gedənlərə nə oldu?" Uşaq dedi: "Allah-Təala məni onlara qarşı qorudu!" Bundan sonra şah uşağı bir neçə nəfərə tapşırıb dedi: "Aparın onu qayığa mindirin. Dənizin ortasına çatdıqda, ondan öz dinindən dönməsini tələb edin! Yox, əgər dinindən dönməsə, onu dənizə atın!" Onlar uşağı apardılar. (Dənizin ortasına çatdıqda) uşaq dedi: "Ey Allahım, Sən istədiyin şəkildə onlara qarşı məni qoru!" Qayıq çevrildi, bu zaman hamısı dənizə düşüb boğuldular. Uşaq yenə şahın yanına gəldi. Şah ondan soruşdu: "Səninlə gedənlərə nə oldu?" Uşaq dedi: "Allah-Təala məni onlara qarşı qorudu!" Sonra uşaq (daha sonra üzünü şaha tutub) belə dedi: "Sən mənim dediyimi etmədikcə, məni öldürə bilməyəcəksən." Şah soruşdu: "O nədir elə?" Uşaq dedi: "İnsanları bir yerə topla və məni bir kötüyə bağla, sonrada kamanından bir ox çıxart, oxu yayına qoy və "Uşağın Rəbbi olan Allahın adı ilə!" de və at! Əgər dediyim kimi etsən, məni öldürəcəksən. Şah belə də etdi. İnsanları bir yerə topladı sonra uşağı bir kötüyə bağladı, sonrada kamanından bir ox çıxartdı, "Uşağın Rəbbi olan Allahın adı ilə!" dedi və oxu atdı. Ox uşağın gözü ilə qulağının arasına sancıldı. Uşaq əlini oxun sancıldığı yerə qoyub öldü. Bunu görən insanlar dedilər: "Biz uşağın rəbbinə iman gətirdik! Biz uşağın rəbbinə iman gətirdik! Biz uşağın rəbbinə iman gətirdik!" Bu zaman şaha belə dedilər: "Gördün, qorxduğun şey başına gəldi. İnsanların hamısı iman gətirdi." Şah küçələrin ağzında xəndəklərin qazılmasını əmr etdi. Sonrada xəndəklər də od qalatdırdı. Şah belə dedi: "Kim dinindən dönməsə onu xəndəyin içinə atın!" Onlar da belə etdilər. Hətta növbə körpəsi ilə olan bir qadına çatdı. O qadın oda düşüb-düşməməkdə tərəddüd etdi. Lakin körpə (dil açıb) anasına: "Ey anam, səbr et! Sən, həqiqətən də haqq üzərindəsən!" deyə söylədi" «*Muslim*».

## ¤Qurtuluş¤

Şafi`i رحمه الله belə deyir: "Bilki, kim Allahı Təsdiq edərsə qurtuluşa uğrayar, kim Onun dinində səhlənkarlıq edərsə həlak yolunu tutmuş olar, kim dünyada zahidlik edərsə sabah (qiyamət günü) Allahın ona vermiş olduğu əcrləri gördüyü zaman gözləri sevinər."

Həmçinin belə buyurur: "Kimdə bu üç xüsüsiyyət olarsa onun imanı kamil olar:
1- "Yaxşılığı əmr edib özüdə edərsə."
2- "Pislikdən çəkindirib özüdə çəkinərsə"
3- "Allahın hədlərini aşmazsa"
Həmçinin belə buyurur: "Dünyadan üz çevir, axirətə tələs, bütün işlərində Allahla sadiq ol, nicat tapıb qurtuluşa uğrayanlarla olarsan." *"Mavaiz əş-Şafi`i səh-56/57"*.

## ¤Firounun qızının baş darayanı¤

Allahın Elçisi ﴿صلى الله عليه وآله وسلم﴾ belə deyir: “İsra gecəsi mənə gözəl bir qoxu gəldi və Mən ey Cəbrail bu gözəl qoxu nədir deyə soruşdum? O da dedi ki, bu: “Firounun qızının baş darayanının və övladlarının qoxusudur. Dedim ki, onun hadisəsi nədir? Dedi: “Bir gün o firounun qızının saçlarını darayarkən daraq əlindən düşür və o “Bismilləh” (Allahın adı ilə) deyərək darağı götürür. Bu zaman firounun qızı ona atamı mı qəsd edirsən? dedi. O da xeyir, lakin mənim və atanın Rəbbi olanı dedi. Qız dedi: “O zaman atama xəbər verəcəm”. O da xəbər ver dedi. Qızı firouna xəbər verdiyi zaman Firoun o qadını çağırtdıraraq: “Ey filankəs sənin məndən başqa Rəbbinmi var?” deyə soruşdu. Qadında ona: “Bəli” mənim və sənin Rəbbin olan Allah dedi. (O zaman Firoun qəzəblənərək) böyük bir qazanın içinə yağ doldurulub altının yandırılmasını, qadın və uşaqlarınında ora atılmasını əmr etdi. Qadın Firouna mənim səndən bir xahişim var dedi. Firounda ona ehtiyacın nədəndir deyə soruşdu? O da cavabında: “Bizı yandırdıqdan sonra mənim və uşaqlarımın sümüklərini bir kəfəndə toplayıb bastırmağını istəyirəm” dedi. Firoun: “Bu sənin bizim üzərimizdə olan haqqındır dedi.” Sonra isə onun uşaqlarını gözləri qarşısında bir-bir qaynayan yağa atıb yandırdılar. Sonuncu uşağı isə süd əmər olduğundan sanki, ona görə bir az tərəddüd etdi. O zaman uşaq dil açaraq: “Ey ana (sən haqq üzərindəsən) özünü oda at, çünki axirət əzabı dünya əzabından daha şiddətlidir” dedi. O da özünü oda atdı.
*“Hədis həsəndir Müsnəd imam Əhməd 3/309” “Heysəmi Məcmə-əz-Zavaid 1/65”.*

**¤Valideyinlərə yaxşı davranmaq¤**

Əbu Hüreyrə ﴿رضي الله عنه﴾ Peyğəmbərin ﴿صلى الله عليه وآله وسلم﴾ belə dediyini rəvayət edir: “Beşikdə yalnız üç adam danışmışdır: “Biri Məryəm oğlu İsa, digəri Cüreycin yoldaşı. (zamanındakı uşaq) Cüreyc abid bir adam idi. Bir kilsə düzəltdirdi. Onun içində yaşayırdı. O namaz qılarkən anası gəldi və: “Ey Cüreyc!” dedi. Cüreyc: “Ey Rəbbim! Anam və namazım!” dedi və namazına yönəldi. Anası getdi. Yenə sabahsı gün olunca, təkrar onun yanına gəldi. Cüreyc namaz qılırdı. Anası ona “Ey Cüreyc!” dedi. Cüreyc: “Ey Rəbbim! Anam və namazım!” dedi və namazına yönəldi. Anası getdi. Sabahsı gün olunca, təkrar onun yanına gəldi. Cüreyc namaz qılırdı. Anası ona “Ey Cüreyc!” dedi. Cüreyc: “Ey Rəbbim! Anam və namazım!” dedi və namazına yönəldi. Anası belə dua etdi: “Allahım! Pozğunların üzünü görmədikcə, bunun canını alma!” Bəni İsrail Cüreyci və ibadətini müzakirə etdilər. Pozğun bir qadın vardı. Gözəlliyi dillərə dastan olmuşdu. (Bu qadın): “İstəsəniz sizin üçün onu fitnəyə salaram!” deyə söylədi və ona sataşdı. Lakin Cüreyc ona fikir vermədi. Sonra qadın Cüreycin kilsəsində məskunlaşan bir çobanın yanına gəldi və ona özüylə zina etməsinə imkan verdi. O da onunla zina etdi. Qadın hamilə qaldı. Doğduğu vaxt: “Bu uşaq Cüreycdəndir!” dedi. (Kəndlilər) Cüreycin yanına gələrək onu aşağı endirdilər və kilsəni alt-üst etdilər. Onu da döyməyə başladılar. Bunun üzərinə Cüreyc: “Sizə nə olub?” dedi. Onlar: “Bu pozğun ilə zina etdin və səndən uşaq doğdu!” dedilər. Cüreyc: “Uşaq haradadır?” deyə onlardan soruşdu. Dərhal onu gətirdilər. Cüreyc onlara: “Məni buraxın, namaz qılım!” dedi və namaz qıldı. Namaz bitdikdən sonra uşağın

yanına gələrək onun qarnına toxundu və: “Ey uşaq! Sənin atan kimdir?” deyə ondan soruşdu. Uşaq: “Filan çobandır!” deyə cavabını verdi. Bunun üzərinə kəndlilər Cüreycə yönəldilər və onu öpüb sığalladılar. Sənin üçün kilsəni qızıl və gümüşdən tikərik!” dedilər. O onlara: “Xeyr! Onu köhnəsi kimi palçıqdan tikin!” deyə buyurdu. Onun dediyi kimi etdilər. Bir dəfə uşaq anasını əmirdi. (Oradan) şaha layiq bir ata minmiş, paltarı gözəl bir adam keçdi. Uşağın anası: “Allahım! Oğlumu bunun kimi et!” deyə dua etdi. Uşaq dərhal döşü buraxıb adama doğru döndü və ona baxdı. Sonra: “Allahım! Məni bunun kimi etmə!” dedi. Sonra döşə dönərək əmməyə başladı.”
Əbu Hüreyrə (رضي الله عنه) belə demişdir: “Mən Peyğəmbərin (صلى الله عليه وآله وسلم) şəhadət barmağını ağzına salaraq onu əmməyə başladığını və uşağın necə əmdiyini anlatmasını sanki hələdə görürəm. “(Sonra) oradan bir kəniz keçdi. Sahibləri onu döyür və: “Sən zina etdin! oğurladın!” deyirdilər. Kəniz isə: “Mənə Allah yetər! O nə gözəl vəkildir!” deyirdi. Uşağın anası: “Allahım! Oğlumu bu kəniz kimi etmə!” deyə dua etdi. Uşaq dərhal əmməyi buraxdı və kənizə baxaraq: “Allahım! Məni bu kəniz kimi et!” dedi. “Burada (uşaq anasıyla) danışmağa başladılar. Ana dedi ki: “Boğazı tutuldu! Gözəl paltarlı bir adam keçdi. Mən: Allahım! Oğlumu bunun kimi et!” dedim. Sən: “Allahım! Məni bunun kimi etmə!” dedin. Bu kənizi döyərək və “Sən zina etdin! Oğurladın deyərək yanımızdan keçirdilər. Mən: “Allahım! Oğlumu bunun kimi etmə!” deyə dua etdim. Sən: “Allahım! Məni bunun kimi et!” dedin. Uşaq belə cavab verdi:” O adam bir zalım idi. Bundan ötəri: “Allahım! Məni onun kimi etmə!” dedim. Bu kənizə isə: “Sən zina etdin! “deyirdilər. Hal buki zina etməmişdir. “Oğurladın! “deyirdilər. Hal buki oğurlamamışdı. Bu səbəblədə: “Allahım! Məni bunun kimi et!” deim.” *«Muslim».*

**¤Etdiyi yaxşı əməllərlə dua etmək¤**

Abdullah ibn Ömər (رضي الله عنه) Peyğəmbərin (صلى الله عليه وآله وسلم) belə dediyini rəvayət edir: ”Üç adam yolla gedərkən onları yağış tutdu və dağda bir mağaraya sığındılar. Bu zaman dağdan bir qaya parçası qopdu və mağaranın ağzını örtdü. Onlar bir-birinə belə dedilər: “Allah üçün etdiyiniz yaxşı əməli düşünün! Onunla Allaha dua edin, ola bilsin ki, Allah sizi xilas etdi! Onlardan biri belə dedi: “Allahım! Mənim yaşlı qoca ata-anamla, bir xanımım və bir də kiçik uşaqlarım vardı. Onlara yaxşı baxırdım. Heyvanlarımı onların yanlarına gətirdiyim zaman süd sağıb, uşaqlardan əvvəl anamla atamdan başlayaraq onlara süd içirərdim. Bir gün odun yığmaq məni uzaqlara apardı. Axşama kimi ailəmin yanına gələ bilmədim. Gəldiyim vaxt anamla atamı yatmış halda gördüm. Hər gün sağdığım kimi (heyvanlardan) südü sağdım və içərisində süd olan qabı gətirdim. Onları yuxudan oyatmamaq üçün başlarının üstündə durdum. Onlardan əvvəl uşaqlara süd içirməyi istəmirdim. Halbuki uşaqlar ayaqlarımın yanında aclıqdan qışqırırdılar. Mənim və uşaqların halı, şəfəq doğana qədər belə davam etdi. Əgər bunu Sənin (razılığın) üçün etdiyimi bilirsənsə, bu qayadan bizim üçün bir az aç ki, oradan səmanı görək!” Bu zaman Allah-Təala, qayanı bir az araladı və oradan göy üzünü gördülər. O biri isə belə dedi: “Allahım! Mənim bir əmim qızı vardı. Mən onu kişilərin qadınları sevdikləri sevginin ən son dərəcəsiylə sevmişdim. Ondan nəfsini (mənə tabe etməsini) tələb etdim. Amma o, ona

yüz dinar gətirmədikcə bunu qəbul etmədi. Mən bu pulu toplamaq üçün yoruldum. Nəhayət yüz dinarla onun yanına gəldim. Ayaqlarının arasına oturduğum zaman belə dedi: “Ey Allahın qulu! Allahdan qorx! Bu subaylıq möhrünü, Haqqı ilə (yalnız evlənməklə) aç!” Bu zaman onun üzərindən qalxdım. Əgər bunu Sənin (razılığın) üçün etdiyimi bilirsənsə, bu qayadan bizim üçün bir az aç! Və onlar üçün qaya bir qədər də açıldı. Digəri isə belə dedi: “Allahım! Mən bir faraq (üç saa miqdarında olan qab) düyü qarşılığında bir işçi tutmuşdum. İşini bitirdiyi zaman: “Mənə haqqımı ver! dedi. Mən də ona haqqı olan farağı verdim. O da bunu qəbul etmədi. Mən o işçiyə vermək istədiyim düyüsünü əkməyə davam etdim. Nəhayət o düyünün gəliri ilə çoxlu inək və çoban əldə etdim. Bu zaman o işçi yanıma gəldi və mənə: “Allahdan qorx! Mənim bu haqqıma zülm etmə!” dedi. Mən də: “O inəklərin və çobanların yanına get və onları götür!” dedikdə, o mənə belə dedi: “Allahdan qorx! Məni ələ salma!” Mən ona: “Səni ələ salmıram. Bu inəkləri və çobanları götür!” dedim. Bu vaxtı o işçi onları götürüb apardı. Əgər bunu Sənin (razılığın) üçün etdiyimi bilirsənsə, bu qayadan bizim üçün bir az aç! Bu zaman Allah, qayanın qalan hissəsinidə araladı.” *«Muslim».*

**¤Nə üçün ölümə ikrah hissi duyuruq¤**

Abdul Cabbar ibn abdul Əziz ibn əbi Həzm belə deyir: “Atam mənə belə dedi: “Süleyman ibn abdul Məlik əbu Həzmin yanına adam göndərərək onu öz yanına çağırır və ona: “Ey əbu Həzm nə üçün biz ölümə ikrah hissi duyuruq?” deyə ondan nəsihət istədi. O da - cavabında: “Çünki, siz axirəti sona saxlayıb dünyanı imarət etdiniz, dünyanızı qurdunuz. Onun üçündə siz tikilmiş olandan xarab etdiyinizə, düzəltməyi unutduğunuz axirətə köçməkdən qorxursunuz. Dedi ki, düz deyirsən, bəs onda Allaha dönüş necə olacaq? - dedi: “Yaxşılıq edən kəs səfərdə olub ailəsinə qovuşan, günahkar olan isə ağasına asi olub cəzalandırılmaq üçün gətirilən kəs kimi olacaq. Süleyman bunları eşitdikdə ağladı və belə dedi: “O zaman biz Allah yanında bizi nəyin gözlədiyini necə bilək?” Əbu Həzm dedi: “Nəfsini Allahın kitabının tərəzisinə qoy o zaman sən Allah yanında səni nələrin gözlədiyini biləcəksən.” Süleyman soruşdu bunu hansı ayadə oxuyum? Əbu Həzm dedi: “Allahın bu ayələrində: “ إِنَّ الْأَبْرَارَ لَفِي نَعِيمٍ ﴿١٣﴾ وَإِنَّ الْفُجَّارَ لَفِي جَحِيمٍ ﴿١٤﴾ ” ***“Həqiqətən, itaətkarlar nemət içində olacaqlar. Şübhəsiz ki, günahkarlarda Cəhənnəmdə olacaqlar.” əl-İnfitar 13-14.*** Süleyman dedi: “Bəs Allahın rəhməti?” Əbu Həzm onun bu sualının cavabında: “ إِنَّ رَحْمَتَ اللَّهِ قَرِيبٌ مِنَ الْمُحْسِنِينَ ﴿٥٦﴾ ” ***“Həqiqətən, Allahın mərhəməti yaxşılıq edənlərə yaxın-dır.” əl-Əraf 56.*** ayəsini oxudu. Süleyman dedi: “O zaman Allahın Rəhmətini qazanma yolunu öyrət. O da: “Allahdan qorx! Onun səni qadağan etdiyi yerlərdə olma, Çalış O səni daim əmr etdiyi yerlərdə görsün.” Süleyman dedi: “Bizim üçün dua et ey əbu Həzim.” Əbu Həzm belə dua etdi: “Allahım! əgər Süleyman sənə itaət edənlərdəndirsə ona daha çox xeyirlər etməyi asanlaşdır, yox əgər asilərdəndirsə onu xeyirlərə müvəffəq et və xeyrə yönəlt.” Süleyman yanında olan qula ona yüz dinar verilməsini əmr etdi. Əbu

Həzm isə bundan imtina edərək dedi: “Mənim ona ehtiyacım yoxdur və mən qorxuram ki, bu sənin məndən eşitdiklərinə görə olar.” *“Sifətu əs-Safvəti 1/387”*

**¤Allah yolunda sədəqə malı qoruyur¤**

Əbu Hüreyrə ﴿رضي الله عنه﴾ Peyğəmbərin ﴿صلى الله عليه وآله وسلم﴾ belə dediyini rəvayət edir: “Bir kişi geniş və susuz bir səhrada olduğu vaxt, bir bulud içində: “Filankəsin bagçasını sula!” deyən bir səs eşitdi. Bu əmrə tabe olaraq o bulud, söylənən bağçaya tərəf yönəldi və sularını bir qara daşlığa boşaltdı. Oradakı su yollarından, bu suyun hamısını tuta biləcək böyük bir kanal meydana gəldi. O şəxs bu su kanalını təqib etdi. Nəhayət bağçasında ayaq üstə duraraq suyu əlindəki alətlə bağa yönəldən bir kişi ilə qarşılaşdı və ona: “Ey Allahın qulu! Sənin adın nədir? deyə soruşdu”. Bağçadakı şəxs, bəridəkinin buluddan eşidmiş olduğu adla: «Mənim adım filandır deyə cavab verdi” və Ey Allahın qulu! Sən mənim adımı nə üçün soruşursan? dedi. Bərideki şəxs də: Mən suları bu kanaldakı sular olan buludda sənin adın ilə: “Filanın bağçasını sula!” deyə əmr edən bir səs eşitdim. Buna görədə sən o bağça haqqında nə işlər edirsən? dedi. Bağçadakı şəxs: Sənin dediyin bu şeyə gəlincə; mən bu bağçadan çıxacaq məhsullara baxıram. Nəticədə məhsulun üçdə birini sədəqə edirəm. Üçdə birini, baxımları mənə düşən ailə üzvülərimlə birlikdə yeyirəm. Məhsulun qalan üçdə birini də yenidən əkmək üçün bağçada saxlayıram. *«Muslim»*.

**¤Allah üçün sevməyin mükafatı¤**

Əbu Hüreyrə ﴿رضي الله عنه﴾ Peyğəmbərin ﴿صلى الله عليه وآله وسلم﴾ belə dediyini rəvayət edir: “Bir kişi başqa bir kəntdə olan qardaşını ziyarət etdi. Bunun üzərinə Allah onun üçün yoluna nəzarət edən bir mələk qoydu. Adam mələyin yanına gəlincə (ona): “Hara getmək istəyirsən? deyə soruşdu. Adam: “Bu kəntdəki qardaşımın yanına getmək istəyirəm!” deyə cavab verdi. Mələk ondan: “Sənin onun üzərində islahına çalışdığın bir nemətin varmı?” deyə soruşdu. Adam: “Xeyr! Lakin mən onu Allah Təalə üçün sevdim” cavabını verdi. Mələk: «O halda mən sənin o qardaşını Allah üçün sevdiyin kimi, Allah da səni sevdiyini bildirmək üzrə Allahın sənə göndərdiyi elçiyəm.” *«Muslim»*.

**Fayda:**

Ənəs ﴿رضي الله عنه﴾ Peyğəmbərin ﴿صلى الله عليه وآله وسلم﴾ belə dediyini rəvayət edir: “Kimdə (bu) üç şey olsa, imanın şirinliyini dadmış olar: Allahı və Onun Elçisini ﴿صلى الله عليه وآله وسلم﴾ başqalarından daha çox sevmək; ***adamı yalnız Allah üçün sevmək***; Cəhənnəmə atılmağı xoşlamadığı kimi, küfrə qayıtmağı da xoşlamamaq. *«əl-Buxari»*.

Əbu Hüreyrə ﴿رضي الله عنه﴾ Peyğəmbərin ﴿صلى الله عليه وآله وسلم﴾ belə dediyini rəvayət edir: “Yeddi qism insan vardır ki, Allah onları Öz kölgəsində başqa heç bir kölgənin olmadığı bir gündə Öz kölgəsi altında kölgələndirəcəkdir: (bunlar) ədalətli rəhbər, Rəbbinə ibadət etməklə böyüyüb boya-başa çatmış gənc, qəlbi məscidlərə bağlı olan kişi, ***biri-birini Allah xətrinə***

***sevən, Onun yolunda birləşib, Onun yolunda ayrılan iki nəfər,*** gözəl və zadəgan bir qadın tərəfindən zinaya çağırıldıqda: "Mən Allahdan qorxuram!"-deyən kişi, sağ əli ilə verdiyi sədəqəni sol əlindən gizlədən adam və xəlvətə çəkilib Allahı yad etdikdən sonra gözləri yaşla dolan kişi (və ya qadındır)." *«əl-Buxari».*

**¤Heyvanlara yaxşı davranmaq günahlara kəffarədir¤**

Əbu Hüreyrə ﴿رضي الله عنه﴾ Peyğəmbərin ﴿صَلَّى اللهُ عَلَيهِ وَآلِهِ وَسَلَّم﴾ belə dediyini rəvayət edir: "(Bir dəfə bir adam yolla gedərkən bərk susadı və bir quyuya enib su içdi. Sonra quyudan bayıra çıxdıqda bir itin susuzluqdan ləhlədiyini və yaş torpaq yaladığını görüb (öz-özünə) "Mən susadığım kimi, bu (it də) susamışdır"- dedi və (quyuya enib) ayaqqabısını su ilə doldurdu. Sonra ayaqqabısını dişləri ilə tutub quyudan çıxdı və itə su verdi. Allah da ona (bunun) əvəzini verdi və onu bağışladı." (Səhabələr) dedilər: "Ey Allahın elçisi, məgər heyvanlara (etdiyimiz yaxşılıqlara) görədə bizə savab yazılır?" O ﴿صَلَّى اللهُ عَلَيهِ وَآلِهِ وَسَلَّم﴾ buyurdu: "Hər bir canlıya (göstərdiyin qayğıya) görə savab vardır." *«əl-Buxari».*

Əbu Hüreyrə ﴿رضي الله عنه﴾ Peyğəmbərin ﴿صَلَّى اللهُ عَلَيهِ وَآلِهِ وَسَلَّم﴾ belə dediyini rəvayət edir: "Quyunun başında durub ləhləyən, susuzluqdan az qala öləcək bir itin yanından keçən pozğun bir qadının (günahları) bağışlanmışdır.Qadın ayaqqabısını çıxardıb örpəyinə bağladıqdan sonra onu quyuya sallayıb it üçün su çıxartmış və bu səbəbdən də (onun günahları) bağışlanmışdır." *«əl-Buxari».*

**¤Sən məni ayıltdın Allah səni ayıltsın¤**

Əhməd ibn Asim رحمه الله belə deyir: "Bir gün Süfyan əs-Sovri (رحمه الله) və Fudeyl ibn İyad (رحمه الله ) qarşılaşaraq birlikdə oturub Allahı xatırladılar və Onun qorxusundan ağladılar. Məclisləri sona yetdikdə Sufyan belə dedi: "Mən elə ümüd edirəm ki, bizim Allahı xatırlamaq üçün oturduğumuz bu məclis (Allah qatında) ən xeyirli və bərəkətli məclislərdən ola."
Fudeyl isə cavabında: "Mən isə qorxuram ki, bizim Allahı xatırlamaq üçün oturduğumuz bu məclis qiyamət günü bizim üçün məzəmmət məclisi ola. Sən, səndə olan ən yaxşı əxlaqı mənə göstərərək mənim gözümdə gözəl görünməyə çalışmadınmı? Məndə özümdə olan ən gözəl əxlaqı sənə göstərməyə çalışmadımmı? dedi. Sufyan bu sözlərdən sonra uca səslə ağladı və belə dedi: "Məni ayıltdın Allah səni ayıltsın." *"Hilyətul Ovliyə 8/114".*

**¤Əbu Muslim əl-Xovlani¤**

Əlqamə ibn Mərsəd رحمه الله belə deyir: "Zahidliyin yüksək mərtəbəsinə tabiinlərdən olan səkkiz kişi çatmışdır. Onlardan biri də "Əbu Muslim əl-Xovlani" رحمه الله dir. O, oturduğu hər hansısa bir məclisdə dünya işlərindən olan hər hansısa bir işdən danışılardısa O

dərhal o məclisi tərk edərdi. Bir gün O məscidə girdikdə orada oturan bir neçə nəfər gördü. Onların Allahı xatırladıqlarını güman edərək onlara qoşulmaq istədi. Lakin onlarla oturduqdan sonra onların dünyadan danışdıqlarını görüb belə dedi: "Subhənallah!" bilirsinizmi mənimlə sizin məsəliniz, yağışa düşüb ondan qorunmaq üçün bir evə girən, lakin sığındığı o evin də tavanının olmadığını görən bir kəsin məsəlinə bənzəyir. *"Sifətu əs-Safvəti 2/370".*

**¤Allahdan Qorxmaq¤**

Əbu Hüreyrə (رضي الله عنه) Peyğəmbərin (صلى الله عليه وآله وسلم) belə dediyini rəvayət edir: "Heç yaxşılıq etməmiş bir adam ailəsinə: "Mən öldüyüm vaxt məni yandırın, sonra (bədənimin) yarısını quruya, (bədənimin) yarısınıda dənizə səpələyin! Allaha and olsun! Əğər Allah Təalə məni diriltmək iqtidarında olsa, mənə heç kəsə etmədiyi şiddətli əzab çəkdirəcəkdir.»" O adam öləndə, onun əmr etdiyini etdilər. Allah quruya əmr etdi, o içindəkini yığdı. Dənizə əmr etdi, o da içindəkini topladı. Sonra (o adama): "Bunu nə üçün etdin?" deyə soruşdu. O adam: «Sənin qorxundan ey Rəbbim! Sən daha yaxşı bilirsən!" dedi. Allah Təala onu əfv etdi." «*Muslim*».

**¤Tövbə və qurtuluş torpağı¤**

Əbu Səid əl-Xudri (رضي الله عنه) Peyğəmbərin (صلى الله عليه وآله وسلم) belə dediyini rəvayət edir: "Sizdən əvvəlkilərdən (ümmətlərdən) biri doxsan doqquz adam öldürdü. Dünyada ən çox bilənin kim olduğunu soruşdu və ona bir rahibi göstərdilər. Onun yanına gəlib belə dedi: "Doxsan doqquz adam öldürmüşəm." Və (həmçinin) soruşdu ki, buna tövbə varmı? O dedi: "Xeyr!" Həmin adam rahibi də öldürərək bununla sayı yüzə tamamladı. Sonra Dünyada ən çox bilənin kim olduğunu soruşdu və ona bir alimi göstərdilər. Onun yanına gəlib dedi ki, yüz adam öldürmüşəm və (həmçinin) soruşdu ki, buna tövbə varmı? O dedi: "Bəli!" Kim tövbə edənlə tövbəsi arasına girə (tövbə edənə mane ola) bilər? İnsanların Allah-Təalaya ibadət etdikləri (filan) yerə get, onlarla birgə Allaha ibadət elə və öz torpağına qayıtma, çünki ora pis (şər) yerdir. O yola düşüb yolun yarısına çatmışdı ki, ölüm onu haqladı. Onun üçün rəhmət və əzab mələkləri öz aralarında mübahisə etməli oldular. Rəhmət mələkləri dedilər: "O tövbə edərək qəlbi ilə Uca –Allaha tərəf (doğru) gəlmişdir!" Əzab mələkləri isə dedilər: "O həqiqətən heç bir xeyir iş görməmişdir." Onların yanına insan qiyafəsində bir mələk gəldi. Onu öz aralarında hakim təyin etdilər. O dedi: "Bu iki (gəldiyi yerdən bura və burdan gedəcəyi yerə qədər) məsafəni ölçün, hansına yaxın olarsa, orada aiddir. Ölçdükdə gördülər ki, gedəcəyi yerə yaxındır və onu (onun ruhunu) rəhmət mələkləri aldılar." Qatədə Həsənin belə dediyini rəvayət edir: "Bizə deyildiyinə görə: "Bu adama ölüm gəlincə sinəsiylə (o tərəfə doğru) irəliləmişdir (sürünmüşdür)." «*Muslim*».

**¤Əhdə vəfalı olmaq¤**

Əbu Hüreyrə ﴿رضي الله عنه﴾ Peyğəmbərin ﴿صلى الله عليه وآله وسلم﴾ belə dediyini rəvayət edir: "Bəni İsraildən olan bir kişi öz millətindən olan bəzi kəslərdən borc olaraq min dinar istədi. Borc vermək istəyən bir dostu: "Bu pulu sənə verməmə şahid olsun diyə şahid gətir" deyər. Borc alan İsrailli: "Ən yaxşı şahid olmaq üzərə Allah kifayətdir" deyir. Borc vermək istəyən: "O zaman bu borcuna zamin gərit" deyər. İsrailli: "Zamin olmaq üçündə Allah bəs edər" deyir. Borc vermək istəyən: "Həqiqətən doğru söyləyirsən" deyər, və müəyyən bir vədə ilə min dinarı ona verər. Borc alan İsrailli dəniz səfərinə çıxır, işlərini görür, qayıtmaq istəyir. Borcunun vədəsi bitirdi. Vədələşdikləri vaxtda borcunu qaytarmaq istəyirdi. Lakin qayıtmaq üçün gəmi tapa bilmirdi. Bir odun parçası götürüb içini oyur. Min dinarı bunun içinə yığıb bir də məktub qoyaraq ağzını möhkəmcə bağlayır və dəniz kənarına gəlir. Belə bir dua edir: "Allahım! Sən çox yaxşı bilirsən ki, mən filan kimsədən min dinar borc götürdüm. Məndən zamin istədi. Zamin olmaq üçün Allah kifayətdir, dedim. Sənin zaminliyinə razı oldu. Şahid istədi. Şahid olmaq üzrə Allah kifayət edər, dedim. Şənin şahidliyinə də razı oldu. Vaxtında borcumu ödəmək üçün çalışdım. Geri qayıtmaq üçün bir gəmi axtardım. Tapmağa müvəffəq ola bilmədim. Artıq bu borcumu Sənin hifz və siyanətinə təqdim edirəm," deyərək odun parçasını dənizə atdı. Odun parçası dənizə düşdükdən sonra o da geri qayıdar. Borclu belə gəmi tapmağa çalışarkən borc verəndə onun qayıdacağını ümüd edərək dəniz kənarına çıxar. Bu qızıl dolu ağac parçasını dəniz sahilində görər. Evdə yandırılar düşüncəsiylə o odun parçasını götürər. Evdə odun parçasını böldükdə içindəki pullarla məktub çıxar. Sonra borclu olan qayıdıb gəlir. Borc verən kəsin yanına gələrək: "Borcumun vədəsi gecikdi amma nə edim ki, gei qayıtmaq üçün gəmi tapa bilmədim, deyə and içər və çıxarıb borc aldığı kişiyə min dinar uzadar. Borc verən: "Sən mənə borcunu göndərmədinmi? Deyə soruşdu. Borclu: "Gəlmək və göndərmək üçün gəmi tapa bilmədiyimi söylədim" deyə cavab verir. Borc verən: "Allah Təala odun içində göndərdiyin pul ilə sənin borcunu ödədi,"deyir. Borcluda sevinərək təkrar vermək üçün hazırladığı min dinarı götürüb gedət. *«əl-Buxari».*

**¤Allahım sənə həmd olsun¤**

Əbu Hüreyrə ﴿رضي الله عنه﴾ Peyğəmbərin ﴿صلى الله عليه وآله وسلم﴾ belə dediyini rəvayət edir: "Bir kişi: "Bu gecə sədəqə verəcəyəm" deyərək, sədəqəsi ilə çıxır və sədəqəsini zinakar qadına verir. Səhər olduqda, (onun) gecə zinakara sədəqə verdiyi haqda danışmağa başladılar. Kişi: "Allahım sənə zinakara görə həmd edirəm. Sədəqə verəcəyəm." deyərək, sədəqəsi ilə çıxaraq, sədəqəni varlı olan bir kəsə verdi. Səhər olduqda varlıya sədəqə verdiyi haqda danışmağa başlayırlar. Kişi: "Allahım sənə varlıya görə həmd edirəm. Sədəqə verəcəyəm." deyərək, sədəqəsi ilə çıxaraq, sədəqəni oğru olan bir kəsə verir. Səhər olduqda gecə oğruya sədəqə verildiyi haqda danışmağa başlayırlar. Kişi belə dedi: "Allahım sənə zinakara, varlıya və oğruya görə həmd edirəm." (Qiyamət günü) gətirildiyi vaxt ona belə deyiləcək: "Sədəqən artıq qəbul olunmuşdur. Zinakar sədəqənlə zina etməkdən çəkindi. Varlı yəqin ki, sədəqəndən ibrət alıb malından sədəqə verdi. Oğru isə sədəqənlə yəqin ki, oğurluq etməkdən əl çəkdi." *«Muslim».*

## ¤Salehlər arasında qohumluq iman bağlarını gücləndirir¤

Əbu Hüreyrə (رضي الله عنه) Peyğəmbərin (صلى الله عليه وآله وسلم) belə dediyini rəvayət edir: "(Bir dəfə) bir nəfər başqa birisindən onun malikanəsini satın aldı. Sonra malikanəni satın alan adam oradan bir küp qızıl tapdı və mülk sahibinə dedi: "Gəl qızıllarını apar! Mən səndən ancaq torpaq sahəsini satın almışam, qızılıki almamışam." Mülk yiyəsi dedi: "Mən onu sənə içindəkilərlə birlikdə satmışam." Belə olduqda onlar öz mübahisələrini həll etmək üçün (şəriəti bilən) bir adama müraciət etdilər və həmin adam soruşdu: "Sizin övladınız varmı?" Onlardan biri: "Mənim bir oğlum var!"-dedi. O birisi isə: "Mənim bir qızım var!" –dedi. Onda həmin adam belə buyurdu: "Oğlanla qızı evləndirin və bu qızılların (bir qismini ) cavanlara xərcləyin, (bir qismini də) sədəqə verin!" *«əl-Buxari».*

## ¤Hikmətli qazi¤

Zubeyr ibn Bəkkar رحمه الله belə dedyir: "Bir qadın Ömər ibn Xəttabın (رضي الله عنه) yanına gələrək: "Ey mömünlərin əmiri! Mənim ərim gündüz oruc tutur, axşam da namaz qılır və mən də ondan Allaha itaətdə olduğu üçün şikayət etmək istəmirəm."-dedi. Ömər ibn əl-Xəttab da (رضي الله عنه) o qadına: "Sənin ərin nə gözəl insandır" dedi. Qadın bu sözünü bir neçə dəfə təkrar etdi, O da hər dəfə eyni cavabı verdi. Bu zaman Ka`b ibn Sivar əl-Əsədi: "Ey mömünlərin əmiri bu qadın sənə öz ərinin ondan uzaqlaşdığından şikayət edir" dedi. Ömər ibn əl-Xəttab (رضي الله عنه) da Ka`ba sualı başa düşdüyün kimi də onlar arasında ədalətli hökm ver dedi. Ka`b o qadının ərinin onun yanına gətirilməsini istədi. Qadının əri gəldikdə ona: "Arvadın səndən şikayət edir" dedi. Kişi də: "Yemək, içməyindənmi?" deyə soruşdu. Ka`b da: dediklərinin heç birindən. Yalnız ondan uzaq düşdüyündən şikayətçidir. Bilki, Allah sənə qadınlardan iki, üç və dördü ilə evlənməni halal etmişdir, (sənin də bir zövcən olduğundan) sən üç gün gecəleriylə Allaha ibadət et, dördüncü gününü gecəsi ilə isə ailən üçün ayır dedi. Ömər (رضي الله عنه) Ka`ba xitabən: "Sənin etdiklərinin daha çox hansına təcüblənəcəyimi bilmirəm, qadının sualını anlamanamı, yoxsa verdiyin hökməmi" dedi və onu Bəsrəyə vali təyin etdi. *"Məvaridinin əl-Əhkəm əs-Sultaniyyə Səh/92".*

## ¤Dünyanı axirət üçün tərk edən¤

Abdullah ibn Məsud (رضي الله عنه) Peyğəmbərin (صلى الله عليه وآله وسلم) belə dediyini rəvayət edir: "Sizdən əvvəlkilərdən (ümmətlərdən) öz məmləkətində yaşayan varlı bir kişi vardı." Bir gün o içində olduğu hala baxıb bu (mülkün) bir gün bitəcəyini və bunların fani olduğunu, mal və mülkün onu Rəbbinə ibadət etməkdən yayındırdığını anladı" Bir gecə o saraydan onun tanınmadığı başqa bir məmləkətə getdi. Dəniz kənarına gəldi. Orada kərpic kəsib satır, ondan yeyir və artiq qalanından sədəqə verirdi. Günlər belə keçərkən onun halı, ibadəti və fəziləti həmin məmləkətin başçısına çatdı. Padşah onun yanına bir adam göndərərək onu öz yanına çağırtdırdı. Lakin o gəlməkdən boyun qaçırdı. Beləliklə padşah onun yanına bir neçə dəfə adam göndərərək çağırır, o isə onun yanına gəlməkdən boyun

qaçıraraq: “Mənim onunla nə işim, onun mənimlə nə işi.” deyirdi. Sonunda padşah özü miniyinə minərək onun yanına gəldi. Həmən kişi padşahı gördükdə qaçmağa başladı. Padşah da onun dalınca qaçaraq, onun ardından: “Məndən sənə zərər gəlməz” dedi. Kişi dayandı, padşah onun yanına gələrək: “Allah sənə rəhm etsin! Sən kimsən? dedi. O da: “Başqa bir məmləkətin padşahı Filanın oğlu filanam”. Mən içində olduğum dünya neymətlərinə baxdım və bildim ki, bunlar bitəcək, tükənəcək və bununla yanaşı artıq o məni Rəbbimə ibadətdən yayındırmışdır. Rəbbimə ibadət etmək üçün də mən, o mülkü tərk edib buraya gəldim.” dedi. Gələn padşah ona: “Mənim sənin etdiyinə daha çox ehtiyacım var” dedi və miniyindən düşərək onu buraxdı. Sonra onunla birlikdə getdi. Onlar birlikdə Allaha ibadət edirdilər. Birlikdə də ölmələri üçün dua etdilər və öldülər. Abdullah ibn Məsud ﴿رضي الله عنه﴾ deyir ki, “Əgər Misirdə olsaydım Allah Rəsulunun ﴿صلى الله عليه وآله وسلم﴾ bizə dediyi işarələrlə onların qəbirlərini sizə göstərərdim.” *“Əhməd müsnəddə (1/451), Bəzzar müsnəddə 4/267/3689), Şeyx Albani səhihləşdirib.”*

**¤Öz çuxurunu doldurdu¤**

Ömər ibn Abdul-Əzizin رحمه الله bir dostu var idi. Bir gün dostunun öldüyü ona xəbər verildi. Onun ailəsinə baş sağlığı vermək üçün onların evinə getdi. Onların səslərini ucaldaraq ağladıqlarını gördükdə onlara: “Sizə ruzi verən bu deyildi. Sizi ruziləndirən əbədi diri olan və ölməzdir.” Bu ölən sizlərdən kiminsə yox yalnız öz çuxurunu doldurdu. Sizin də dolduracağınız çuxurlarınız var. Allah dünyanı yaratdıqda onun xarab, əhlininsə fəna olacağına hökm verdi. Hər bir birləşən bir gün ayrılacaqdır, yalnız Allah qalacaqdır. Sizlərdən kim ağlamaq istəsə öz nəfsinə ağlasın, çünki bu gün bunun getdiyi yerə sabah siz də gedəcəksiniz. *“Mavaiz əl-imam Ömər ibn Abdul-Əziz səh 75”*

**¤İsrail oğullarından olan cüzam xəstəliyinə tutulmuş adamın, korun və keçəlin hekayəti¤**

Rəvayət edilir ki, Əbu Hüreyrə ﴿رضي الله عنه﴾ Peyğəmbərin ﴿صلى الله عليه وآله وسلم﴾ belə dediyini eşitmişdir: “(Vaxtı ilə) Allah İsrail oğullarından üç nəfəri cüzam xəstəliyinə tutulmuş birisini, keçəli və kor adamı imatahana çəkmək istədi. Odur ki, onların yanına bir mələk göndərdi. Mələk (insan qiyafəsində əvvəlcə) cüzam xəstəliyinə tutulmuş kimsənin yanına gəlib dedi: “Sənin ən çox istədiyin şey nədir?” O dedi: “Gözəl rəng və gözəl dəri! İnsanlar artıq məndən diksinirlər.” Mələk əlini onun vücuduna sürtdü və bu çirkinlik keçib getdi, onun rəngi və dərisi gözəlləşdi. Mələk soruşdu: “Sənin ən çox sevdiyin mal nədir?” O: “Dəvə yada inəkdir”-deyə cavab verdi. Ona on aylıq boğaz dəvə verildi və mələk dua edib dedi: “(Allah) bunu sənin üçün bərəkətli etsin!”
Sonra mələk keçəlin yanına gəlib dedi: “Sənin ən çox istədiyin şey nədir?” O dedi: “Gözəl saçım (olsun) və bu (keçəllik) məndən getsin. İnsanlar artıq məndən diksinirlər.” Mələk əlini onun başına çəkdi və onun keçəlliyi keçib getdi, ona gözəl saç bəxş edildi. Mələk soruşdu: “Sənin ən çox sevdiyin mal nədir?” O: “İnəkdir”-dedi. Ona bogaz inək verildi və mələk dua edib dedi: “(Allah) bunu sənin üçün bərəkətli etsin!”
Bundan sonra mələk korun yanına gəlib dedi: “Sənin ən çox istədiyin şey nədir?” O dedi: “Allah gözlərimi özümə qaytarsın və mən insanları görə bilim.” Mələk əlini (onun gözlərinə sürtdü) və Allah onun gözlərini özünə qaytardı. Mələk soruşdu: “Sənin ən çox

sevdiyin mal nədir?" O: "Qoyundur"-dedi. Ona balalı bir qoyun verildi (və mələk dua edib dedi: "Allah bunu sənin üçün bərəkətli etsin!)"
Bundan sonra bu ikisinin heyvanları bala verdi, üçüncüsünün də (qoyunu) balaladı. Bir müddət keçdikdən sonra birinin bir vadi dolusu dəvəsi, o birinin bir vadi dolusu mal-qarası, üçüncüsünündə bir vadi dolusu qoyunu oldu. Sonra mələk ilk dəfə gəldiyi görkəmdə və qiyafədə cüzam xəstəliyinə tutulmuş kimsənin yanına gəlib dedi: "Mən kasıb bir adamam. Səfərdə ikən mənim bütün vəsaitim tükənmişdir. Bu gün mən yalnız və yalnız Allahın köməyi ilə sonrada sənin köməyinlə (istəyimə) nail ola bilərəm. Sənə gözəl rəng, gözəl dəri və (bu qədər) sərvət bəxş etmiş Allah rizasına mənə bir dəvə ver, onun sayəsində səfərimi başa çatdıra bilim." (Bu adam cavabında ona) dedi: "Düzü (özümün) o qədər verəcəyim var ki!" (Mələk) ona dedi: "Gərək ki, mən səni tanıyıram. Məgər sən həm cüzam xəstəliyinə tutulmuş, həm insanların diksindiyi, həm də kasıb bir adam deyildinmi? Sonra da Allah sənə (istədiklərini) vermədimi?" Adam dedi: "(Bu var-dövlət) mənə ata-babalarımdan miras qalmışdır." Mələk dedi: "Əgər yalan danışırsansa, Allah səni əvvəlki halına qaytarsın!" Sonra mələk ilk dəfə gəldiyi görkəmdə və qiyafədə keçəlin yanına gəldi və ona da əvvəlkinə dediklərinin eynisini söylədi. Əvvəlki adam onu rədd etdiyi kimi keçəl də ona yox cavabı verdi. (Onda Mələk) dedi: "Əgər yalan danışırsansa, Allah səni əvvəlki halına qaytarsın!" Sonra mələk ilk dəfə gəldiyi görkəmdə və qiyafədə korun yanına gəlib dedi: "Mən kasıb adamam, yolda qalmışam. Səfərdə ikən mənim bütün vəsaitim tükənmişdir. Bu gün mən yalnız və yalnız Allahın köməyi ilə sonra da sənin köməyinlə (istəyimə) nail ola bilərəm. Sənin gözlərini özünə qaytaran Allah rizasına mənə bir qoyun ver, onun sayəsində səfərimi başa çatdıra bilim." Adam dedi: "(Doğrudur,) mən kor idim Allah gözlərimi mənə qaytardı, kasıb idim, O mənə var-dövlət nəsib etdi! Odur ki, nə qədər (qoyun) istəyirsənsə, götür. Vallahi ki, bu gün mən sənin Allah rizası üçün götürdüyün şeylərə hədd qoymayacağam." Mələk dedi: "Malını özünə saxla bu sizin üçün yalnız bir imtahan idi. Allah səndən razı qaldı, lakin o biri iki dostuna qəzəbi tutdu!" *«əl-Buxari».*

### ¤Danışan inək və canavar¤

Əbu Hüreyrə ﴿رضي الله عنه﴾ Peyğəmbərin ﴿صلى الله عليه وآله وسلم﴾ belə dediyini rəvayət edir: "Bir dəfə bir kişi inəyini yükləyərək yolla sürürdü. İnək ona tərəf çevrilib: "Mən bunun üçün xəlq olunmamışam! Mən yalnız əkin üçün xəlq olunmuşam!" dedi. İnsanlar buna təəccüb edərək belə dedilər: "Subhənallah! İnəkdə danışarmı?" Peyğəmbər ﴿صلى الله عليه وآله وسلم﴾ belə buyurdu: "Buna mən iman edirəm və mənimlə birlikdə Əbu Bəkr və Ömərdə iman edirlər."
Əbu Hüreyrə ﴿رضي الله عنه﴾ Peyğəmbərin ﴿صلى الله عليه وآله وسلم﴾ belə dediyini rəvayət edir: "Bir gün bir çoban qoyun otararkən bir canavar gələrək sürüdən bir qoyunu apardı. Çoban onu təqib edərək qoyunu ondan aldı. Canavar ona tərəf çevrilərək belə buyurdu: "Yırtıcıların günü baxarıq. O gün bu sürüyə məndən başqa çoban olmayacaqdır." İnsanlar "Subhənallah! dedikdə, Peyğəmbər ﴿صلى الله عليه وآله وسلم﴾ belə buyurdu: "Buna mən iman edirəm və mənimlə birlikdə Əbu Bəkr və Ömərdə iman edirlər." *«Muslim»*

**¤Danışıqda sadiq olmaq¤**

İbn Şihab belə rəvayət edir: “Sonra Peyğəmbər ﴿صلى الله عليه وآله وسلم﴾ Təbuk döyüşünə getdi. Halbuki özü romalılarla Şamdakı xristiyan ərəblərinin üzərinə getmək istəyirdi. İbn Şihab deyir ki; Mənə Əbd ər-Rahman ibn Abdullah ibn Kəab ibn Malik xəbər verdi ki, Kəab ﴿رضي الله عنه﴾ gözləri tutulduqdan sonra onu gəzdirən oğlu Abdullah ibn Kəab belə deyir ki, o Kəab ibn Məlikin Təbuk döyüşündə Peyğəmbərlə ﴿صلى الله عليه وآله وسلم﴾ iştirak etməyib, arxada qalmasından danışdığını eşidib. Kəab ﴿رضي الله عنه﴾ belə rəvayət edir: “Təbuk döyüşündən başqa, Allahın Elçisinin ﴿صلى الله عليه وآله وسلم﴾ döyüşlərinin heç birində arxada qalmadım. Bir də arxada qalanların məzəmmət olunmadığı Bədr savaşında olmadım. Beləki, Allahın Elçisi ﴿صلى الله عليه وآله وسلم﴾ və müsəlmanlar Qureyşin dəvələri üçün çıxmışdılar. Allah da onları vədələşmədikləri bir yerdə düşmənləri ilə üz-üzə gətirdi. Mən həmçinin İslama sadiq qalacağımıza əhd etdiyimiz Əqəbə (Məkkə yaxınlığında Peyğəmbərin ﴿صلى الله عليه وآله وسلم﴾ Mədinədən olan tərəfdarları (ənsarlar) ilə gizli görüşdükləri yerin adı) gecəsi Peyğəmbərlə ﴿صلى الله عليه وآله وسلم﴾ birgə idim. İnsanlar arasında Bədr döyüşünün Əqəbə beyətindən daha üstün sayılmasına baxmayaraq mənim üçün Əqəbə beyəti daha sevimli idi. O ki, qaldı Təbuk döyüşündə iştirak etməyib Allah Elçisindən ﴿صلى الله عليه وآله وسلم﴾ arxada qalmağıma, həqiqətən o döyüşə getmədiyim vaxtdakı kimi heç bir zaman güclü və varlı olmamışam. Allaha and olsun ki, o vaxta qədər heç iki minik heyvanım da yox idi, amma o döyüş zamanı bunlar mənim varım idi. Allah Elçisi ﴿صلى الله عليه وآله وسلم﴾ Təbuk döyüşünə şiddətli bir isti zamanı yola düşdü. Bu səfər çox uzun və təhlükəli, qarşılaşacaqları düşmənin isə sayı çox olduğundan, o, müsəlmanlar bunları nəzərə alıb hazırlıq görsünlər deyə, məqsədini açıqlayıb, gedəcəyi istiqaməti onlara xəbər verdi. Allah Elçisi ilə ﴿صلى الله عليه وآله وسلم﴾ o qədər müsəlman var idi ki, sayı hafiz bir kəsin kitabına yerləşməzdi. Kəab ﴿رضي الله عنه﴾ dedi: Uca Allahdan vəhy gəlməmiş heç kəsin bilməyəcəyini zənn edərək gizlənənlər çox az idilər. Allah Elçisi ﴿صلى الله عليه وآله وسلم﴾ bu döyüşə meyvələrin yetişdiyi, kölgələrin xoş olduğu, mənim də vurğunu olduğum bir zamanda çıxmışdı. Allahın Elçisi ﴿صلى الله عليه وآله وسلم﴾ və onunla birgə müsəlmanlar hazırlaşırdılar. Məndə onlarla hazırlaşmaq üçün səhərlər çıxırdım, amma heç nə etməyib qayıdırdım və öz-özümə deyirdim ki, istədiyim hər bir zaman bunu edə bilərəm. Başqaları səylə hazırlaşdıqları halda, mən belə etməkdə davam etdim. Nəhayət bir sabah Pryğəmbər ﴿صلى الله عليه وآله وسلم﴾ digər müsəlmanlarla birgə yola çıxdı, mən isə hələ də hazırlıqdan heç bir şey etməmişdim. Yenə evdən çıxıb, heç bir şey etməyib qayıtdım. Mən belə vəziyyətdə olduğum halda, (onlar) sürətlə aralanaraq uzaqlaşdılar. Mən yola çıxıb onlara çatmaq qərarına gəldim. Kaş ki, bunu edərdim! Amma bu mənə nəsib olmadı. Allahın Elçisi ﴿صلى الله عليه وآله وسلم﴾ Mədinədən çıxıb döyüşə getdikdən sonra insanlar arasına çıxdıqda məni ən çox kədərləndirən o idi ki, burada yalnız münafiqlikdə ittiham olunanlar və Allah döyüşə getməməyə rüxsət verdiyi zəiflər qalmışdı. Allahın Elçisi ﴿صلى الله عليه وآله وسلم﴾ Təbukə çatana qədər mənim haqqımda heç nə danışmadı. Artıq orada, Təbuk əhalisinin arasında oturduqda belə soruşdu: “Kəab ibn Malik nə edir?” Bəni Səlimə tayfasından biri dedi: “Ey Allahın Elçisi, ﴿صلى الله عليه وآله وسلم﴾ onu bahalı paltarı və təkəbbürlüyü gecikdirdi.” Muaz ibn Cəbəl ﴿رضي الله عنه﴾ ona dedi: “Nə pis dedin! Ey Allahın Elçisi ﴿صلى الله عليه وآله وسلم﴾ Allaha and olsun ki, biz onun haqqında xeyirdən (yaxşılıqdan) başqa heç nə

bilmirik.” Allahın Elçisi ﴿صَلَّى اللهُ عَلَيْهِ وَآلِهِ وَسَلَّمَ﴾ susdu və bu zaman ağ paltarlı bir adamı ilğım (xəyal) kimi görərək dedi: “Gərək ki, bu Əbu Xeysəm olsun!” O, həqiqətən bir saa (2,5 -3 kq arası) xurmanı sədəqə etdiyi üçün münafiqlərin rişxəmd etdikləri Əbu Xeysəm əl-Ənsari idi. Kəab dedi: “Biləndə ki, artıq Allahın Elçisi ﴿صَلَّى اللهُ عَلَيْهِ وَآلِهِ وَسَلَّمَ﴾ Təbukdan qayıdır, məni dərin hüzn bürüdü və öz-özümə: “Onun qəzəbindən necə qaçım?” deyə (yalandan) bəhanələr uydurmağa (fikirləşməyə) başladım, bunda kömək üçün müdrük ailə üzvlərimdən hər birinə müraciət etdim. (Adamlar) danışanda ki, artıq Allahın Elçisi ﴿صَلَّى اللهُ عَلَيْهِ وَآلِهِ وَسَلَّمَ﴾ lap yaxındadır, bütün yalanlar getdi və mən başa düşdüm ki, heç bir yalan məni onun qəzəbindən qurtarmaz, odur ki, düzünü demək qərarına gəldim. Səhər Allahın Elçisi ﴿صَلَّى اللهُ عَلَيْهِ وَآلِهِ وَسَلَّمَ﴾ qayıtdı. O, hər hansı bir səfərdən qayıdanda, hər şeydən əvvəl məscidə gələr, iki rükət namaz qılar, sonra oradakı adamlarla oturardı. Bunları etdikdən sonra Təbuk döyüşündən yayınan səksəndən artıq kişi gəlib Peyğəmbərə ﴿صَلَّى اللهُ عَلَيْهِ وَآلِهِ وَسَلَّمَ﴾ müxtəlif bəhanələr gətirməklə və and içməklə üzürhaqlıq etməyə başladılar. Allahın Elçisi ﴿صَلَّى اللهُ عَلَيْهِ وَآلِهِ وَسَلَّمَ﴾ Onların camahat arasında dediklərini qəbul etdi, onlardan bir daha vəd aldı, onlar üçün bağışlanma dilədi, qəlblərində gizlətdiklərini isə Allaha həvalə etdi. Mən Ona ﴿صَلَّى اللهُ عَلَيْهِ وَآلِهِ وَسَلَّمَ﴾ yaxınlaşdım və Onu ﴿صَلَّى اللهُ عَلَيْهِ وَآلِهِ وَسَلَّمَ﴾ salamladıqda qəzəbini gizlədən adamın təbəssümü kimi bir təbəssümlə: “Gəl!” dedi. Mən yaxınlaşdım və qarşısında oturdum. Peyğəmbər ﴿صَلَّى اللهُ عَلَيْهِ وَآلِهِ وَسَلَّمَ﴾ belə buyurdu: “Bu döyüşdən yayınmağının səbəbi nə idi? Məgər sən minik satın almamışdın? (Kəab) dedi: “Mən dedim: “Ey Allahın Elçisi! Allaha and olsun ki, əgər səndən başqa istənilən birinin qarşısında otursaydım, bir bəhanə ilə onun qəzəbindən qurtarardım, çünki mən fəsahətlə danışmağı bacaranam. Lakin Allaha and olsun ki, mən başa düşdüm ki, əğər mən bu gün yalan danışmaqla Səni razı salsam, sonra Allah elə edəcək ki, Sən tezliklə mənə qəzəblənəcəksən. Ancaq Sənə həqiqəti söyləsəm, Sənin mənə qəzəbin tutsa da, Allahın məni bağışlayacağına ümüd edəcəyəm. Allaha and olsun ki, heç bir üzürüm yoxdur. Allaha and olsun ki, arxada qaldığım zaman heç bir vaxt olmadığım kimi, güclü və varlı olmamışam! Peyğəmbər ﴿صَلَّى اللهُ عَلَيْهِ وَآلِهِ وَسَلَّمَ﴾ dedi: “O ki, qaldı buna, O doğru danışdı. Nə qədər ki, Allah sənin haqqında hökm verməyib, dur ayağa” Bundan sonra Bəni Sələmənin adamları üstümə yeriyərək mənə dedilər: “Allaha and olsun ki, sənin heç bir günahının olmadığını bilirik. Sən döyüşdən geri qalan digərlərinin etdikləri kimi Allahın Elçisinin ﴿صَلَّى اللهُ عَلَيْهِ وَآلِهِ وَسَلَّمَ﴾ qarşısında bəraət qazanmaqda aciz oldun. Halbuki Allahın Elçisinin ﴿صَلَّى اللهُ عَلَيْهِ وَآلِهِ وَسَلَّمَ﴾ səndən ötrü bağışlanma diləməsi kifayət edərdi.” (Kəab) dedi: “Onlar o qədər məni qınadılar ki, Allaha and olsun ki, Allahın Elçisinin ﴿صَلَّى اللهُ عَلَيْهِ وَآلِهِ وَسَلَّمَ﴾ yanına qayıdıb yalan dediyimi demək istədim. Sonra onlardan soruşdum: “Mənim başıma gələn başqasının da başına gəlibmi?” (Yəni, atdığı addıma bəraətin olmadığını vicdanla boynuna alan oldumu?) Onlar dedilər: “Bəli, daha iki nəfər oldu ki, sənin dediklərini və sənə deyilən də onlara deyildi.” (Kəab) dedi: “Kimdir bu iki nəfər? Deyə soruşdum. Onlar belə dedilər: “Murara ibn Rabiətə əl-Amriyyə və Hilal ibn Umeyyə əl-Vaqifiyyə.” (Kəab) dedi) “Mənə nümunə ola biləcək iki nəfəri, Bədr döyüşünün iştirakçısı olan əməli salehlərin adlarını çəkdilər.»”(Kəab) dedi: “Onlar O iki nəfərin (adını) çəkəndən sonra (heç nəyi dəyişməmək) qərarına (yəni, sözümdən imtina etməmək qərarına) gəldim. Və, Allahın Elçisi ﴿صَلَّى اللهُ عَلَيْهِ وَآلِهِ وَسَلَّمَ﴾ digər adamlara arxada qalan biz üç

nəfərlə danışmağı qadağan etdi.” (Kəab) dedi) “Adamlarda bizdən çəkindilər (və ya (Kəab) dedi: “Bizə qarşı dəyişdilər.” və hətta (yaşadığım) yer mənim üçün tanınmaz oldu, çünki o mənim (öncədən) bildiyim torpaq deyildi. Əlli gecəni bu cür keçirtdik. Mənə və o iki yoldaşıma gəlincə, onlar ağlayaraq boynu bükük halda evlərində oturmuşdular. Mən isə gənc və güclü olduğum üçün evdən çıxırdım, müsəlmanlarla birgə namaz qılırdım, bazarlara gedirdim və məni heç kim danışdırmırdı. Namazdan sonra Allahın Elçisi ﴿صلى الله عليه وآله وسلم﴾ adamlarla oturarkən yanına gəldim, onu salamlayaraq öz-özümə dedim: “Görəsən mənim salamımı qaytarmaq üçün dodaqlarını tərpəddimi?” Sonra Ona yaxın bir yerdə namaz qılaraq oğrun-oğrun (xəlvəti) baxırdım. Mən namaz qılanda o mənə baxırdı, Mən Ona tərəf dönəndə O məndən üzünü çevirirdi. Müsəlmanlar tərəfindən soyuqluqla qarşılaşdığım bu uzun müddətdə (bir dəfə) əmim oğlu və insanların ən sevimlisi Əbu Qatədənin ﴿رضي الله عنه﴾ bağının hasarına (çəpər, barı) çıxaraq ona salam verdim və Allaha and olsun ki, salamımı almadı. Ona dedim: “Ey Əbu Qətədə, səni Allaha and verirəm, bilmirsən mən Allahı və Elçisini sevirəm?” O susdu. Mən bir daha Allaha and verib soruşduqda, o yenədə susdu. Mən bir daha Allaha and verib soruşdum, o dedi: “Allah və Elçisi daha gözəl bilir” onda gözlərim yaşardı (doldu) və mən hasardan tullanaraq qayıtdım. (Bir müddət sonra) Mədinə bazarından keçərkən, Şamdan olan, satmağa ərzaq gətirən bir nəfərin belə dediyini eşitdim: “Kim məni Kəab ibn Malikin yanına aparar?” Adamlar məni göstərdilər. Yanıma gəlib Qassanilər hökümdarının (Məlikinin, Sultanının) məktubunu verdi. Mən yazıb-oxuyan (katib, mirzə) olduğum üçün (məktubu) oxudum belə yazılmışdı: “Daha sonra. Həqiqətən bizə çatdı ki, dostun səni tərk edib. Allah sənə məhəl qoymamağa haqqının taptalanmasına imkan verməz! Qoşul bizə, bizdə təskinlik taparsan! Məktubu oxuyaraq özlüyümdə buda həmçinin sınaqdır deyib təndirə atıb yandırdım. Vəhy hələdə gəlmirdi. Əlli günün qırxıncı günü Peyğəmbərin ﴿صلى الله عليه وآله وسلم﴾ elçisi gələrək dedi: “Allahın Elçisi arvadına yaxınlaşmağı sənə qadağan etdi!” Mən dedim: “Onu boşayım yoxsa nə edim?” dedi: “Xeyr, ondan uzaqlaş və ona yaxınlaşma!” Eyni əmri diğər iki yoldaşıma da etmişdi. Məndə arvadıma dedim: “ Get valideyinlərinin yanına, Allah bu məsələdə hökm verənə qədər orada qal.” Hilal ibn Umeyyənin arvadı Allahın Elçisinin ﴿صلى الله عليه وآله وسلم﴾ yanına gələrək ona belə dedi: “Ey Allahın Elçısı həqiqətən Hilal ibn Umeyyə xadiməsi olmayan, qüvvədən düşmüş qocadır. Ona xidmət göstərməyimə narazısanmı? O ﴿صلى الله عليه وآله وسلم﴾ buyurdu: “Xeyr, lakin sənə yaxınlaşmasın!” Qadın dedi: “Allaha and olsun ki, onun heç hərəkət etməyə taqəti qalmayəb. Allaha and olsun ki, bu hadisə baş verəndən bəri, o, dayanmadan ağlayır!” Bundan sonra ailə üzvülərimdən bəziləri mənə dedilər: “Arvadına (sənə xidmət etməsi üçün) icazə verməsindən ötrü Allahın Elçisinə ﴿صلى الله عليه وآله وسلم﴾ müraciət et! Axı Hilal ibn Umeyyənin arvadına buna icazə verib!” Mən dedim: “Bundan ötrü Allahın Elçisinə ﴿صلى الله عليه وآله وسلم﴾ heç nə deməmərəm, axı bilmirəm ki, Allahın Elçisi ﴿صلى الله عليه وآله وسلم﴾ buna nə deyər, həmdə ki, mən cavanam!” Mən belə vəziyyətdə daha on gün qalmaqla adamların bizimlə danışması qadağan olunmasından əli gün başa çatdı.” Əllinci gecənin sabahı evlərimizdən birinin damında sübh namazını qılıb, Uca Allahın bizdən danışarkən qeyd etdiyi kimi elə bir halda oturmuşdum ki, urəyim təngə gəlib sıxılır, gen dünya mənə dar gəlirdi. Elə bu zaman sel dağına çıxmış bir insanı uca səslə qışqırdığını eşitdim: “Ey Kəab

ibn Malik! Sevin!" dərhal səcdəyə getdim və qurtuluşun gəldiyini anladım. Allahın Elçısı sübh namazını qıldığı zaman tövbələrmizin Allah-Təala tərəfindən qəbul olunduğunu insanlara bildirdi. Camaat da bizi müjdələməyə gəldi. Yoldaşlarımın yanınada müjdəçilər getdi. Yanıma biri atını çaparaq gəldi. Əsləm qəbiləsindən bir nəfərdə sürətlə mənə doğru gəlib dağa qalxdı. Səs atdan daha sürətli idi. Səsini eşitdiyim adam yanıma gəlib məni müjdələdiyi zaman üzərimdəki iki paltarımı çıxarıb muştuluq

Olaraq ona geyindirdim. Allaha and olsun ki, həmin gün o iki paltardan başqa paltarım yox idi. Buna görədə iki paltar borc götürüb geydim və Allah Elçisinin yanına getdim. Camaat dəstə dəstə mənim qarşıma çıxıb tövbənin qəbul olması münasibəti ilə məni təbrik edir, "Allahın sənin tövbəni qəbul etməsi mübarəkdir"-deyirdilər. Məscidə girdikdə Allahın Elçisinin insanlar tərəfindən dövrəyə alınmış bir vəziyyətdə oturduğunu gördüm. Təlha ibn Ubeydullah ﴿رضي الله عنه﴾ ayağa qalxdı və qaçaraq yanıma gəldi. Məni qucaqlayaraq salamladı və təbrik etdi. Allaha and olsun ki, Mühacirlərdən ondan başqa heç kəs ayaqa qalxmadı. "Kəab, Təlhanın bu hərəkətini heç vaxt unutmadı." Kəab deyir: "Allahın Elçisinə salam verdikdə üzü sevincdən parlayırdı. Ananın səni doğduğu gündən bəri keçən ən xeyirli günlə, sevinci ilə müjdələn!" dedi. Mən: "Ey Allahın Elçisi! Sən tərəfdənmi, yoxsa Allah tərəfdən?" deyə soruşdum. O: "Xeyr, Allah tərəfindən!" deyə cavab verdi. Allahın Elçisi sevindiyi zaman üzündən nur yağardı və onun üzü ayın bir hissəsi kimi olardı. Biz onun bu xüsüsiyyətinə bələd idik. Onun qarşısında əyləşdikdə dedim: "Ey Allahın Elçisi! Tövbəmin qəbul olunmasına qarşılıq malımdan Allah və Elçisi üçün sədəqə verəcəyəm." Allahın Elçisi: "Malının bir hissəsini saxla. Çünki bu sənin üçün xeyirlidir!" deyə buyurdu. Mən: "Xeybərdəki oxumu saxlayıram!" dedim. Sonra belə dedim: "Ey Allahın Elçisi Allah-Təala məni doğruluğa görə xilas etdi. Yaşadığım müddətdə yalnız doğru söyləmək tövbəmin (pozulmaz) olmasıdır." Allaha and olsun ki, bu sözləri Allahın Elçisinə söylədiyim gündən bəri Allahın doğru danışmaqda məni imtahana çəkdiyindən daha yaxşı bir şəkildə müsəlmanlardan kimsəni imtahana çəkdiyini bilmirəm. Allaha and olsun ki, bu sözləri Allahın Elçisinə söylədiyim gündən bu günə kimi qəsdən yalan söyləmədim. Allahdan bundan sonra yaşadığım müddət ərzində məni qorumasını istəyirəm. Sonra Allah Təala bu ayəni nazil etdi:

لَقَدْ تَابَ اللَّهُ عَلَى النَّبِيِّ وَالْمُهَاجِرِينَ وَالْأَنْصَارِ الَّذِينَ اتَّبَعُوهُ فِي سَاعَةِ الْعُسْرَةِ مِنْ بَعْدِ مَا كَادَ يَزِيغُ قُلُوبُ فَرِيقٍ
مِنْهُمْ ثُمَّ تَابَ عَلَيْهِمْ إِنَّهُ بِهِمْ رَءُوفٌ رَحِيمٌ ﴿١١٧﴾ وَعَلَى الثَّلَاثَةِ الَّذِينَ خُلِّفُوا حَتَّى إِذَا ضَاقَتْ عَلَيْهِمُ الْأَرْضُ بِمَا رَحُبَتْ
وَضَاقَتْ عَلَيْهِمْ أَنْفُسُهُمْ وَظَنُّوا أَنْ لَا مَلْجَأَ مِنَ اللَّهِ إِلَّا إِلَيْهِ ثُمَّ تَابَ عَلَيْهِمْ لِيَتُوبُوا إِنَّ اللَّهَ هُوَ التَّوَّابُ الرَّحِيمُ ﴿١١٨﴾ يَا أَيُّهَا الَّذِينَ آمَنُوا
اتَّقُوا اللَّهَ وَكُونُوا مَعَ الصَّادِقِينَ ﴿١١٩﴾

*"Allah çətin saatda bir qisminin ürəyi (şək-şübhəyə düşüb Peyğəmbərdən və cihaddan) dönmək üzrə ikən Peyğəmbərə ﴿صلى الله عليه وآله وسلم﴾ onun ardınca gedən mühacirlərə və ənsarlara tövbə nəsib etdi. Allah Təala onlara qarşı şəfqətli və mərhəmətli olduğu üçün tövbələrini qəbul buyurdu! Həmçinin (Təbuk döyüşündən) geri qalmış üç nəfərin də (tövbələrini qəbul etdi). Belə ki, gen dünya onlara dar olmuş ürəkləri (qəm qüssədən) təngə gəlib sıxılmışdı. Onlar Allahdan (Allahın əzabından) yalnız onun özünə sığınmağın mümkün olduğunu başa düşdülər. Allah onlara tövbə etmək üçün tövbə nəsib etdi. Şübhəsiz ki, Allah tövbələri qəbul edəndir rəhimlidir! Ey iman gətirənlər! Allahdan qorxun və (imanında,*

***sözündə, işində) doğru olanlarla olun! (Peyğəmbər ﴿صَلَّى اللهُ عَلَيْهِ وَآلِهِ وَسَلَّمَ﴾ və onun sadiq əshabələri ilə birlikdə olun!)" (ət-Tövbə 117/119)***

Kəab deyir: "Allaha and olsun ki, Allahın məni İslama qovuşdurduqdan sonra mənə bəxş etdiyi ən böyük neyməti Allah Elçisinə ﴿صَلَّى اللهُ عَلَيْهِ وَآلِهِ وَسَلَّمَ﴾ düz danışaraq yalan danışıb həlak olanlar arasında olmamağım idi. Allah Təalə vəhy nazil etdiyi zaman yalan söyləyənlər haqqında bir nəfərə söylədiyinin ən pisini söyləyərək belə buyurur:

سَيَحْلِفُونَ بِاللَّهِ لَكُمْ إِذَا انقَلَبْتُمْ إِلَيْهِمْ لِتُعْرِضُوا عَنْهُمْ فَأَعْرِضُوا عَنْهُمْ إِنَّهُمْ رِجْسٌ وَمَأْوَاهُمْ جَهَنَّمُ جَزَاءً بِمَا كَانُوا يَكْسِبُونَ ﴿٩٥﴾ يَحْلِفُونَ لَكُمْ لِتَرْضَوْا عَنْهُمْ فَإِن تَرْضَوْا عَنْهُمْ فَإِنَّ اللَّهَ لَا يَرْضَىٰ عَنِ الْقَوْمِ الْفَاسِقِينَ ﴿٩٦﴾

***"Siz onların yanına gəldikdə onlar (yalandan) Allaha and içəcəklər ki, onlardan üz döndərəsiniz (onları məzəmmət etməkdən, cəzalandırmaqdan əl çəkəsiniz). Sizdə onlardan üz döndərin! (Qoyun qiyamət günü əzabı daha şiddətli olacaq küfr və nifaqlarında davam etsinlər!) Çünki onlar murdardırlar və qazandıqları günaha görə düşəcəkləri yer də Cəhənnəmdir! Onlardan razı olasınız deyə, qarşınızda (Allaha) and içəcəklər. Siz onlardan razı olsanız da, Allah fasiq bir tayfadan razı olmaz." (ət-Tövbə /94/95)***

Kəab deyir: "Biz and içdikləri zaman andlarını Allah Elçisinin qəbul etdiyi onlardan beyət aldığı və onlar üçün bağışlanma dilədiyi həmin o üç nəfərdən arxada buraxıldıq. Allahın Elçisi ﴿صَلَّى اللهُ عَلَيْهِ وَآلِهِ وَسَلَّمَ﴾ bizim işimizi Allah-Təalə bu barədə öz hökmünü verənədək təxirə saldı. Nəhayət Allah öz sözünü (hökmünü) dedi: "Həmçinin (Təbuk döyüşündən) geri qalmış üç nəfərində (tövbələrini qəbul etdi). Belə ki, dünya onlara dar olmuşdu" Lakin Allah Təala burada bizim döyüşdən geri qalmağımızı deyil Peyğəmbərə ﴿صَلَّى اللهُ عَلَيْهِ وَآلِهِ وَسَلَّمَ﴾ and içib üzür gətirdiyi zaman andı və üzürü Peyğəmbər ﴿صَلَّى اللهُ عَلَيْهِ وَآلِهِ وَسَلَّمَ﴾ tərəfindən qəbul olunan kəslərdən arxada buraxılmağımızı və işimizin təxirə salınmasını nəzərdə tuturdu." *«Muslim»*

## ¤Qadınlara iffət nümünəsi¤

Aişə demişdir: "Peyğəmbər ﴿صَلَّى اللهُ عَلَيْهِ وَآلِهِ وَسَلَّمَ﴾ səfərə çıxmaq istədikdə zövcələri arasında püşk atardı. Püşk kimə düşsəydi, onuda özü ilə səfərə aparardı. Döyüşlərin birində O yenə bizim aramızda püşk atdı və bu dəfə püşk mənə düşdü. Mən onunla birgə səfərə çıxdım. Həmin vaxt artıq hicab ayəsi nazil olmuşdu. Bu səbəbdəndə məni kəcavənin içərisində apardılar. Yol boyu lazım gəldikcə məni kəcavə ilə birgə yerə endirdilər. Səfərimiz beləcə davam etdi. Nəhayət, Peyğəmbər ﴿صَلَّى اللهُ عَلَيْهِ وَآلِهِ وَسَلَّمَ﴾ döyüşü başa vurub geri qayıtdı. Biz dincəlmək üçün Mədinəyə yaxın bir yerdə dayandıq. Peyğəmbər ﴿صَلَّى اللهُ عَلَيْهِ وَآلِهِ وَسَلَّمَ﴾ orada gecələməyib səfərə çıxmağı əmr etdi. Camaat yola düşməyə hazırlaşarkən mən təbii ehtiyacimi ödəmək üçün tək başına su başına çıxdım və qoşundan uzaqlaşdım. Ehtiyacımı ödəyib qoşunun yanına qayıtdıqda, yolda əlimi sinəmə toxundurub gördüm ki, yəmən əqiqindən olan boyunbağım qırılıb düşüb. Mən geri qayıdıb onu axtarmağa başladım və bu səbəbdəndə yolumdan qaldım. Bu əsnada, məni müşayiət edən əshabələr mənim kəcavənin içərisində olduğumu güman etdilər və onu götürüb mindiyim dəvənin üstünə qoydular. O zamanlar qadınlar az yedikləri üçün yüngül çəkili və incəbelli olurdular. Elə bu səbəbdəndə məni müşayiət edənlər kəcavəni qaldırarkən onun çəkisindəki fərqi hiss etməmişdilər. Mən də o vaxt çox cavan idim. Beləcə, onlar dəvəni

sürüb apardılar. Qoşun çıxıb getdikdən sonra mən boyunbağımı tapıb düşərgəyə qayıtdım, lakin artıq orada heç kəs qalmamışdı. Mən onların məni yerimdə tapmadıqları üçün mütləq dönəcələrini güman edib gedib kəcavənin dayandığı yerə gəldim. Az sonra oturduğum yerdə yuxuladım. Həmin vaxt Səfvan ibn Muattil əs-Suləmi əz-Zəkvani qoşundan qalan əşyaları toplayıb sahiblərinə qaytarmaq üçün qoşunun ardınca gəlirdi. O, səhərə yaxın gəlib mən olan yerə çatdı və yatmış bir insan qaraltısı görüb mənə yaxınlaşdı. O, hicab ayəsi nazil olmamışdan əvvəl məni görmüşdü deyə məni tanıdı. Mən onun: “İnnə lilləhi və innə ileyhi raciun” deməsinə oyandım və dərhal çarşabla üzümü örtdüm. O, dəvəsini yerə çökdürüb ayağını dəvənin qabaq ayağının üstünə qoydu və mən dəvəyə mindikdən sonra onun noxtasından tutaraq sürüb apardı. Nəhayət, biz, şiddətli isti olduğundan çayın qırağında oturub dincini alan orduya yetişdik. Həmin vaxt bir çoxları mənə iftira atmaqla bədbəxt oldu. Böhtan atanların başçısı Abdullah ibn Ubey ibn Səlul idi. Mədinəyə çatdıqdan sonra mən bir ay xəstə oldum. Bu əsnada camaat böhtan atanların söz-söhbətlərini orada-burada danışırdılar. Həmişə xəstələndiyim zaman Peyğəmbərin ﴿صلى الله عليه وآله وسلم﴾ mənə göstərdiyi qayğını indi ondan görməməyim məni şübhələndirirdi. O, sadəcə olaraq yanıma gəlib salam verir və: “Vəziyyətin necədir?” deyib çıxıb gedirdi. Mən sağalanadək bu şərdən xəbərim olmadı. Sağaldıqdan sonra mən Ummu Mistahla birgə əl-Mənası deyilən bir yerə getdim. Bura bizim gecədən-gecəyə təbii ehtiyacımızı rəf etmək üçün gəldiyimiz yer idi. O vaxtlar hələ evlərin yaxınlığında ayaqyolular tikilməmişdi və bütün bunlar əvvəlki ərəblərin adətinə görə idi. Mən Ummu Mistah bint Əbu Ruhm ilə yol gedərkən onun ayağı əbasına ilişdi və dedi: “Məhv olsun Mistah” Mən ona dedim: “Sənin dediyin necə də pisdir! Sən Bədr döyüşündə iştirak etmiş bir adamı söyürsən?!” Ummu Mistah: “Ay qız, məgər sən onların nə dediklərini eşitməmisənmi?” deyə soruşdu, sonrada iftiraçıların dediklərini mənə xəbər verdi. Xəstəliyim dahada şiddətləndi. Evə gəldikdən sonra Peyğəmbər ﴿صلى الله عليه وآله وسلم﴾ yenə mənim yanıma gəldi. O əvvəlki kimi salam verdikdən sonra: “Vəziyyətin necədir?” deyə soruşdu. Mən ona dedim: “İzin ver, valideyinlərimin yanına gedim!” Mənim niyyətim o idi ki, bu xəbərin doğru olub-olmadığını valideyinlərimdən öyrənib dəqiqləşdirim. Peyğəmbər ﴿صلى الله عليه وآله وسلم﴾ mənə izn verdi. Onda mən valideyinlərimin yanına gəldim və anamdan: “Camaat nə danışır?” deyə soruşdum. Anam dedi: “Qızım, özünü üzmə. Vallahi, çox nadir hallarda rast gəlmək olar ki, gözəl qadını əri sevsin və əri başqa zövcələri onun əleyhinə danışmasınlar.” Mən dedim: “Sübhanallah! Deməк camaat bunu danışırmış.” Mə bütün gecəni ağladım, səhərə qədər göz yaşım dayanmadı və bir anlıq belə yuxulaya bilmədim. Vəhyin nazil olması gecikirdi deyə Peyğəmbər ﴿صلى الله عليه وآله وسلم﴾ Əli ibn Əbu Talibi və Usamə ibn Zeydi zövcəsini tərk edib-etməməsi barədə məsləhət almaq üçün yanına dəvət etdi. Usaməyə gəlincə, Peyğəmbərə ﴿صلى الله عليه وآله وسلم﴾ mənim namuslu olduğumu və bizi ürəkdən sevdiyini bildirərək dedi: “Ey Allahın Elçisi, sənin əhli-əyalın barəsində zərrə qədərdə pis bir şey eşitməmişəm!” Əli ibn Əbu Talibin cavabı isə belə oldu: “Ey Allahın Elçisi, Allah sənə bu xüsusda heç bir hədd qoymamışdır, ondan başqa nə çox qadın var. Sən aişənin xidmətçisindən soruş, o sənə düzünü deyər.” Peyğəmbər ﴿صلى الله عليه وآله وسلم﴾ Aişənin xidmətçisi Bərirəni çağırıb soruşdu: “Ey Bərirə, onda səni şübhələndirəcək bir şey görmüsənmi?” Bərirə dedi: “Xeyur! Səni haq ilə göndərən Allaha

and olsun ki, ondan bir qəbahət iş görsəydim, onu qınayardım. Yalnız onu deyə bilərəm ki, xəmiri qorumağı ona tapşırdıqda o yatar və qoyun gəlib xəmiri yeyərdi.”

Abdullah ibn Ubey ibn Səlul dediyinə görə üzürxahlıq istəsin deyə, həmin gün Peyğəmbər ﴿صَلَّى اللهُ عَلَيْهِ وَآلِهِ وَسَلَّمَ﴾ minbərə qalxıb dedi: “Ey müsəlmanlar! Kim mənim zövcəmə əziyyət verən adamı ittihamlarını rədd edib zövcəmə bəraət qazandıra bilər? Vallahi, mən zövcəmdən xeyirdən başqa bir şey görməmişəm. Eləcədə ittiham olunan kişini Səfvan ibn Muəttilin pis bir hərəkət etdiyi də mənə məlum deyil o heç vaxt mənsiz bizim evə daxil olmayıb.” Bu vaxt Səd ibn Muaz əyağa qalxıb dedi: “Ey Allahın Elçisi, Vallahi ki, mən sənə haqq qazandırmaq istəyirəm. Əgər ittiham edən şəxs Ovs qəbiləsindəndirsə, biz onun boynunu vurarıq, yox əgər qardaşlaımız olan Xəzrəc qəbiləsindəndirsə əmr et, sənin əmrini yerinə yetirək.” Bu vaxt Xəzrəc qəbiləsinin başçısı Səd ibn Ubadə dedi: “Vallahi, sən yalan danışdın! Sən onu nə öldürənsən, nədə öldürməyə qadirsən!” O, əməlisaleh bir adam idi, lakin buna rəğmən tayfabazlıq etdi. Bu sözdən sonra Səd ibn Muazın əmisi oğlu Useyd ibn Hudeyr qalxıb Səd ibn Ubadəyə dedi: “Vallahi, sən yalan danışdın! Biz onu mütləq öldürərik. Həqiqətən də, sən münafiqsən və münafiqləri müdafiə edirsən.” Beləliklə Xəzrəc və Ovs qəbilələri arasında elə bir çaxnaşma düşdü ki, az qala bir-birilərini öldürəcəkdilər. Bu vaxt Peyğəmbər ﴿صَلَّى اللهُ عَلَيْهِ وَآلِهِ وَسَلَّمَ﴾ minbərdə idi. O, dərhal minbərdən enib onları sakitləşdirdi və özü də susdu. Mən daha bir gün dayanmadan ağladım və bütün gecəni oyaq qaldım. Səhərsi gün valideyinlərim mənim bir gün yarım dayanmadan ağladığımın şahidi olduqda elə zən etdilər ki, ciyərim parça-parça olacaq. Onlar mənim yanımda ikən, ənsar qadınlarından biri mənim yanıma gəlmək üçün izn istədi və gəlib mənimlə bərabər ağladı. Elə bu vaxt Peyğəmbər ﴿صَلَّى اللهُ عَلَيْهِ وَآلِهِ وَسَلَّمَ﴾ içəri daxil oldu və salam verib oturdu. Bu söz-söhbət başlanandan bəri o mənim yanımda oturmamışdı. Bir ay keçməsinə baxmayaraq, mənim barəmdə heç bir ayə nazil olmamışdı. O, şəhadət gətirdikdən sonra dedi: “Ey Aişə sənin barəndə mənə filan-filan xəbərlər çatıb. Əgər günahkar deyilsənsə, Allah səni təmizə çıxardacaq. Yox, əgər günah iş görmüsənsə, Allahdan bağışlanma dilə, tövbə et! Həqiqətən, əgər bəndə öz günhını etiraf edib tövbə edərsə Allah onun tövbəsini qəbul edər.” Peyğəmbər ﴿صَلَّى اللهُ عَلَيْهِ وَآلِهِ وَسَلَّمَ﴾ sözünü qurtardıqdan sonra mənim gözyaşım kəsildi və gözümdən bir damla yaş belə çıxmadı. Mən atama: “Allahın Elçisinə ﴿صَلَّى اللهُ عَلَيْهِ وَآلِهِ وَسَلَّمَ﴾ cavab ver!” dedim. O dedi: “Vallahi, mən bilmirəm, Allahın Elçisinə ﴿صَلَّى اللهُ عَلَيْهِ وَآلِهِ وَسَلَّمَ﴾ nə deyim.” Sonra mən anama: “Allahın Elçisinə ﴿صَلَّى اللهُ عَلَيْهِ وَآلِهِ وَسَلَّمَ﴾ cavab ver!” dedim. O dedi: “Vallahi, mən bilmirəm, Allahın Elçisinə ﴿صَلَّى اللهُ عَلَيْهِ وَآلِهِ وَسَلَّمَ﴾ nə deyim.” Mən az yaşlı qız uşağı olduğum üçün, qurandan çox dəlil-sübut bilmədiyimə görə dedim: “Vallahi, hər şey mənə bəlli oldu. Siz insanların danışdıqları bütün bu söhbətləri eşitdiniz, bu sizin qəlbinizdə özünə yer tapdı və siz onu təsdiq etdiniz. Əgər mən sizə günühsız olduğumu desəm, -Allahda bilir ki, həqiqətən, mən günahsızam,- siz mənə inanmayacaqsınız. Yox əğər günahkar olduğumu etiraf etsəm, -Allahda bilir ki, mən o günahdan uzağam,- siz buna inanacaqsınlz. Vallahi, mən həm özümə həmdə sizə ancaq Yusufun atası Yaqubun dediyini misal çəkə bilərəm. Bir zaman o belə demişdir: ***“Mənə gözəl səbr gərəkdir. Söylədiklərinizin müqabilində Allahdan kömək diləmək lazımdır.”***

Bunları deyəndən sonra mən gedib yerimə uzandım. Mən inanırdım ki, Allah mənim günahsız olduğumu üzə çıxardacaq. Lakin, Vallahi, mən heç vaxt inanmazdım ki, Allah mənim günahsız olduğum barədə vəhy nazil edəcək. Quranda mənim bu işim haqqında danışılacağını mən özümə rəva bilmirdim. Mən ümüd edirdim ki, Allahın Elçisi ﴿صلى الله عليه وآله وسلم﴾ mənə bəraət qazandıracaq bir yuxu görəcək. Vallahi, Allahın Elçisi ﴿صلى الله عليه وآله وسلم﴾ heç yerindən qalxmamış və ev əhlindən də hələ bir kəs çölə çıxmamış Ona vəhy nazil oldu. O, hər dəfə vəhy nazil olduğu zaman düşdüyü görkəmi aldı. Endirilən kəlamın ağırlığından O çox şiddətli sıxıntı keçirdi və qış günündə belə ondan mirvari dənəsi kimi damla-damla tər tökməyə başladı. Vəhy nazil olduqdan sonra O güldü. Mənə dediyi ilk söz isə bu oldu: "Ey Aişə, Allaha həmd et Allah səni təmizə çıxartdı." Anam mənə dedi: "Qızım, qalx Allahın Elçisinə ﴿صلى الله عليه وآله وسلم﴾ təşəkkür et!" Mən dedim: "Vallahi, mən ona nə təşəkkür edəcəyəm, nə də Allahdan başqa bir kimsəyə həmd edəcəyəm!" Uca Allah bu ayələri nazil etdi:

***"Şübhəsiz ki, Aişə barəsində yalan xəbər gətirənlər özünüzdən olan bir dəstədir. Onu özünüz üçün pis bir şey hesab etməyin. Əksinə, bu sizin üçün xeyirlidir. O dəstədən olan hər bir şəxsin qazandığı günahın cəzası vardır. İçərilərindən günahın böyüyünü öz üstünə götürəni isə böyük bir əzab gözləyir. Nə üçün siz bunu eşitdiyiniz zaman mömün kişilər və qadınlar bir-biriləri haqqında yaxşı fikirdə olub: "Bu, açıq-aydın bir böhtandır!" demədilər? Nəyə görə onlar buna dair dörd şahid gətirmədilər? Madam ki, şahid gətirmədilər, deməli, onlar Allah yanında əsl yalançıdırlar. Əgər Allahın dünyada və axirətdə sizə lütfü və mərhəməti olmasaydı, dedi-qodularınıza görə sizə böyük bir əzab toxunardı. O zaman siz bunu dilinizə gətirir, bilmədiyiniz sözü danışır və onu əhəmiyyətsiz bir şey hesab edirdiniz. Halbuki bu, Allah yanında çox böyük günahdır. Nə üçün siz onu eşitdiyiniz zaman: "Bizə bunun haqqında danışmaq yaraşmaz. Ey Allah! Sən pak və müqəddəssən! Bu, çox böyük bir böhtandır!" demədiniz? Əgər mömünsinizsə, bilin ki, Allah sızə bir daha buna bənzər şeyləri təkrarən etməməyinizi nəsihət edir. Allah Öz ayələrini sizə belə izah edir. Allah Biləndir, Müdrükdür. Möminlər barəsində iyrənc şayiələrin yayılmasını istəyənlər üçün dünyada və axirətdə acılı-ağrılı bir əzab vardır. Allah bilir, siz isə bilmirsiniz. Əgər Allahın sizə lütfü və mərhəməti olmasaydı, Allah Şəfqətli və Rəhimli olmasaydı, yaydığınız şayiələrə görə sizi məhv edərdi. Ey iman gətirənlər! Şeytanın izi ilə getməyin. Kim şeytanın izi ilə getsə, bilsinki, o şeytan iyrənc və yaramaz işlər görməyi əmr edir. Əgər Allahın sizə lütfü və mərhəməti olmasaydı, sizdən heç kəs heç vaxt təmizə çıxmazdı. Lakin Allah istədiyini təmizə çıxardır. Allah Eşidəndir, Biləndir." (ən-Nur 11-21)***

Allah mənə bəraət qazandıran bu ayələri nazil etdikdən sonra, qohumluq əlaqələri xatirinə və kasıb olduğuna görə, öz malından Mistah ibn Usasəyə xərcləyən Əbu Bəkr əs-Siddiq dedi: "Vallahi, Mistah Aişə barəsində belə dedikdən sonra mən ona malımdan heç bir şey verməyəcəyəm". Uca Allahda bu ayəni nazil etdi:

***"Qoy aranızda olan fəzilət və sərvət sahibləri qohumlara, miskinlərə və Allah yolunda hicrət edənlərə heç bir şey verməyəcəklərinə and içməsinlər. Qoy əfv edib bağışlasınlar. Məgər siz Allahın sizi bağışlamasını istəmirsinizmi? Allah Bağışlayandır, Rəhimlidir." (ən-Nur 22)***

Əbu Bəkr dedi: “Xeyr, Vallahi, mən istəyirəm ki, Allah məni bağışlasın!” O, yenədə malından xərcləməyinə davam etdi və dedi: “Vallahi, mən heç vaxt malımı Mistahdan əsirgəməyəcəyəm!” Allahın Elçisi ﴿صَلَّ اللهُ عَلَيهِ وَآلِهِ وَسَلَّم﴾ Zeynəb bint Cəhşdən mənim barəmdə soruşub dedi: “Ey Zeynəb, sən nə deyə bilərsən, nə görmüsən?” O dedi: “Ey Alahın Elçisi, mən gözümü, qulağımı görmədiyim və eşitmədiyim şeylərdən qoruyuram! Mən onun barəsində xeyirdən başqa bir şey bilmirəm.”
Bu həmin Zeynəbdir ki, Peyğəmbərin ﴿صَلَّ اللهُ عَلَيهِ وَآلِهِ وَسَلَّم﴾ zövcələri arasında gözəlliyi və Peyğəmbərin ﴿صَلَّ اللهُ عَلَيهِ وَآلِهِ وَسَلَّم﴾ yanında olan mövqeyi ilə mənimlə rəqabət aparırdı. Lakin bunun pis aqibətindən qorxduğuna və gözəl dindar olduğuna görə Allah onu qorudu”. *«əl-Buxari»*

### ¤Səfər üçün azüqə topla¤

Bir gün Ömər ibn Abdul-Əziz رحمه الله xütbə verərək belə dedi: “Şübhəsiz ki, hər bir səfərin özünə aid azüqəsi var. Dünyadan axirətə ediləcək səfərin azüqəsi isə təqvadan başqa bir şey deyil. Dünyada olduğunuz müddətcə, Allahın, edilən yaxşı əməllərə görə verəcəyi mükafatı, görülən asiliklərə görə də verəcəyi cəzanı görürmüş kimi yaşayın. Təəccüb edirəm! Gecələdikdən sonra sabaha, sabahladıqdan sonra da gecələyəcəyini bilməyən şəxsə ki, o uzun arzu və istəklərlə yaşayır. Mən və sizlər dünyanın aldatdığı neçə-neçə insanlar gördük, onlar xeyirin və sevincin dünya malında olduğunu düşündülər. Amma gözlərin sevinməsi yalnız Allahın əzabından qurtarana vardır. Yalnız sevinəcək o kəs ki, O axirətin şiddətindən əmindir. Özüm çəkindiyim şeyləri sizə əmr etməkdən Allaha sığınıram! Əgər mən belə etsəm, kasıblığın zənginlikdən ayrıldığı, mizanın qoyulduğu gün xüsrana uğrayar, çılpaq qalar, miskinliyim zahir olar. Allah bizə elə bir əmanət vermişdir ki, əyər bu əmanət ulduzlara yüklənsəydi onlar yerindən tökülər, dağlara verilsəydi onun ağırlığından dalğlar əriyər, yerlər parçalanardı. Bilin ki, Cənnət və Cəhənnəmdən başqa gediləcək bir mənzil yoxdur. *“Ömər ibn Abdul-Əzizin həyatı, İbn Covzi səh/167”*

### ¤Yəmamə əhlinin başçısının islamı qəbul etməsi¤

Əbu Hüreyrə ﴿رضي الله عنه﴾ belə deyir: “Allahın Elçisi ﴿صَلَّ اللهُ عَلَيهِ وَآلِهِ وَسَلَّم﴾ Nəcd tərəfinə bir süvari dəstəsi göndərmişdi. Bu dəstə Bəni Hənifə qəbiləsindən Sümamə ibn Usal deyilən və Yəmamə xalqının böyügü olan bir kimsəni əsir edib gətirdilər və onu məscidin dirəklərindən birinə bağladılar. Allahın Elçisi ﴿صَلَّ اللهُ عَلَيهِ وَآلِهِ وَسَلَّم﴾ məscidə çıxdıqda Sumaməyə: “Ey Sumamə! Yanında nə var? (könlündən nə keçirirsən və sənə nə edəcəyimi zənn edirsən) dedi. Sumamə: “Könlümdə xeyr (ümüd) var ey Muhamməd! ﴿صَلَّ اللهُ عَلَيهِ وَآلِهِ وَسَلَّم﴾ Əgər sən məni öldürsən qanlı bir canini öldürmüş olarsan və əgər mənə lütf etsən, (əffv etsən) nemətə qarşı şükr edən bir kəsə lütf etmiş olarsan.” Əgər (qurtuluş fidyəm üçün) mal istəyirsənsə istə, ondan hər istədiyin sənə verilər dedi. Bu danışmadan sonra Allahın Elçisi ﴿صَلَّ اللهُ عَلَيهِ وَآلِهِ وَسَلَّم﴾ Sumaməni bağlı olaraq buraxıb getdi. Nəhayət sabahsı gün olunca yenə Allahın Elçisi ﴿صَلَّ اللهُ عَلَيهِ وَآلِهِ وَسَلَّم﴾ Sumaməyə: “Ey Sumamə! Könlündə nə var nə ümüd edirsən? dedi. O da: “Mənim könlümdə dünən sənə dediyim şeylər vardır. Əgər mənə lütf etsən nemətə qarşı şükr edən bir kəsə lütf etmiş olarsan. Əgər sən məni öldürsən qanlı bir canini öldürmüş olarsan. Əgər (qurtuluş fidyəm üçün) mal istəyirsənsə istə, ondan hər istədiyin sənə verilər dedi. Allahın Elçisi ﴿صَلَّ اللهُ عَلَيهِ وَآلِهِ وَسَلَّم﴾ onu halı üzərə qoyub getdi. Sabahsı gün olunca

yenə Sumaməyə xitab edərək: "Ey Sumamə! Könlündə nə var nə ümüd edirsən? deyə soruşdu. O da: "Mənim könlümdə dünən sənə dediyim şeylər vardır. Əgər mənə lütf etsən nemətə qarşı şükr edən bir kəsə lütf etmiş olarsan. Əgər sən məni öldürsən bir qan sahibini öldürmüş olarsan. Əgər (qurtuluş fidyəm üçün) mal istəyirsənsə istə, ondan hər istədiyin sənə verilər dedi. Bu dəfə Allahın Elçisi: ﴿صلى الله عليه وآله وسلم﴾ "Sumaməni buraxın" dedi. Sumamə buraxılınca dərhal məscid yanındakı içində su olan bir xurmalığa getdi və yuyundu. Sonra məscidə girdi və: "Mən şəhadət verirəm ki, Allahdan başqa ibadət edilməyə haqqı olan məbud yoxdur və Şəhadət edirəm ki, Muhamməd onun qulu və Elçisidir" dedi. Sonra bunları söylədi: "Ey Muhamməd! Vallahi, bu yer üzərində mənə sənin üzündən daha düşmən heç bir üz yox idi. Lakin bu səhər sənin üzün mənə bütün üzlərin ən sevimlisi oldu. Vallahi, dinlərdən heç bir din mənə sanin dinin qədər düşmən gəlməzdi. Lakin bu səhər dinin mənə dinlərin ən sevimlisi oldu. Vallahi, məmləkətlərdən heç bir şəhər mənə sənin diyarın qədər mənfur deyildi. Lakin bu səhər sənin diyarın mənim nəzərimdə şəhərlərin hamısından daha sevimlidir. Mən ümrə etməyə niyyət etdiyim sırada sənin suvarilərin məni tutdular. İndi mən nə edim? dedi. Allahın Elçisi, ﴿صلى الله عليه وآله وسلم﴾ Sumaməni müjdələdi və ona ümrə etməsini əmr etdi. Sumamə ümrə üçün Məkkəyə gəldikdə orada olanlardan biri ona: "Dinindən başqa bir dinəmi döndün?" dedi. O da: "Xeyr Vallahi, mən dinimdən çıxmadım. Lakin mən Allahın Elçisi Muhamməd ilə ﴿صلى الله عليه وآله وسلم﴾ birlikdə müsəlman oldum. Vallahi, mən (din dediyiniz şirkə) bir daha qayıtmaram. Allahın Elçisi icazə vermədikcə də Yəmamədən sizə bir buğda dənəsi belə gəlməyəcəkdir, dedi". *«əl-Buxari, Muslim».*

**¤Yarış meydanı¤**

Həsən əl-Basri رحمه الله belə deyir: "Ey Adəm oğlu! İnsanları xeyirdə görsən onlarla yarış, yox əğər onları özlərini həlak edəcək günahlarda görsən onlardan və etdikləri əməllərdən uzaq ol. Neçə-neçə insanlar gördüm ki, onlar tez gəlib keçəni qalıcı və aqibəti olandan üstün tutaraq rəzil, zəlil və həlak oldular."

Ey adəm oğlu! Bil və agah ol ki, insanlar üç sinifə bölünür:

"Mömün, kafir və münafiq (iki üzlü)"

Mömün Allahın əmr etdiyi kimi yaşayar. Kafir alçalmış bir halda. Münafiqin isə hər yerdə olduğunu görərsən (yollarda, bazarlarda, müsəlmanlarla namazda və s.) onlardan Allaha sığınıram, Allaha and olsun ki, onlar Allahı tanımamışlar, etdikləri inkarı, gördükləri pislikləri Rəbləri qəbul edib həlak olmuşlar. *"Məvaiz Həsən /s- 46-47"*

Həmçinin buyurur: "İnsanların dünya üçün yarışdıqlarını görsən, onlarla axirət əməllərini etməkdə yarış, çünki onların yarışıb əldə etmək istədikləri dünya bitəcək axirət isə daim qərar yeridir." *"əz-Zuhd" İmam Əhməd /s-345"*

**¤Həqiqəti axtaran¤**

İbn Abbas ﴿رضي الله عنه﴾ belə deyir: "Salman Farisi ﴿رضي الله عنه﴾ İslama gəlməsi barədə mənə danışaraq belə dedi: "Mən İsfəhanda Cey deyilən bir məmləkətdə yaşayırdım. Atam da həmin məmləkətin böyüyü, həm də ən zəngin adamlarından biri idi. O məni hamıdan çox

sevirdi, günü-gündən də mənə olan məhəbbəti artırdı. O məni heç yerə buraxmırdı, cariyə kimi evdə saxlayırdı. Getdikcə mən əqidəli bir atəşpərəstə çevrilirdim. İş o yerə gəlib çıxmışdı ki, mən bircə saat belə oddan ayrı qala bilmirdim. O vaxtlar atamın agalıq yerləri var idi. Bir gün onun başı işə bərk qarışmışdı deyə məni yanına çağırıb: "Oğlum, mənim evdə bir az işlərim var, bəlkə bu gün gedib çöldəki yerlərimizə bir baş çəkəsən"-dedi və orada bəzi işləri görməyi mənə tapşırdı. Mən oraya gedərkən yolda nəsranilərin kilsəsinin yanından keçdim və onların səslərini eşitdim, içəri daxil olub onların namaz qıldıqlarını gördüm. Atam məni ev dustağı etmişdi deyə mənim belə şeylərdən xəbərim yox idi. Onların namazı mənim xoşuma gəldi, məndə bu dinə rəğbət oyandı və mən öz-özümə dedim: "Vallahi, bu din bizim sitayiş etdiyimiz oddan daha xeyirlidir". Mən çöldəki yerimizə getməyib gün batanadək nəsranilərin yanında qaldım. Sonra onlardan: "Bu dinin əslə haradadır?"-diyə soruşdum. Onlar: "Şamdadır"-dedilər. Beləcə, mən atamın tapşırdığı işi yerinə yetirməyib onun yanına qayıtdım. Mən evə gəldikdə atam dedi: "Oğlum harda idin? Məgər mən səni iş dalınca göndərməmişdim?" Dedim: "Atacan! Mən kilsədə namaz qılan insanlara rast gəldim və onların dini mənim xoşuma gəldi. Mən belə bir din görməmişdim odur ki, axşamadək onların yanında idim". Atam dedi: "Oğlum! O dində heçbir xeyir yoxdur. Sənin və ata babalarının dini bundan daha xeyirlidir". Mən dedim: "Xeyr, Vallahi ki, bu din bizim dinimizdən daha xeyirlidir". Onda atamın canına qorxu düşdü, (atəşpərəslikdən üz döndərəcəyimdən qorxdu) və elə buna görədə məni ev dustağı edib əl-ayağımı bağladı ki, heç yerə qaçıb gedə bilməyim. Mən (fürsət tapıb) nəsranilərə xəbər göndərdim ki, əgər Şama bir kərvan getsə, mənə xəbər versinlər. Çox keçmədi ki, Çam kərvanının gəldiyini mənə bildirdilər. Mən onlara xəbər göndərdim ki, Şam tacirləri alış-verişlərini qurtarıb Şama qayıtmaq istədikdə mənə xəbər versinlər. Nəhayət onlar mənə tacirlərin yola düşmək istədiyini bildirdilər. Mən ayağımdakı qandalları açıb evdən qaçdım və özümü həmin karvana yetirib onlarla bərabər Şama yollandım. Şama çatdıqda dedim: "Bu dini bilən ən savadlı adamı mənə göstərin". Mənə kilsədə baş keşişi göstərdilər. Mən onun yanına gedib dedim: "Mən bu dini qəbul etmişəm, qəlbimi ona bağlamışam və istəyirəm ki, sənin yanında qalıb sənə xidmət edim, səndən savad alım və səninlə birgə namaz qılım". Baş keşiş mənə yanında qalmağa izn verdi. O çox yaramaz adam idi. O, öz havadarlarına Allah yolunda sədəqə verməyi əmr edir, lakin yığılan sədəqəni özünə götürürdü, kasıblara heç nə vermirdi. İş o yerə gəlib çatmışdı ki, bu yaramaz adam yeddi küp qızıl-gümüş toplamışdı. Bu əməlinə görə mən ona nifrət edirdim. Nəhayət, baş keşiş öldükdən sonra nasranilər onu dəfn etmək üçün onun başına yığışdılar. Onda mən onlara dedim: "Sizin bu keşişiniz çox dələduz adam idi. O sizi sədqə verməyə təhrik edir, sonrada verdiyiniz sədəqələri özünə götürür və kasıblara heç nə vermirdi". Onlar soruşdular: "Nə bilirsən ki, o belə edirdi?" Dedim: "İstəyirsinizsə, onun yığdığı pulların yerini sizə göstərim?" Onlar: "Göstər!"-dedilər. Mən onlara onun xəzinəsinin yerini göstərdim və onlar oradan yeddi küp qızıl-gümüş çıxartdılar. Həqiqət bəlli olduqdan sonra onlar: "Allaha and olsun ki, biz bunu bastırmayacağıq"-dedilər və çarmıxa çəkib daş-qalaq etdilər.

Bundan sonra yerinə başqa birisini seçdilər və mən uzun müddət onun yanında qaldım. Mən, namazlarını vaxtlı-vaxtında qılan, dünyaya könül bağlamayıb axirətə can atan,

gecə-gündüz Allahın itaətində duran onun tək dindar birisini görməmişdim. Mən onu çox sevirdim. Nəhayət, ölüm onu haqladıqda mən dedim: “Ey filankəs! Mən uzun müddət sənin yanında qaldım, səni səmimi-qəlbdən sevdim, heç kəsi sənin qədər sevməmişdim. Budur, Allahın əmri ilə ölüm səni haqlayıb. Mənə nə nəsihət edirsən, de görüm, (sən öləndən sonra) kimin yanına gedim?” O dedi: “Oğlum, əsl dindarlar ölüb getmiş və insanlar bu dini təhrif etmiş, həqiqəti gizlətmişlər. Vallahı, mən bu əqidədə olan yalnız bir nəfəri tanıyıram, o da Mövsul şəhərində yaşayan filankəsdir. Gedərsən onun yanına!” O vəfat etdikdən sonra mən Mövsulda yaşayan adamın yanına gəlib dedim: “Ey filankəs! Filankəs ölüm ayağında ikən mənə sənin tovhid dinində olduğunu xəbər vermiş və mənə sənin yanına gəlməyi tövsiyyə etmişdir”. O mənə yanında qalmağa izn verdi və mən (bir müddət) onun yanında qaldım. Mən onun çox mehriban, xeyirxah bir insan olduğunu gördüm. Nəhayət, ona da ölüm yetişdikdə mən dedim: “Ey filankəs! Filankəs mənə sənin yanında qalmağı nəsihət etmişdir. Budur, Allahın əmri ilə ölüm səni haqlayıb. İndi mən nə edim, (sən öləndən sonra) kimin yanına gedim?” O dedi: “Oğlum! Vallahi, Mən bizim əqidədə olan yalnız bir nəfəri tanıyıram o da Nəsibin şəhərində yaşayan filankəsdir. Gedərsən onun yanına!” O vəfat etdikdən sonra mən Nəsibində yaşayan adamın yanına gəlib dostumun dediklərini ona xəbər verdim. O mənə yanında qalmağa izn verdi və mən (bir müddət) onun yanında qaldım. Mən onun əvvəlki iki kişi kimi tovhid əhli olduğunu, çox mehriban, xeyirhah bir insan olduğunu gördüm. Çox keçmədi ki, onunda əcəli çatdı. Ölüm ayağında ikən mən ona dedim: “Ey filankəs! Filankəs mənə filankəsin yanına getməyi, oda mənə sənin yanına gəlməyi nəsihət etmişdi. Sən mənə nə əmr edirsən, (sən öləndən sonra) mən kimin yanına gedim?” O dedi: “Oğlum! Vallahi ki, mən bizim əqidədə olan yalnız bir nəfəri tanıyıram o da Əmmuriyyə şəhərində yaşayır. İstəyirsənsə, onun yanına get!” O vəfat etdikdən sonra mən Əmmuriyyədə yaşayan adamən yanına gəlib dostumun dediklərini ona xəbər verdim. O mənə yanında qalmağa izn verdi və mən (bir müddət) onun yanında qaldım. Onun yanında qaldığım müddətdə (Allah) mənə çoxlu mal-qara və qoyun nəsib etdi. Çox keçmədi ki, bu kişinin də əcəli yetişdi. Ölüm ayağında ikən mən ona dedim: “Ey filankəs! Mən filankəsin yanında idim. O mənə filankəsin yanına getməyi, filankəs də mənə filankəsin yanına getməyi, o da mənə sənin yanına gəlməyi nəsihət etmişdi. Bəs sən mənə nə buyurursan, (sən öləndən sonra) mən kimin yanına gedim?” O dedi: “Oğlum! Vallahi, mən bizim əqidəmizdə olan elə bir adam tanımıram ki, səni onun yanına göndərim. Lakin İbrahimin dinində olan peyğəmbərin göndəriləcəyi vaxt artıq yaxınlaşıb. O, ərəblərin arasından çıxacaq, (qövmü onu qovub yurdundan çıxartdıqdan sonra) Hərraya xurmalar olan bir yerə hicrət edəcək. Onun hamıya bəlli olan peyğəmbərlik əlamətləri vardır: “Hədiyyəni yeyər, sədəqəni isə yeməz və birdə çiyinləri arasında peyğəmbərlik nişanəsi vardır. O yerlərə gedə bilərsənsə, get!” O vəfat etdikdən sonra mən Allahın qədərə yazdığı qədər Əmmuriyyədə qaldım. Nəhayət, bir gün mən Kəlb qəbiləsindən olan tacirlərə rast gəldim və onlara: “Məni ərəblərin diyarına aparmağa razılıq versəniz, mal-qaramı və qoyunlarımı sizə verərəm”. Onlar mənim təklifimə razılaşdılar və mən bütün varidatımı onlara verdim. Tacirlər məni (Mədinə) yaxınlığındakı bir vadiyə gətirdilər və haqsızlıq edib məni kölə olaraq bir yahudiyə satdılar. Mən onun yaşadığı yerə gəlib çatdıqda xurma ağaclarını gördüm və

ürəyimə damdı ki, bu, dostumun mənə vəsf etdiyi yerdir. Mən içimdə rahatlıq tapa bilmirdim. Elə bu dəm ağamın Mədinəli –bəni qureyzəli əmisi oğlu onun yanına gəldi və məni satın alıb Mədinəyə apardı. Vallahi, mən Mədinəni görəndə keşişin sözləri yadıma düşdü və axtardığım yeri tapdığımı güman etdim. Həmin ərəfədə artıq Allah Öz Peyğəmbərini ﴿صَلَّى اللهُ عَلَيْهِ وَآلِهِ وَسَلَّم﴾ insanlara göndərmişdi. Peyğəmbər ﴿صَلَّى اللهُ عَلَيْهِ وَآلِهِ وَسَلَّم﴾ bir müddət Məkkədə dəvət apardı. Mən kölə idim deyə, onun haqqında heç bir məlumatım yox idi. Sonra Peyğəmbər ﴿صَلَّى اللهُ عَلَيْهِ وَآلِهِ وَسَلَّم﴾ Mədinəyə hicrət etdi. Bu ərəfədə mən ağam üçün ağacdan xurma yığırdım. Həmin vaxt ağamın əmisi oğlu onun yanına gəldi və onlar ağacın altında durub söhbət etməyə başladılar. Biri o birinə dedi: "Allah bəni-qiylə qəbiləsini öldürsün! Bu dəqiqədə onlar Qubada Məkkədən gəlmiş O kişinin başına toplaşıb onun peyğəmbər olduğunu iddia edirlər". Mən bu sözləri eşidəndə bədənimdən isti bir üşütmə keçdi və az qaldım ki, ağacdan ağamın üstünə düşüm. Mən dərhal yerə enib ağamın əmisi oğluna yaxınlaşdım və ondan: "Sən nə dedin? Nə dedin?"-deyə soruşdum. Bunu eşidəndə ağam qəzəbləndi və məni əməllicə kötəklədi. Sonra üstümə qışqırıb dedi: "Bunun sənə dəxli yoxdu, get işinlə məşğul ol!" Mən ona: "Sadəcə onun dediyini bilmək istəyirdim"-dedim. Axşam düşdükdə mən bir qədər xurma götürüb Peyğəmbərin ﴿صَلَّى اللهُ عَلَيْهِ وَآلِهِ وَسَلَّم﴾ yanına getdim. Həmin vaxt Peyğəmbər ﴿صَلَّى اللهُ عَلَيْهِ وَآلِهِ وَسَلَّم﴾ Qubada idi. Mən onun yanına gəlib dedim: "Sənin əməlisaleh insan, ətrafındakı səhabələrin də ehtiyac içində olduğunu eşitmişəm. Odur ki, sədəqə vermək üçün saxladığım bu xurmaları sizə gətirmişəm. Sizin buna daha çox haqqınız çatır". Bunu deyəndən sonra mən xurmaları Peyğəmbərə ﴿صَلَّى اللهُ عَلَيْهِ وَآلِهِ وَسَلَّم﴾ uzatdım. Peyğəmbər ﴿صَلَّى اللهُ عَلَيْهِ وَآلِهِ وَسَلَّم﴾ səhabələrinə: "Yeyin!"-dedi, özü isə bundan yemədi. Onda mən öz-özümə bu, biri!"-dedim və çıxıb getdim, Peyğəmbərdə ﴿صَلَّى اللهُ عَلَيْهِ وَآلِهِ وَسَلَّم﴾ Mədinəyə getdi. Sonra mən yenədə bir qədər xurma götürüb onun yanına gəldim və dedim: "Görürəm siz sədəqə yemirsiniz. Odur ki, bu xurmaları sizə hədiyyə edirəm". Onda Peyğəmbər ﴿صَلَّى اللهُ عَلَيْهِ وَآلِهِ وَسَلَّم﴾ xurmzdan yedi və səhabələrinə də ondan yeməyi buyurdu. Mən yenə öz-özümə dedim: "Buda ikincisi". Bir müddən sonra mən yenə onun yanına gəldim. Həmin vaxt O, Bəqi qəbirstanlığında, səhabələrindən birinin dəfnində idi. O, səhabələri ilə birlikdə yerdə oturmuşdu, əbasınıda çiyninə atmışdı. Bu vaxt mən onun arxa tərəfinə keçdim ki, bəlkə keşişin mənə vəsf etdiyi peyğəmbərlik nişanəsini görəm. Mən Peyğəmbərin ﴿صَلَّى اللهُ عَلَيْهِ وَآلِهِ وَسَلَّم﴾ arxa tərəfinə keçdikdə O mənim nə istədiyini başa düşdü və əbasını çiynindən yerə saldı. Mən onun çiyinləri arasındakı peyğəmbərlik əlamətini görən kimi onu qucaqlayıb öpdüm və hönkür-hönkür ağlamağa başladım. Peyğəmbər ﴿صَلَّى اللهُ عَلَيْهِ وَآلِهِ وَسَلَّم﴾ mənə: "Gəl otur!"- dedi, mən də oturub əvvəldən axıradək başıma gələnləri ona danışdım. Bu əhvalat Peyğəmbərə təsir etdi və O məndən başıma gələnləri səhabələrə də danışmağı xahiş etdi.

İbn Abbas ﴿رضي الله عنه﴾ demişdir: "Salman Uhud döyüşünədək kölə olaraq qaldı".

Sonra Salman rəvayətinə davam edərək dedi: "Bir gün Peyğəmbər ﴿صَلَّى اللهُ عَلَيْهِ وَآلِهِ وَسَلَّم﴾ mənə dedi: "Ey Salman, ağanla (müəyyən miqdar pul müqabilində) azd olunmağına dair razılaş". Mən gedib ağamdan üç yüz xurma zoğu əkmək və min altı yüz dirhəm ödəmə şərti ilə azad ediləcəyimə dair razılıq aldım. Onda Peyğəmbər ﴿صَلَّى اللهُ عَلَيْهِ وَآلِهِ وَسَلَّم﴾ səhabələrinə: "Qardaşınıza yardım edin!"- deyə buyurdu, səhabələrdə mənə yardım etdilər. Kimisi otyz, kimisi iyirmi, kimisi on beş, kimisi on, kimisidə imkanı daxilində bir neçə zoğ verdi.

Beləliklə, üç yüz zoğ yığıldı. Sonra Peyğəmbər ﴿صلى الله عليه وآله وسلم﴾ mənə dedi: “Ey Salman, get bu zoğların yerini qaz, işini qurtardıqdan sonra gəl mənə xəbər ver ki, onları mən öz əllərimlə əkim”. Mən səhabələrlə birlikdə zoğların yerini qazıb qurtardıqdan sonra Peyğəmbərin ﴿صلى الله عليه وآله وسلم﴾ yanına gəlib ona xəbər verdim. Peyğəmbər ﴿صلى الله عليه وآله وسلم﴾ qalxıb mənimlə getdi. Biz zoğları bir-bir Ona uzatdıq, oda onu yerə sancırdı. Beləcə, Peyğəmbər ﴿صلى الله عليه وآله وسلم﴾ zoğların hamısını öz ələri ilə yerə bastırdı. Salmanın canı əlində olan Allaha and olsun ki, o zoğlardan heç biri tələf olmadı. Beləliklədə, mən ağama xurma ağaclarını ödədim. Lakin min altı yüz dirhəmi ödəmək sonraya qaldı. Döyüşlərin birindən sonra Peyğəmbər ﴿صلى الله عليه وآله وسلم﴾ məni yanına çağırtdırıb mənə yumurta boyda qızıl külçə verdi və dedi: “Al bunu, borcunu ödə, Ey Salman!” Dedim: “Bu bəs edəcəkmi Ya Rəsulullah?” Peyğəmbər ﴿صلى الله عليه وآله وسلم﴾ dedi: “Götür bunu qüdrət və qüvvət sahibi olan Allah sənin borcunu ödəyəcək”. Mən bu qızıl külçəni götürüb tərəzidə çəkdirdim. Salmanın canı əlində olan Allaha and olsun ki, düz qırx övqiyə (bir övqiyə qirx dirhəmə bərabərdir) gəldi. Beləcə mən borcumu ödəyib azad oldum”. Beləliklədə Xəndək döyüşünü Peyğəmbərlə ﴿صلى الله عليه وآله وسلم﴾ birlikdə oldum və bundan sonra onun olduğu bütün döyüşlərdə iştirak etdim. *“Müsnəd imam Əhməd, 5/441-444, Təbaqat ibn Sad, 4-c 53-s.”*

**¤Məzlumun duası ilə Allah arasında pərdə yoxdur¤**

Cabir ibn Səmurə ﴿رضي الله عنه﴾ belə rəvayət etmişdir ki, kufəlilər Ömərə Səd ibn Əbu Vaqqasdan şikayət etdilər. Buna görədə Ömər onu bu vəzifədən kənarlaşdırdı və yerinə Əmmar ibn Yasiri hakim təyin etdi. Kufəlilər (çox) şikayət etdilər, hətta namazı lazımı qaydada qılmadığını belə iddia etdilər. Belə olduqda, Ömər adam göndərib onu yanına çağırtdırdı və dedi: “Ey Əbu İshaq! Bunlar iddia edirlər ki, sən namazı lazımı qaydada qılmırsan.” Əbu İshaq dedi: “Mənə gəlincə, Vallahi ki, mən onlara Peyğəmbərin ﴿صلى الله عليه وآله وسلم﴾ namazını qıldırmışam və bundan heç bir şey əksiltməmişəm. İşa namazını qıldıranda ilk iki rükəti uzun, son iki rükəti isə qısa qıldırmışam.” Ömər: “Mən elə belədə bilirdim, Ey Əbu İshaq! “- dedi, sonra da onunla birlikdə Kufəyə bir və ya iki adam göndərdi ki, gedib Kufəlilərdən onun barəsində soruşsunlar. Kufədə elə bir məscid qalmadı ki, (göndərilən adam) onun barəsində soruşmasın. Hamı onu təriflədi. Axırda həmin adam Abs oğullarının məscidinə gəldi. Oradakılardan Əbu Sədə ləqəbi ilə tanınan Usamə ibn Qatədə adlı birisi əyağa qalxıb dedi: “Madam ki, and verib bizdən soruşdun, (onda bil ki,) Səd heç vaxt döyüşə gedən dəstəyə qoşulmayıb, (qənimətləri) düzgün bölüşdürməyib və şəriət məsələlərində ədalətlə hökm verməyib.” Səd dedi: “İndiki belə oldu, onda vallahi ki, məndə üç şeylə bağlı Allaha dua edəcəyəm: “Allahım! Əyər sənin bu qulun yalançıdırsa, üstəlik bunu özünü göstərmək və ad qazanmaq məqsədi ilə edirsə, onda onun ömrünü uzat, yoxsulluğunu artır və onu bəlalara düçür et!” Uca Allah Sədin duasını qəbul etdi. Sonralar həmin adamdan onun halı barədə soruşanda deyərdi: “Mən başı bəlalı bir qocayam, məni Sədin bəd duası tutub.” Abdul Malik رحمه الله demişdir: “Sonralar mən o adamı gördüm, qocalığından qaşları gözlərinin üstünə düşmüşdü, özüdə küçələrdə cariyələrə əl atırdı.” *«əl-Buxari»*

## ¤İbn Abbas və Xəvariclər¤

Abdullah İbn Abbas (رضي الله عنه) deyir: “Hərurilər (xəvariclər) zühur etdikdə altı min idilər. Mən Əliyə: (رضي الله عنه) “Ya Əmirəl Muminin sən namazı bir az gecikdir mən onlarla söhbət edim!” – dedim.
O, “Mən sənin üçün təhlükədən qorxuram!” – dedi. Mən: “Sən heç narahat olma deyərək, ən gözəl paltarımı geyinib yola düşdüm və onların toplandıqları evə gəldim. Onlar günorta istirahətində idilər. Onlardan daha şiddətli ibadətə həris olanını görməmişdim. Əlləri dəvə dizi kimi idi (Çox ibadət etməkdən qabar atmışdı), üzlərində səcdənin əlaməti görsənir, əyinlərində yuyulmuş paltarlar var idi. Üzləri yuxusuzluqdan zəifləmişdi. Yanlarına gəlincə dedilər:
- Bu geyindiyin paltar nədir?
- Məni bununla təqsirkar sayırsızmı? Mən Rəsulallahın (صلى الله عليه وآله وسلم) əynində bundan daha gözəlini görmüşəm və bu ayə nazil olmuşdu:
***«Allahın qulları üçün yaratdığı zinət və təmiz rizqləri haram edən kimdir?». (əl-Əraf: 32).***
Sonra mən onlara dedim: Peyğəmbərin (صلى الله عليه وآله وسلم) əshabının, mühacir və ənsarların, Peyğəmbərin (صلى الله عليه وآله وسلم) əmisi oğlu və kürəkəninin yanından gəlirəm. Quran onların zamanında nazil olub və onlar onu sizdən daha yaxşı başa düşürlər. Onlardan heç birini sizin aranızda görmürəm. Mən onların dediklərini sizə, sizin dediklərinizi isə onlara çatdırmaq istəyirəm.
Bəziləri: Qureyşlə münaqişə etməyin – deyərək bu ayə: ***«Şübhəsiz ki, onlar höcətləşən (çənə-boğaz olan) bir qövmdürlər!» Zuxruf surəsi: 58*** - ilə etirazlarını bildirdilər.
İki üçü nəfər: “Onlarla danışın” - dedilər.
Onlardan biri mənə yaxınlaşdı və mən dedim: Peyğəmbərin (صلى الله عليه وآله وسلم) əshabına, əmisi oğluna, kürəkəninə və ilk iman gətirənə qarşı etiraz etdiyiniz məsələləri deyin. Onlar dedilər: “Bizim üç etirazımız var.”
**Birinci:** O, Allahın dinində hakimliyi kişilərə verdi. Allah təalə isə buyurur:
***“Hökm yalnız Allahındır” (Yusuf surəsi: 40).***
İbn Abbas (رضي الله عنه) dedi: Yaxşı bu bir.
Onlar dedilər:
**Ikinci:** Əli (Müaviyəyə qarşı etdiyi) döyüşlərdə qənimət və əsir götürmədi. Əgər onlar kafirdirlərsə onda onların malları və namusları bizə halal olmalıdır. Əgər onlar mömindirlərsə onda onların qanlarını tökmək bizə haramdır.
İbn Abbas (رضي الله عنه) dedi: “Bu ikincisi bəs sonra”.
Onlar dedilər:
**Üçüncü:** O, öz üzərindən möminlərin əmiri adını sildi. Əgər o möminlərin əmiri deyilsə, onda kafirlərin əmiri olmalıdır.
İbn Abbas (رضي الله عنه) dedi: sizin bundan başqa şikayətiniz varmı?
Onlar: bu kifayətdir - dedilər.
İbn Abbas (رضي الله عنه) dedi: “Əgər mən sizə Qurandan və sünnədən sizin dediklərinizin lazımlı cavabını versəm söylədiklərinizdən dönərsinizmi?” Onlar: “Bəli.”dedilər. İbn Abbas (رضي الله عنه) dedi: siz deyirsiniz ki, Əli (رضي الله عنه) Allahın dinində hakimliyi kişilərə vermişdir. Mən isə sizə Qurandan bir ayə oxuyacam. Bu ayədə Allah təalə, qiyməti 1/4 dirhəm olan dovşanın hakimliyini kişilərə həvalə etmişdir.Allah təalə buyurur:

***"Ey iman gətirənlər! İhramda olarkən ovu (əti yeyilən heyvanları) öldürməyin. Sizdən ovu qəsdən öldürən hər bir kəsin boynuna cəza və ya kəffarə düşür.*** **Onun cəzası içərinizdən olan iki ədələtli şəxsin hökmü ilə** ***öldürdüyünə bənzər (onun qiymətinə bərabər) bir heyvanı Kəbəyə çatası (Kəbənin yaxınlığında kəsilib oradakı yoxsullara paylanacaq) qurban etmək, kəffarəsi isə, gördüyü işin zərərini, acısını dadsın deyə, (öldürdüyü heyvanın dəyəri müqabilində) yoxsullara yedirtmək, yaxud ona bərabər oruc tutmaqdır. Allah keçmişdə olanları bağışlamışdır. Hər kəs bundan sonra belə bir iş görsə, Allah ondan intiqam alar. Allah yenilməz qüvvət sahibi, intiqam sahibidir!" (əl-Maidə: 95).***

Ərlə arvad haqda isə belə buyurur:

***"(Ey möminlər!) Əgər ər-arvad arasında ixtilaf olacağından qorxsanız, o zaman kişinin adamlarından bir nəfər və qadının adamlarından da bir nəfər*** **münsif (vasitəçi) təyin edib (onların yanına) göndərin**. ***Əgər onlar (bu iki vasitəçi ər-arvadı) barışdırmaq istəsələr, Allah da onların köməyi olar. Həqiqətən, Allah (hər şeyi) biləndir, (hər işdən) xəbərdardır!" (ən-Nisa: 35).***

Indi isə sizi Allaha and verirəm! Insanların qanının tökülməsinin qarşısını almaq və onları barışdırmaq üstündür, yoxsa qiyməti 1/4 dirhəm dəyərində olan dovşan!?. Onlar dedilər: "Əlbətdə ki, qanının tökülməsinin qarşısını almaq və onları barışdırmaq üstündür."

İbn Abbas (رضي الله عنه) dedi: bu suala cavab verdimmi?

Onlar dedilər: "Bəli, Allah da şahiddir."

Sizin ikinci etirazınız; "Əli (Müaviyəyə qarşı etdiyi) döyüşlərdə qənimət və əsir götürmədi". Məyər siz ananız hesab edilən Aişəni əsir götürər və onunla əsirlərlə aparılan münasibətləri edərdinizmi? Əgər bunu etsəydiniz küfr edərdiniz. Yaxud, "O bizim anamız deyildir" desəniz yenə də küfr edərsiniz. Allah təalə buyurur:

"***Peyğəmbər möminlərə onların özlərindən daha yaxındır. (Möminlər peyğəmbəri özlərindən çox sevməli, onun hər bir əmrini sözsüz yerinə yetirməlidirlər).*** **Onun övrətləri (möminlərin) analarıdır (*heç kəs onlarla evlənə bilməz)...» (əl-Əhzab: 6).*** Siz iki zəlalət və zülmət içərisinidəsiniz. Bundan çıxış yolu tapın.

Sonra İbn Abbas (رضي الله عنه) dedi: Bu sualınıza da cavab verdimmi?

Onlar dedilər: "Bəli, Allah da şahiddir."

Sonra siz dediniz ki, «O, öz üzərindən möminlərin əmiri adını sildi». Peyğəmbər (صلى الله عليه وآله وسلم) Hüdeybiyyə sülhü günü Qureyş qəbiləsini yazılı şəkildə ittifaq etməyə çağırmışdı. Peyğəmbər (صلى الله عليه وآله وسلم) buyurdu: **"Yaz! Bunu Allahın elçisi Məhəmməd imzalayır"**. Qüreyşli müşrik dedi: "Allaha and olsun, əgər biz sənin Allah elçisi olduğunu tanısaydıq sənin Kəbə evini ziyarət etməyinə mane olmaz və sənə qarşı döyüşməzdik. Sən sadəcə olaraq Məhəmməd İbn Abdullah yaz."

Peyğəmbər (صلى الله عليه وآله وسلم) buyurdu: Allaha and olsun ki, siz mənə iman gətirməsəniz də mən Allahın elçisiyəm. Sonra Əliyə (رضي الله عنه) dedi: Ey Əli! Məhəmməd İbn Abdullah yaz!

İbn Abbas (رضي الله عنه) dedi: Peyğəmbər (صلى الله عليه وآله وسلم) Əlidən də xeyirli və üstün idi. O, öz adını sildi. Onun öz adını silməsi Peyğəmbərliyinin silinməsi demək deyildir.

Sonra İbn Abbas (رضي الله عنه) dedi: "Buna da cavab verdimmi?."

Onlar dedilər: "Bəli, Allah da şahiddir."

Bu söhbətdən sonra onların iki min nəfəri öz dediklərindən döndülər qalanlarını isə Mühacir və Ənsarlar Nəhrəvan döyüşündə öldürdülər.

*"Bu rəvayəti Əbdurrəzzaq, Əbu Nueym, Beyhəqi və digər alimlər rəvayət ediblər."*

**¤Əkinçi¤**

Əbu Hüreyrə ﴿رضي الله عنه﴾ rəvayət edir ki, bir dəfə bədəvilərdən birisi Peyğəmbərin ﴿صلى الله عليه وآله وسلم﴾ yanında ikən Peyğəmbər ﴿صلى الله عليه وآله وسلم﴾ belə bir hədis danışdı ki: "Cənnət əhlindən biri Rəbbindən orada əkinçiliklə məşğul olmaq üçün izn istəyəcək." Rəbbi ona buyuracaq: "Məgər istədiklərinə nail olmamısan?" Adam deyəcək: "Elədir, lakin mən əkin əkməyi sevirəm." Onda ona izn veriləcək və o torpağa toxum səpəcək. Toxumlar bir göz qırpımında cücərib yetişəcək və bol məhsul verəcək; o məhsul dağ boyda olacaq." Onda Allah ona buyuracaq: "Götür onları, ey Adəm oğlu! Həqiqətən heçbir şey sənin gözünü doydura bilməz." Peyğəmbərin ﴿صلى الله عليه وآله وسلم﴾ yanındakı bədəvi dedi: "Vallahı, bu adam olsa-olsa, ya Qureyişdən, yada Ənsardan bir kimsə olacaq. Əkinçiliklə məşğul olan onlardır, biz yox." Peyğəmbər ﴿صلى الله عليه وآله وسلم﴾ onun bu sözünə gülümsədi. *«əl-Buxari».*

**¤Qorxan qəlbdən saf kəlimələr¤**

Fudeyl ibn Rabi belə deyir: "Mömünlərin əmiri Rəşid hacc etdi, mənim yanıma gəldi və mən tez onun qarşısına çıxıb: "Ey Mömünlərin əmiri! Əgər çağırsaydın mən özüm gələrdim"- dedim. O isə: "Məni narahat edən bir sualım var, bu sualımı soruşmaq üçün mənə bir alim göstər"- dedi. Mən dedim: "Sufyan ibn Uyeynə buradadır". O dedi: "Bizi onun yanına apar". Biz onun olduğu yerə gəlib qapını döydük. O da: "Kimdir?" deyə səsləndi. Dedim ki, Mömünlərin əmirinə cavab ver. O olduğu yerdən sürətlə çıxaraq: "Ey Mömünlərin əmiri əgər çağırsaydın mən özüm gələrdim" dedi. Əmir isə ona: "Sənin yanına gəlmə səbəbim bu suallardır" deyə ondan bəzi şeylər haqda soruşdu. Bir müddət onunla söhbət etdikdən sonra ona: "Sənin borcun varmı?" deyə soruşdu. O da: "Bəli" var dedi. Əmir Rəşid mənə dönərək: "Əbu Abbas onun borclarını ödə" dedi. Sufyan ibn Uyeynənin yanından çıxdıqdan sonra əmir: "Sənin dostun (mənə göstərdiyin bu adam) mənim ehtiyacımı ödəmədi. Sualımı soruşa biləcəyim başqa birisi varmı?" dedi. Dedim ki, Abdur Razzaq ibn Həmməm buradadır. O dedi: "Bizi onun yanına apar". Biz onun olduğu yerə gəlib qapını döydük. O olduğu yerdən sürətlə çıxaraq, gələn kimdir? dedi. Dedim ki, Mömünlərin əmirinə cavab ver. O dedi: "Ey Mömünlərin əmiri əgər çağırsaydın mən özüm gələrdim" Əmir isə ona: "Sənin yanına gəlmə səbəbim bu suallardır" deyə ondan bəzi şeylər haqda soruşdu. Bir müddət onunla söhbət etdikdən sonra ona: "Sənin borcun varmı?" deyə soruşdu. O da: "Bəli" var dedi. Əmir Rəşid mənə dönərək: "Əbu Abbas onun borclarını ödə" dedi. Onun da yanından çıxdıqdan sonra əmir: "Sənin dostun (mənə göstərdiyin bu adam) mənim ehtiyacımı ödəmədi. Sualımı soruşa biləcəyim başqa birisi varmı?" dedi. Dedim ki, Fudeyl ibn İyad buradadır. O dedi: "Bizi onun yanına apar". Biz onun yanına çatdıqda, onun namazda quran ayələri oxuyub təkrarladığını eşitdik. Əmir Rəşid qapını döyməyi mənə əmr etdi. Mən qapını döydükdə o kimdir? deyə səsləndi. Mən ona: "Mömünlərin əmirinə cavab ver "dedim. O da: "Qapını açmadan mənimlə əmir arasında nə əlaqə deyə səsləndi". Mən ona əmirə itati vacib olduğunu dedikdən sonra, o qapını açdı. Sonra otağda bir küncə çəkilərək lampanın işığını azaltdı. Biz otağa daxil oluduq və əlimizlə onu axtarmağa başladıq. Əmir Rəşid məndən öncə ona çatdı, əli ilə ona toxunanda o belə dedi: "Bu nə yumşaq əldir, kaş qiyamət günü də Allahın əzabından qurtara bilə. Mən öz nəfsimdə dedim: "Bu kişi bu

gecə qorxan qəlbdən saf kəlimələr deyəcək.” Əmir Rəşid ona Allah sənə rəhm etsin: “Sənin yanına gəlmə səbəbim bəzi suallarımın olmasıdır” dedi. Fudeyl ibn İyad ona: “Ömər ibn Abdul Əziz xəlifə seçildiyi vaxt Səlim ibn Abdullah, Muhəmməd ibn Kəab əl-Qurazi, Rəca ibn Həyvanı yanına çağıraraq onlara: “Mən artıq bu yüklə yüklənmişəm, mənə nəsihət edin” dedi. Səlim ibn Abdullah: “Allahın əzabından qurtarmaq istəyirsənsə dünyadan oruc tut, sənin ondan iftarın ölüm olsun” dedi. Muhəmməd ibn Kəab: “Allahın əzabından qurtarmaq istəyirsənsə mömünlərin böyüyü sənin üçün ata, orta səviyyəlisi qardaş, kiçiyi isə övladının yeridə olsun” dedi. Rəca ibn Həyva: “Qiyamət günü Allahın əzabından qurtarmaq istəyirsənsə o zaman özün üçün istədiyini mömünlər üçündə istə, özün üçün istəmədiyini də onlar üçün istəmə, bundan sonra istəsən (axirətin şiddətundən əmin olaraq) öl.” Məndə sənin üçün əyaqların sabit qalmadığı bir günün əzabından qorxuram, Ömər ibn Abdul Əzizə olunan nəsihətlərdən hansı səndə var ki, onunla qiyamət günü səni əzabdan qurtarsın? Yaxutda sənə bu yolda onlar kimi nəsihət edənlər varmı? Onun bu sözlərindən sonra Əmir hüşunu itirənə qədər ağladı. Mən ona: Allah sənə rəhm etsin ona rəhm et. Bunun cavabında Fudeyl ibn İyad mənə: “Onu siz öldürürsünüz mənmi ona rəhm edim?” Əmir Rəşid özünə gələndən sonra ona: “Allah sənə Rəhm etsin bizə yenə də nəsihət et” dedi. Fudeyl رحمه الله belə dedi: “Ey gözəl üzlü! Qiyamət günü Allah səndən bu camaatın haqqını soruşacaq, əğər bu üzü, ədalətli olmaqla oddan qoruya bilirsənsə qoru yoxsa sənə yardım edən tapılmaz. Çəkin sənin tabeçiliyin altında olanlardan kimisə aldatmaqdan (haqqını tapdamaqdan, haqsız yerə onlara zülm etməkdən) Allahın Elçisi ﴿صَلَّى اللهُ عَلَيهِ وَآلِهِ وَسَلَّم﴾ belə deyir: “Kim rəiyyətini (əlinin altındə olanları) aldadar (haqqını tapdalayar, haqsız yerə onlara zülm edər) o cənnətin qoxusunu belə almaz.” Harun ağladı və sonunda ondan: “Sənin borcun varmı?” deyə soruşdu. O da cavabında: “Bəli, mənim Aləmlərin Rəbbi olan Allaha qulluq borcum var, ona görədə məni hesaba çəkəcəkdir. Vay olsun mənə əgər Allah bu borc haqda məndən soruşsa, məni bu borca görə hesaba çəksə və məndə bu hesabın cavabını verə bilməsəm.”

Harun ona: “Mən səndən qullara olan borcun haqda soruşuram” dedi. O isə cavabında: “Rəbbim mənə bunları əmr etməyib, mənim Rəbbim mənə, onu təsdiq edib əmirlərini yerinə yetirməyi buyurub.” Uca Allah buyurur: “***Mən cinləri və insanları ancaq Mənə ibadət etmək üçün yaratdım. Mən onlardan ruzi istəmirəm. Mən onlardan Məni yedirtmələrinidə istəmirəm.” (əz-Zariariyət 56-57)*** Əmir bundan sonra min dinar çıxararaq ona uzatdı və: “Ehtiyaclarını ödə” dedi. Fudeyl رحمه الله isə ona qəzəblənərək: “Subhənallah! Mən sənə qurtuluş yolunu göstərirəm, səninsə bunun müqabilində mənə etdiyinə bax.” dedi və sakit duraraq birdə onlarla danışmadı. Onun yanından çıxdıqdan sonra Harun mənə: “Mən səndən suallarıma cavab verməsi üçün bir alim göstər deyəndə mənə bunun kimisini göstər, çünki bu müsəlmanların elimlisidir.” dedi. “Siyər Ə`ləm ən-Nubələ c-8/428”

**¤Saleh qadın¤**

Ənəs ibn Malik ﴿رضي الله عنه﴾ belə rəvayət edir: “Əbu Talhanın oğlu xəstə idi. Əbu Talha bir dəfə (səfərə) getdiyi vaxt oğlu vəfat etdi. O qayıtdıqda: “Uşaq nə etdi?” deyə zövcəsindən xəbər aldı. Ummu Süleym ona: “Əvvəlkindən daha sakitdir!” deyə buyurdu və onun qabağına şam yeməyini qoydu. O, şam yeməyini yedikdən sonra qadınla yaxınlıq etdi. Qurtardıqdan sonra qadın: “Uşağı dəfn edin!” deyə buyurdu. Səhər açıldıqda isə Əbu

Talha Peyğəmbərin ﴾صلى الله عليه وآله وسلم﴿ yanına gəldi. Ona ﴾صلى الله عليه وآله وسلم﴿ bunu xəbər verdi. Peyğəmbər ﴾صلى الله عليه وآله وسلم﴿ belə buyurdu: "Bu gecə yaxınlıq etmisinizmi?" O: "Bəli!" deyə cavab verdi. Peyğəmbər ﴾صلى الله عليه وآله وسلم﴿ : "Allahım, onlara bərəkət ver!" deyə buyurdu. O bir oğlan uşağı doğdu. Əbu Talha mənə onu Peyğəmbərin ﴾صلى الله عليه وآله وسلم﴿ yanına aparmağı buyurdu." Onu Peyğəmbərin ﴾صلى الله عليه وآله وسلم﴿ yanına gətirdi. Onunla birgə bir neçə quru xurma göndərdi. Peyğəmbər ﴾صلى الله عليه وآله وسلم﴿ onu götürdü və: "Onunla bərabər bir şey varmı?" deyə soruşdu. Onlar: "Bəli, quru xurma!" deyə cavab verdilər. Peyğəmbər ﴾صلى الله عليه وآله وسلم﴿ onu ağzında çeynədi və sonra çıxararaq uşağın ağzına qoydu. Onu təhlik etdi və adını Abdullah qoydu." *«Muslim»*

**¤Ey gəmi əhli sizin üçün iki hicrət vardır¤**

Əbu Musa ﴾رضي الله عنه﴿ demişdir: "Biz yəməndə olarkən Peyğəmbərin ﴾صلى الله عليه وآله وسلم﴿ Məkkədən Mədinəyə hicrət etdiyini bizə xəbər verdilər. (Bu xəbəri eşidəndə) mən yaşca məndən böyük iki qardaşımla –Əbu Burdə və əbu Ruhm ilə birlikdə həmqəbilələrimizdən olan əlli üç, yaxud əli iki nəfərdən ibarət bir dəstəyə qoşulub Mədinəyə hicrət etdik. Biz bir gəmiyə mindik və bu gəmi bizi Həbəşistana- Nəcaşinin yanına apardı. Orada biz Cəfər ibn Əbu Talibə rast gəldik və hamımız Mədinəyə qayıdanadək onun yanında qaldıq. Nəhayət, Peyğəmbər ﴾صلى الله عليه وآله وسلم﴿ Xeybəri fəth etdiyi zaman biz ona yetişdik. O vaxt bəzi adamlar bizə -yəni gəmi ilə gələnlərə- deyirdilər: "Biz sizdən qabaq hicrət etmişik." Bu ərəfədə bizimlə birgə Mədinəyə gəlmiş habelə vaxtı ilə Nəcaşinin məmləkətinə hicrət etmiş kimsələrlə bərabər hicrət etmiş Əsma bint Umeys Peyğəmbərin ﴾صلى الله عليه وآله وسلم﴿ zövcəsi Hafsanı ziyarət etdi. Əsma Həfsanın evində ikən Ömər onun yanına gəldi və Əsmanı görcək: "Bu kimdir?" –deyə soruşdu. Həfsa: "Əsma bint Umeysdir"- dedi. Ömər soruşdu: "Həbəşistanda yaşamış və gəmi ilə hicrət etmiş qadın budur?" Əsma: "Bəli!"- deyə cavab verdi. Ömər dedi: "Biz sizdən əvvəl hicrət etmişik. Odur ki, biz Peyğəmbərə ﴾صلى الله عليه وآله وسلم﴿ sizdən daha yaxınıq." Bunu eşidəndə Əsma qəzəblənib dedi: "Yox, Vallahi ki, sən düz danışmırsan. Siz Peyğəmbərin ﴾صلى الله عليه وآله وسلم﴿ yanında olarkən, O, sizin aranızdaki acların qarnını doydurarkən, cahillərinizə öyüd-nəsihət verərkən, biz Həbəşistanda- uzaq və cansıxıcı bir diyarda yaşamışıq. Bütün bunları Allahın və onun Peyğəmbərinin xatirinə etmişik. Vallahi sənin dediklərini Allahın Elçisinə ﴾صلى الله عليه وآله وسلم﴿ xəbər verməyincə mən nə yemək yeyəcəyəm, nədə su içəcəyəm. Həbəşistanda bizim xətrimizə dəyirdilər, özümüzdə qorxu içində yaşayırdıq. Mən bunu Peyğəmbərə ﴾صلى الله عليه وآله وسلم﴿ deyəcəyəm və bu haqda ondan soruşacağam. And olsun Allaha mən nə yalan danışacağam nə haqdan uzaqlaşacağam, nədə buna bir şey əlavə edəcəyəm." Peyğəmbər ﴾صلى الله عليه وآله وسلم﴿ gəldikdə Əsma dedi: "Ey Allahın Peyğəmbəri, Ömər belə-belə dedi." Peyğəmbər ﴾صلى الله عليه وآله وسلم﴿ soruşdu: "Sən ona nə cabvab verdin?" Əsma dedi: "Mən ona bunu-bunu dedim." Peyğəmbər ﴾صلى الله عليه وآله وسلم﴿ buyurdu: "O mənə sizdən daha yaxın ola bilməz, axı o və onun yoldaşları cəmi bir kərə hicrət etmişlər. Siz isə, ey gəmi əhli, iki dəfə hicrət etmisiniz." *«əl-Buxari».*

**¤Hikmətli hökm¤**

Əbu Hüreyrə ﴿رضي الله عنه﴾ Peyğəmbərin ﴿صلى الله عليه وآله وسلم﴾ belə dediyini rəvayət edir: “Keçmişdə iki qadın və onların hərəsinin də bir uşağı var imiş. Günlərin bir günü canavar bu uşaqlardan birini aparır. Qadınlardan biri rəfiqəsinə: “Canvar sənin oğlunu apardı” – deyərək sağ qalan uşağı ona vermək istəmir. Rəfiqəsi də ona eyni şeyi deyərək uşağın onun olduğunu iddia edir. Beləliklə, qadınlar mübahisə edirlər və aralarında düzgün hökm çıxarılması üçün Davud -əleyhissəlamın- hüzuruna gəlirlər Davud -əleyhissəlam- uşağın yaşda böyük olan qadına verilməsi barədə hökm verir. Onlar bununla kifayətlənməyib eyni məqsədlə Davudun oğlu Süleyman peyğəmbərin hüzuruna gəlir və əhvalatı ona danışırlar. Süleymün -əleyhissəlam- üzünü qadınlara tutub: “Mənə bir bıçaq gətirin, uşağı aranızda yarıya bölüm” deyir. Bu zaman yaşda kiçik olan qadın: “Yox, uşağa dəymə, Allah sənə rəhm etsin, o onun uşağıdır” deyə etiraz etdi. Bunu görən Süleyman peyğəmbər uşağın kiçik qadına varilməsi barədə hökm çıxarır.

**¤Dəstamaz günahlara kəffarədir¤**

Əmr ibn Əbsə əs-Suləmi ﴿رضي الله عنه﴾ belə deyir: “Mən cahiliyyət zamanı; insanlar zəlalət üzərindədirlər, heç bir şey üzərində deyillər, deyə zənn edirdim. Onlar bütlərə tapınırdılar. Məkkədə bəzi xəbərlər haqqında danışan bir şəxs çıxdığını eşitdim. Dəvəmin üzərinə oturub bu şəxsin yanına gəldim. Gəldiyim zaman Allahın Elçisi gizlənmiş bir halda, qövmü də özünə qarşı hirsli idilər. Məkkədə nəzakətli hərəkət etdim. Nəhayət asanlıqla onun yanına girdim. Özünə: “Sən kimsən?” dedim. Mən Peyğəmbərəm, dedi. Peyğəmbər nədir? dedim. Məni Allah göndərib, dedi. Allah səni nə ilə göndərdi? dedim. Qohumlara yaxşılıq edilməsi, bütlərin qırılması, yalnız Allaha ibadət edilib, ona heç bir şeyin ortaq qoşulmaması ilə, dedi. Bu şeylər üzərində səninlə kimlər var? dedim. Azad və kölə kimsələr vardır, dedi. (Ravi: “O gündə ona inananlardan Əbu Bəkr ilə Bilal onunla bərabər idi). Məndə sənə tabe olacağam, dedim. Sən bu günündə buna müqtədir ola bilməzsən. Mənim və camaatın halını görmürsənmi? Lakin indi sən ailənin yanına qayıt. Mənim müzəffər olduğumu eşitdiyin vaxt mənim yanıma gəl, dedi. Bundan sonra mən qəbiləmin yanına qayıtdım. Allahın Elçisi, Mədinəyə gəldiyində mən hələ qövmümün yaninda idim. Bu vaxt onun xəbərini soruşdurmağa başladım. O, Mədinəyə gəldiyi zaman insanlardan onu soruşurdum. Nəhayət Yəsrib əhalisindən yəni Mədinəlilərdən mənə bir neçə nəfər gəldi. Onlara: “Bu Mədinəyə gələn şəxs nə etdi?” dedim. İnsanlar sürətlə onun dininə girirlər. Qövmü onu öldürmək istədi lakin buna gücləri çatmadı, dedilər. Bundan sonra Mədinəyə gəldim və Peyğəmbərin yanına girib: “Ey Allahın Elçisi! Məni tanıyırsanmı? dedim. Bəli. Sən Məkkədə mənimlə görüşən bir kimsən, dedi. Məndə bəli oyam dedim. Ey Allahın Elçisi! Allahın sənə öyrətdiyi və mənim bilmədiyim şeylərdən mənə xəbər ver. Mənə namazdan xəbər ver dedim. Səhər namazını qıl. Sonrada günəş çıxıb yüksələnə qədər namazdan əl çək. Çünki günəş çıxarkən şeytanın iki buynuzu arasından çıxar. Hələ o zamanda kafirlər ona (yəni günəşə) səcdə edərlər. Çünki namaza mələklər şahid və itaətli qullar hazır olur. Sonra da mizrağın kölgəsi (qərbə və şərqə) meyl etmədiyi vaxta (yəni ekvator vaxtına) qədər namaz qıl. Sonra namazdan

çəkin. Çünki o vaxt cəhənnəm yaxşıca alovlandırılır. Kölgə meyl etdiyi zaman yenə namaz qıl. Çünki namaz, mələklər tərəfindən şahid olunmuş və itaətli qulların hazır olduğu bir ibadətdir. Nəhayət əsr namazını qıl. Bundan sonra da günəş batana qədər namaz qılmaqdan çəkin. Çünki o şeytanın iki buynuzu arasında batır. Hələ o zamanda kafirlər ona səcdə edərlər, dedi. Ey Allahın Elçisi! Mənə dəstamaz almanın mahiyyəti və fəzilətindən xəbər ver, dedim. Sizdən biri dəstəmaz suyunu yaxınına götürər, ağzını yaxalayar, burnuna su çəkib çıxarsa su ilə birgə üzünün, ağzının və burnu ilə beyni arasındakı günahları tökülər. Sonra Allahın əmr etdiyi kimi üzünü yuduğunda su ilə birgə saqqalının ətrafından üzünün günahları düşər. Sonra dirsəklərə qədər əllərini yuyar bundada su ilə birlikdə əllərinin günahları barmaqlarının ucundan tökülər. Sonra başına məsh edər başının günahları saçının uclarından su ilə birlikdə düşər. Sonra topuqlara qədər ayaqlarını yuyar, ayaqlarının günahları su ilə birgə barmaqlarının uclarından tökülər. Sonra isə (dəstamaz alan) o şəxs durar namaz qılar, Allaha həmd edər, ona səna edər, layiq olduğu vəch ilə Allahı ulular, ürəyini sırf Allah üçün digər şeylərdən boşaltsa namazın sonunda günahlarından şübhəsiz anasının onu doğduğu vəziyyətdə olaraq ayrılar" dedi. *«Muslim»*

**¤Mömün¤**

Həsən əl-Basri رحمه الله Belə deyir: "Mömün o kəsdir ki, o Allahın dediyini necə deyibsə həqiqətən də elə olduğunu bilə. Mömün insanlar içərisində ən gözəl əməli olan və dağlar qədər sədəqə versə belə Allahdan ən çox qorxan kəsdir. Mömün o kəsdir ki, ümüd etdiyi qədərdə qorxusu ola. Mömün o kəsdirdir ki, siratdan keçmək üçün əməllər hazırlaya, amma yenədə düşməkdən qorxa. Münafiq o kəsdir ki, o insanlara görə hərəkət edə. Onlar edir nə olur ki, məndə etsəm nə ola deyən, pis əməllərini edib də bağışlanaram deyəndir." "Siyər Ə`ləm ən-Nubələ 4-c/586 s"

**¤Özünü özündən qoru¤**

Muhəmməd ibn Məlik ibn Diğəm Əbu Eyyubdan rəvayət edərək onun belə dediyini buyurur: "Atan mənə nəsihət edərək: "Ey əbu Eyyub özünü özündən qoru! Dünya mömünün kədərlər, Axirət isə sevinc və fərəh diyarıdır. Qorxuram o kəsin halından ki, o dünyada olarkən halının düzəldiyini, Allaha yaxın olduğunu, gedəcəyi yer üçün çalışdığını, saleh əməllərlə qiyamətə getdiyini zənn edir, lakin etdiyi əməllər qiyamət günü bükülərək onun üzünə çırpılacaq." "ər-Riqqətu və əl-Bukə s/197".

**¤Allaha həmd olsun ki, zənnim boşa çıxmadı¤**

Xalid ibn Mə`dən belə deyir: "Ömər ﴿رضي الله عنه﴾ Hims şəhərinə Səid ibn Amir əl-Cumeyhini əmir təyin etdi. Ömər ﴿رضي الله عنه﴾ Himsə gəldiyi zaman onlara: "Ey Hims əhli Əmirinizdən şikayətiniz varmı? dedi. (Hims əhli hər zaman başçılarından şikayətçi olduqları üçün onlara kiçik Kufə deyirdilər). Onlar Ömərə: ﴿رضي الله عنه﴾ "Səiddən dörd şikayətimiz var. Bunlar: "Gün çıxna qədər bizim içimizə gəlmir, gecə olduqda heç birimizin çağırışına cavab vermir, ayda bir dəfə tamamən bizim yanımıza gəlmir və bəzi günlərdə o özündən gedərək huşunu itirir" dedilər. Ömər onu və camaatı bir yerə cəm etdi. Ömər ﴿رضي الله عنه﴾

“Ey Rəbbim onun haqda olan gözəl zənnimi boşa çıxartma” deyə dua etdi. Sonra Hims əhlinə: “Şikayətçi olduğunuz şeyləri deyin” dedi. Onlarda: “Gün çıxna qədər bizim yanımıza gəlmir” dedilər. Səid: (رضي الله عنه) “Allaha and olsun ki, mən bunları kiməsə deməkdən xoşlanmıram, (lakin ittihamlara cavab olsun deyə dilə gətirirəm) mənim ailəmə xidmət edəcək bir kəs yoxdur, onun üçündə mən səhər durub onlar üçün xəmir yoğurur, sonrada onun acımasını gözləyirəm. Acıdıqdan sonra da çörəklərini bişirir, sonra dəstəmaz alır və eləcə insanlar arasına çıxıram (o vaxta qədərdə gün artıq çıxmış olur). Ömər: (رضي الله عنه) “Şikayətçi olduğunuz digər şeyi söyləyin” dedi. Onlarda: “Gecə olduqda heç birimizin çağırışına cavab vermir” dedilər. Ömər(رضي الله عنه) Səidə: “Bunların dediklərini cavablandır” dedi. Səid: (رضي الله عنه) “Allaha and olsun ki, mən bunları kiməsə deməkdən xoşlanmıram, (lakin ittihamlara cavab olsun deyə dilə gətirirəm) “Mən gündüzü onlar, gecəni isə Rəbbim üçün ayırmışam (bu səbəbdəndə gecə olduqda onlarla görüşmürəm) dedi. Ömər: (رضي الله عنه) “Şikayətçi olduğunuz digər şeyi söyləyin” dedi. Onlarda: “O ay ərzində bir gün var ki, o gün bizim yanımıza heç gəlmir” dedilər. Ömər (رضي الله عنه) Səidə: “Bunların dediklərini cavablandır” dedi. Səid: (رضي الله عنه) “Mənim paltarımı yuyacaq nə xadiməm nədə bu paltardan başqa bir paltarım var, bu səbəbdən də mən ayda bir dəfə paltarımı yuyar, onu qurudar və səhmana salıb geyinənədək gün bitir və mən həmin gün onların arasına çıxa bilmirəm” dedi. Ömər: (رضي الله عنه) “Şikayətçi olduğunuz digər şeyi söyləyin” dedi. Onlarda: “Bəzi günlərdə o özündən gedərək huşunu itirir” dedilər. Ömər (رضي الله عنه) Səidə: “Bunların dediklərini cavablandır” dedi. Səid: (رضي الله عنه) “Məkkədə müşrüklərin Xubeybi (رضي الله عنه) əsir alaraq onu çarmıxa çəkmiş və bədənini əllərindəki silahlarla yaralayaraq ondan intiqam aldıqlarını gördüm. Qüreyş müşrükləri onun bədəninə vurduqları hər zərbədən, kəsdikləri hər parçadan sonra ona: “Muhammədin sənin yerində olmasını istərdinmi? deyirdilər. O isə cavabında: “Vallahi ki, mən ailəmin yanında olubda onun barmağına tikan batmasını belə istəmirəm (nəyinki onun mənim yerimdə olmasını istəyim)”. Bu sözləri eşitdikdə Məkkə müşrükləri dəliyə dönür və onun bədəninə ağır zərələr endirərək onu öldürürdülər. Məndə nə zaman ki, bu hadisəni xatırlayıram və öz-özümə ona niyə kömək etmədin deyir və Allahın buna görə məni bağışlamayacağını düşünürəm, bax o zamanda məndə özümdən getmə olur.
Ömər(رضي الله عنه) Səidin bu cavablarından sonra: “Onun haqda zənnimi boşa çıxartmayan Allaha həmd olsun” dedi. Sonra ona min dinar göndərərək ona: ”Ehtiyaclarını ödə” dedi. Ailəsidə bunu gördükdə səni bizim xidmətimizdən qurtaran Allaha həmd olsun dedilər. O isə onlara: “Bunu, bundan daha xeyirli bir işə xərcləyəkmi?” dedi. Elə bir yerə ki bizim ona daha çox ehtiyacımız olduğu zaman onu bizə haqqı ilə qaytarsın. Ailəsidə ona bəli istədiyin kimi et dedilər. O da həmin gün bitməmiş o min dinarı Himsın miskin, yetim, dul və fəqirlərinə payladı. *“Sifətu əs-Safvəti 1/256-257”*

**¤Əbu Zər əl-Ğifari¤**

Əbu Zər (رضي الله عنه) belə rəvayət edir: “Mən Ğifar qəbiləsindən idim. Bizə xəbər gəlib çatdı ki, Məkkədə bir adam peydə olub, peyğəmbər olduğunu iddia edir. Onda mən qardaşıma dedim: “Get o adamın yanına, onunla danış və mənə ondan bir xəbər gətir!” Qardaşım

gedib onunla görüşdü, sonra geri döndü. Mən soruşdum: “Nə xəbər gətirmisən?” Dedi: “Vallahi, mən yaxşı işlər görməyi buyuran və pis işlərdən çəkindirən birini gördüm.” Mən qardaşıma: “Sən lazım olan xəbəri gətirməmisən” dedim, sonra da bir qab su və əl ağacı götürüb Məkkəyə yola düşdüm. Mən Peyğəmbəri ﴾صلى الله عليه وآله وسلم﴿ tanımırdım və heç bir kimsədən onun haqda soruşmaqda istəmirdim. Mən zəm-zəm suyundan içirdim və Məscidul Haramda qalırdım. Əli gəlib mənim yanımdan keçdi və mənə: “Qərib adama oxşayırsan” dedi. Mən bəli dedim. O: “Elə isə gedək evə!“ dedi, məndə onunla getdim. O məndən bir söz soruşmadı, mən də ona heç nə demədim. Səhər açıldıqda mən Peyğəmbəri ﴾صلى الله عليه وآله وسلم﴿ soruşmaq üçün məscidə gəldim, lakin heç kəs onun haqqında bir söz demədi. Yenə Əli mənim yanımdan keçdi və soruşdu: “Sən qonaq qalmaq üçün hələ özünə bir yer tapa bilməmisən?” Dedim: “Xeyr!” Dedi: “Gedək mənimlə!” Məndən soruşdu ki: “Sən nə gəzirsən? Bu şəhərə gəlməyinin səbəbi nədir?” Dedim: “Heç kimə deməyəcəksənsə, sənə məqsədimi bildirim.” Əli: “Baş üstə!” dedi. Dedim: “Bizə xəbər çatıb ki, Məkkədə bir adam peydə olub, Peyğəmbər olduğunu iddia edir. Mən qardaşımı göndərmişdim ki, onunla danışsın, lakin o qayıdıb mənə lazimi xəbərləri çatdırmadı. Odur ki, mən özüm onunla görüşmək istədim. Əli dedi: “Sən düz yol tutmusan! İndi mən onun yanına gedəcəm, səndə mənim dalımca gələrsən. Mən hara girsəm, səndə ora girərsən. Əgər yolda sənə xətər toxundura biləcək birisini görsən, dayanıb divarın dibinə çəkiləcəyəm ki, güya ayaqqabımın bağını bağlayıram, sənsə yoluna davam edərsən.” Bunu deyəndən sonra o getdi, məndə onun dalınca getdim. O gedib bir evə daxil oldu, mən də onun dalınca Peyğəmbərin ﴾صلى الله عليه وآله وسلم﴿ yanına daxil oldum və ona: “Mənə İslam haqqında danış!” dedim. O mənə İslam dinini başa saldı və mən elə yerimdəcə bu dini qəbul etdim. Peyğəmbər ﴾صلى الله عليه وآله وسلم﴿ mənə dedi: “Ey Əbu Zər bunu heç kəsə bildirmə, qayıt öz qəbilənə. Elə ki bizim açıq-aydın dəvət etdiyimizi eşitdin, gəl qoşul bizə”. Mən dedim: “Səni haqq ilə göndərən Allaha and olsun ki, mən bunu onların arasında açıq-aydın elan edəcəyəm”.

Bundan sonra Əbu Zər məscidə gəldi. Həmin vaxt Qureyişlilər orada idilər. Əbu Zər uca səslə dedi: “Ey Qureyişlılər! Mən şahidlik edirəm ki, Allahdan başqa məbud yoxdur və şahidlik edirəm ki, Muhəmməd onun qulu və elçisidir”. Müşrüklər: “Qalxın bu dinini dəyişənin dərsini verək!” dedilər.

Əbu Zər dedi: “Onlar qalxıb məni o ki var döydülər. Bu vaxt Abbas sinəsini qabağa verib məni müdafiə etdi və üzünü onlara tutub dedi: “Vay sizin halınıza! Siz Ğifar qəbiləsindən olan bir adamı öldürmək istəyirsiniz? Hal buki sizin həm ticarət yollarınız, həmdə özünüzün gediş-gəlişiniz oradan keçir.” Bunu eşidəndə onlar məndən əl çəkdilər. Səhəri gün mən onların yanına qayıdıb dünən dediklərimi təkrar etdim. Onlar yenə: “Qalxın bu dinini dəyişmişin dərsini verək!” dedilər və məni dünənki kökə saldılar. Yenə Abbas sinəsini qabağa verib məni müdafiə etdi və dünən dediklərini bir daha təkrar etdi.” *«əl-Buxari».*

**¤Zu-Qarad döyüşü¤**

İyas ibn Sələmə belə rəvayət edir: “Atam mənə belə danışdı: “Biz Peyğəmbərlə ﴿صَلَّى اللهُ عَلَيْهِ وَآلِهِ وَسَلَّمَ﴾ Hüdeybiyyə adlanan yerə gəldik. Yüz on dörd nəfər idik. Quyunun başında əlli qoyun var idi ki, quyu onlara su çatdırmırdı. Peyğəmbər ﴿صَلَّى اللهُ عَلَيْهِ وَآلِهِ وَسَلَّمَ﴾ quyunun kənarına oturdu və dua etdi, yada ki, onun içinə tüpürdü. Quyu daşdı və biz ondan içdik və heyvanları suladıq. Sonra Peyğəmbər ﴿صَلَّى اللهُ عَلَيْهِ وَآلِهِ وَسَلَّمَ﴾ ağacın altında beyət etməyə çağırdı. Ona insanlardan əvvəl mən beyət etdim. Sonra bir-bir hər kəs beyət etdi. Nəhayət insanların yarısına gəlincə Peyğəmbər ﴿صَلَّى اللهُ عَلَيْهِ وَآلِهِ وَسَلَّمَ﴾ : “Ey Sələmə, Beyət etmirsənmi?!” deyə buyurdu. Mən: “Ey Allahın Elçisi, Sənə ən birinci mən beyət etdim!” deyə söylədikdə Peyğəmbər ﴿صَلَّى اللهُ عَلَيْهِ وَآلِهِ وَسَلَّمَ﴾ : “Yenədə!” deyə buyurdu və mənim silahsız olduğumu gördükdə, mənə Cəhfə və ya Dərqa dəridən hazırlanmış qalxan verdi. Sonra: “Beyət et!” dedi. İnsanların sonuncusuna çatdıqda Peyğəmbər ﴿صَلَّى اللهُ عَلَيْهِ وَآلِهِ وَسَلَّمَ﴾ mənə: “Ey Sələmə, beyət etmirsənmi?!” deyə buyurdu. Mən: “Ey Allahın Elçisi, mən sənə insanların ən əvvəlində və ortasında beyət etdim!” deyə söylədikdə Peyğəmbər: ﴿صَلَّى اللهُ عَلَيْهِ وَآلِهِ وَسَلَّمَ﴾ “Yenədə!” deyə buyurdu və mən üçüncü dəfə beyət etdim. Sonra məndən: “Ey Sələmə, sənə verdiyim dəri qalxan hanı?” deyə soruşdu. Mən: “Ey Allahın Elçisi, mən əmim Əmirlə qarşılaşdığım vaxt onu silahsız gördüm və qalxanı ona verdim.” deyə cavab verdim. Peyğəmbər ﴿صَلَّى اللهُ عَلَيْهِ وَآلِهِ وَسَلَّمَ﴾ gülümsədi və belə buyurdu: “Sən bundan əvvəlki adamın dediyi kimi dedin: “Allahım mənə elə bir dost nəsib et ki, o mənə nəfəsimdən daha istəkli olsun.” Sonra müşrüklər bizimlə sülh müqabiləsi üçün məktublaşdı. Hətta biz bir-birimizə yaxınlaşdıq və sülh bağladıq. Mən Talha ibn Ubeydullaha tabe idim. Onun atına su verir, tozunu çırpır, ona xidmət edir, yeməyindən yeyirdim. Mən əhlimi və malımı Allah və Elçisinə görə tərk edərək hicrət etmişdim. Məkkə əhli ilə biz sülh bağladıqdan sonra biz bir-birimizə qarışdıq. Mən ağacın yanına gələrək gövdəsinə söykəndim. Məkkə əhlindən dörd müşrük yanıma gəldi və Peyğəmbər ﴿صَلَّى اللهُ عَلَيْهِ وَآلِهِ وَسَلَّمَ﴾ haqda nə gəldi danışmağa başladılar. Onlara hirsləndim və başqa ağacın altına getdim. Onlar silahlarını asaraq uzandılar. Onlar bu halda ikən vadinin aşağısından bir kişi belə qışqırdı: “Gəlin ey Mühacirlər, İbn Zuneym öldürüldü.” Mən qılıncıma qurşanıb bu dörd nəfərin üzərinə onlar yuxuda ikən hücum etdim. Onların silahlarını götürüb əlimdə dəstələdim. Sonra onlara belə dedim: “Muhəmmədin üzünü şərəfləndirənə and olsun ki, sizdən kim başını qaldırarsa üzərində iki gözü olan üzünü (başını) kəsəcəyəm!” Sonra onları qabağıma qatıb Peyğəmbərin ﴿صَلَّى اللهُ عَلَيْهِ وَآلِهِ وَسَلَّمَ﴾ yanına gətirdim. Əmim Amir Əbalatlı mikraz adlanan bir kişini müşrüklərdən olan yetmiş kişinin içində zirehli bir at üzərində dartaraq Peyğəmbərin ﴿صَلَّى اللهُ عَلَيْهِ وَآلِهِ وَسَلَّمَ﴾ yanına gətirdi. Peyğəmbər ﴿صَلَّى اللهُ عَلَيْهِ وَآلِهِ وَسَلَّمَ﴾ onlara baxaraq belə buyurdu: “Buraxın onları bu pis əməl onlar üçün birinci və axrıncı dəfə olsun.” Peyğəmbər ﴿صَلَّى اللهُ عَلَيْهِ وَآلِهِ وَسَلَّمَ﴾ onların hamısını əfv etdi və Allah-Təala bu ayəni nazil etdi: ***“Sizi onlara qalib etdikdən sonra Məkkə vadisində onların əlini sizdən, sizində əlinizi onlardan çəkən Odur. Allah sizin nə etdiklərinizi görəndir!”***

Sonra Mədinəyə qayıtmaq üçün yola çıxdıq. Yolda bir yerdə dayandıq. Bizimlə müşrük olan Bəni Lihan qəbiləsi arasında bir dağ vardı. Peyğəmbər ﴿صَلَّى اللهُ عَلَيْهِ وَآلِهِ وَسَلَّمَ﴾ bu gecə bu dağa dırmanan kəs üçün bağışlanma dilədi. Sanki o Peyğəmbərlə səhabələrinin keşikçisi olacaqdı. O gecə mən bu dağa iki və ya üç kərə çıxdım. Sonra Mədinəyə gəldik Peyğəmbərin ﴿صَلَّى اللهُ عَلَيْهِ وَآلِهِ وَسَلَّمَ﴾ yük dəvələrini xidmətçisi olan Rabah ilə göndərdi. Məndə onula

bərabər Talhanın atının üzərinə çıxdım. Talhanın atını Dəvələrlə birlikdə su içmək üçün gətirib apardım. Sabaha çıxdıqda Əbd ər-Rəhman əl-Fəzərinin Peyğəmbərin (صلى الله عليه وآله وسلم) bütün dəvələrini yığıb apardığını və çobanları öldürdüyünü gördüm. Rəbaha: "Ey Rəbah bu atı götür Talha ibn Ubeydullaha çatdır və Peyğəmbərə (صلى الله عليه وآله وسلم) xəbər ver ki, müşrüklər onun sürüsünə basqın ediblər!" deyə buyurdum. Sonra isə bir təpənin üzərinə çıxdım və Mədinəyə tərəf üz tutaraq üç kərə: "Ey sabahım!" deyə səsləndim. Sonra onların ardınca çıxaraq onlara ox atmağa başladım. Həmdə belə şeir deyirdim:

"Mən əl-Əkvanın oğluyam!
Bu gün alçaqların ölüm günüdür.

Onlardan birinə çataraq arxasınca ox atdım.Ox onun çiyninə batdı.Mən: "Al sənı!"

"Mən əl-Əkvanın oğluyam!
Bu gün Alçaqların ölüm günüdür!

Allaha and olsun ki, mən onlara ox atmaqda davam edir, onların atlarını vurub öldürürdüm. Üzərimə bir atlı dönüb gəldikdə isə bir ağacın kökünə sığınaraq ox atır və heyvanını vururdum. Dağ daraldıqda onlar dar bir yerə daxil oldular. Mən dağın hündür bir yerinə qalxaraq onların başına daş atmağa başladım. Mən bu halda davam etdim. Nəhayət Allahın yaratmış olduğu Peyğəmbərin (صلى الله عليه وآله وسلم) elə bir dəvəsi olmadı ki, onu arxama keçirməyim. Onlardan heç kəsi mənimlə heyvanlar arasına buraxmadım. Sonra onların ardınca düşərək ox atmağa davam etdim. Onlar qaçarkən yüngülləşmək üçün otuzdan artıq zireh və nizə atıb getdilər. Peyğəmbər (صلى الله عليه وآله وسلم) və əshabı bilsinlər deyə onların atdıqları şeylərin üzərinə daşdan işarələr qoyurdum. Nəhayət gəlib bir dağ yoluna çatdılar. Bu vaxt Finakəs ibn əl-Fəzəri gəldi və onlar oturub səhər yeməyi yeməyə başladılar. Mən kiçik bir dağın təpəsində oturdum. Əl-Fəzəri onlara belə dedi: "Bu gördüklərim nədir belə? Onlar: "Bu adamla bəlaya düşmüşük. Allaha and olsun ki, alaqaranlıqdan bizdən heç ayrılmır. Bizi ox atəşinə tutub və əlimizdə olan hər bir şeyi alıb. deyə söylədilər." əl-Fəzəri onlara belə dedi: "Sizdən dörd nəfər onun yanına getsin". Onlardan dörd nəfər dağa çıxmağa başladı. Onlar mənimlə danışa biləcək bir məsafəyə çatdıqda, mən onlara: "Siz məni tanıyırsınız?" deyə soruşdum. Onlar: "Xeyr! Sən kimsən?" deyə cavab verdikdə, mən belə dedim: "Mən Sələmə ibn əl-Əkvayam!" Muhammədin (صلى الله عليه وآله وسلم) üzünü mübarək edən Allaha and olsun ki, sizlərdən kimi tutmaq, öldürmək istəsəm, buna nail olaram lakin sizlərdən kimsə məni tutmaq istəsə buna nail ola bilməz!" Onlardan biri belə dedi: "Məndə elə bunu zənn edirəm." Onlar qayıtdılar. Mən isə Peyğəmbərin (صلى الله عليه وآله وسلم) süvariləri köməyə gəlməyincə yerimdən tərpənmədim. Süvarilər ağacların arasında görünməyə başladılar. Süvarilərin önündə əl-Əxram əl-Əsədi, arxasınca Əbu Qatədə əl-Ənsari, onunda arxasında Miqdad ibn əl-Əsvəd əl-Kindi vardı. Mən onlar yaxınlaşdıqda əl-Əxramın atının yüyənindən tutdum. Bu an müşrüklər qaçmağa başladılar. Mən ona belə dedim: "Ey Əxram, onlardan özünü qoru. Mən istəmirəm ki, Peyğəmbər (صلى الله عليه وآله وسلم) və əshabələri gəlincəyə kimi onlar səni öldürsünlər." O, belə buyurdu: "Ey Sələmə, əgər Allaha və axirət gününə, Cənnətin və

Cəhənnəmin haqq olduğuna iman edirsənsə, mənə Onun yolunda şəhid olmağa mane olma!" Mən onu sərbəst buraxdım. O, əbd ər-Rahmanla təkbə tək qarşılaşdı. O, əbd ər-Rahmanın atını vurub öldürdü. Əbd ər-Rahman da onu nizə ilə vurub öldürdü və onun atının üzərinə atılaraq qaçdı. Peyğəmbərin (صلى الله عليه وآله وسلم) suvarisi Əbu Qatədə ona çataraq onu nizə ilə vurub öldürdü. Muhəmmədin (صلى الله عليه وآله وسلم) üzünü mübarək edənə Allaha and olsun ki, onların ardınca qaçır onları təqib edirdim. Nəhayət arxamda nə Peyğəmbərin (صلى الله عليه وآله وسلم) suvarilərindən, nədə onların tozlarından bir şey görünmədi. Günəş batmazdan əvvəl müşrüklər Zu-Qarad adlanan vadiyə susamış halda endilər. Onlar baxdıqları vaxt, mənim onların ardınca gəldiyimi gördülər. Bir qurtum içmədən oranı tərk etdilər. Qaçaraq təpənin üzərinə çıxmağa başladılar. Məndə onların ardınca qaçaraq onlardan birinə yaxınlaşdım və ox atdım. Ox müşrikin çiyin nahiyəsinə batdı. Mən: "Al səni! Mən əl-Əkvanın oğluyam! Bu gün alçaqların ölüm günüdür!" dedim. O müşrik: "Anası onu itirsin, sən alaqaranlıqda oxuyan əl-Əkvasan!" dedi. Mən:"Bəli! Ey nəfsimin düşməni mən ala qaranlıqda sizi izləyən əl-Əkvayam!"deyə cavab verdim. Onlar dağın təpəsində iki at tərk edərək getdilər. Məndə o iki atı sürüb Peyğəmbərin (صلى الله عليه وآله وسلم) yanına gətirdim. Yolda məni Amir bir əlində azca süd o biri əlində isə su olan tuluqla qarşıladı. Mən dəstamaz aldım və süddən içib sonra Peyğəmbərin (صلى الله عليه وآله وسلم) yanına gəldim. O (صلى الله عليه وآله وسلم) müşriklərin tərk etdikləri suyun yanında dayanmışdı. Müşriklərdən aldığım dəvələri, zirehləri və nizələri götürmüşdü. Bilal dəvələrdən birini kəsib ciyərindən və hürgücündən Peyğəmbər (صلى الله عليه وآله وسلم) üçün qızardırdı. Mən belə dedim: "Ey Allahın Elçisi, mənə izn ver əshabından yüz nəfər seçib onların ardınca gedim və öldürmədiyim heçbir xəbərçi qalmasın." Bu sözlərə Peyğəmbər (صلى الله عليه وآله وسلم) güldü və gündüzün parlaqlığında yan dişləri göründü. Sonra belə buyurdu: "Əgər sənə izn versəm, bu işi edəcəksənmi?" Mən: "Səni hörmətli edənə and olsun ki, bəli!" Peyğəmbər (صلى الله عليه وآله وسلم) belə buyurdu: "Hal hazırda onlar Qatafan ərazisində ziyafətə qonaqdırlar!" Qatafandan bir kişi gələrək belə dedi: "Filankəs onlar üçün bir dəvə kəsdi." Onlar dəvənin dərisini soyarkən bir toz qopduğunu gördülər. Oradakılar: "Sizi qovanlar gəldilər!" dedilər və tez çıxıb qaçdılar. Səhər açıldığı vaxt Peyğəmbər (صلى الله عليه وآله وسلم) belə buyurdu: "Bu gün süvarilərimizin ən xeyirlisi Əbu Qatədə, Piyadalarımızın ən xeyirlisi isə Sələmədir." Sonra Peyğəmbər (صلى الله عليه وآله وسلم) Mənə qənimətdən –süvari hissəsindən bir və piyada hissəsindən də bir pay ayıraraq- iki hissə pay verdi." Mədinəyə qayıdarkən məni əl-Adba adlı dəvəsinin tərkinə aldı." Biz bu şəkildə yolda ikən ənsarlardan biri: "Mədinəyə kimi qaçaraq yarışmaq istəyən varmı?" deyə bir neçə dəfə təkrarladı. Bu sözləri eşitdikdə belə dedim: "Məgər sən alicənab şərəfli insanlara hörmət etmirsən?" O, belə cavab verdi: "Xeyr! Mən yalnız Allahın Elçisinə hörmət edirəm." Mən: "Ey Allahın Elçisi Atam, Anam sənə fəda olsun, izin ver kişi ilə yarışım" dedim. O: (صلى الله عليه وآله وسلم) "İstəyirsənsə yarış!" deyə buyurdu. Mən ona: "Sən qaç deyə buyurdum və ayaqlarımı qaçış üçün büküb onun ardınca sıçrayaraq qaçmağa başladım. Ona qarşı nəfəsimi almaq üçün bir və ya iki yerdə dayandım. Sonra yenə onun ardınca sürətlə qaçmağa başladım. Sonra ona qarşı nəfəsimi dərmək üçün yenidən bir vəya iki yerdə dayandım. Sonra başımı qaldıraraq sürətlə onun ardınca qaçmağa başladım. Sonra gəlib ona çatdıqda çiyninə vuraraq: "Vallahi! Mən səni ötdüm!" dedim.

O: “Mən də belə hesab edirəm!” dedi. Nəhayət mən onu Mədinəyə kimi keçdim. Sələmə belə buyurdu: “Allaha and olsun ki, üç gecə qaldıqdan sonra Peyğəmbərlə ﴿صلى الله عليه وآله وسلم﴾ Xeybər istiqamətinə yola çıxdıq. Əmim Amir camaat üçün belə şeir oxuyurdu:

“Allaha and olsun ki,
Allah istəməsəydi, hidayət olmazdıq biz,
Nə sədəqə verərdik, nə də namaz qılardıq biz,
Olmasaydı lütfün Sənin, keçinə bilməzdik biz,
Düşmənlə qədəmlərimiz sabit qarşılaşdıq biz,
Sakinlik nazil et bizə.”

Peyğəmbər ﴿صلى الله عليه وآله وسلم﴾ “Bu kimdir?” deyə soruşdu. O: “Mən Amirəm” deyə cavab verdikdə, Peyğəmbər ﴿صلى الله عليه وآله وسلم﴾ belə dua etdi: “Rəbbin səni bağışlasın!” Peyğəmbər ﴿صلى الله عليه وآله وسلم﴾ kimin üçün xüsusən dua edirdisə o adam mütləq şəhid olurdu. Dəvəsinin üzərində oturmuş Ömər ibn əl-Xəttab belə dedi: “Ey Allahın Elçisi, qoy o hələ bizi şeirləri ilə feyziyab etsin!” Xeybərə çatdıqda, düşmənlərin başçısı Mərhab qılıncını oynadaraq irəli çıxdı və belə dedi:

“Artıq Xeybər tanıdı, bildi ki, Mərhabam mən,
Müharibə başlayıb, döyüş başlayarkən
Mahir silah ustası, təcrübəliyəm mən.”

Əmim Amir onunla vuruşmaq üçün önə çıxdı və belə dedi:

“Artıq Xeybər tanıdı, bildiki Amirəm mən,
Mahir silah ustası, çevik qəhramanam mən.”

Təkbə tək döyüş başladı və hər biri bir-birinə qarşılıqlı qılınc zərbələri endirdi. Mərhabın qılıncı əmimin qalxanına dəydi. Əmim onu alt nahiyədən vurmaq istədikdə qılınc onun özünə qayıdaraq damarını kəsdi. Onun ölümüdə bu yaradan oldu. Sələmə belə buyurmuşdur: “Mən çıxdıqda Peyğəmbərin ﴿صلى الله عليه وآله وسلم﴾ səhabələrindən bir neçəsinin: “Amirin əməli batil oldu. O özünü öldürdü!” dediyini eşitdim və ağlaya-ağlaya Peyğəmbərin ﴿صلى الله عليه وآله وسلم﴾ yanına gəlib belə dedim: “Ey Allahın Elçisi Amirin əməli batil olub? O ﴿صلى الله عليه وآله وسلم﴾ “Bunu kim deyir?” deyə soruşdu. Mən: “Səhabələrindən bəziləri!” deyə cavab verdim. O, ﴿صلى الله عليه وآله وسلم﴾ belə buyurdu: “Bunu deyənlər, yalan deyirlər! Əksinə, o, ikiqat savab qazanmışdır.” Sonra məni, Əlinin ﴿رضي الله عنه﴾ arxasınca göndərdi. O, göz ağrısından əziyyət çəkirdi. Peyğəmbər ﴿صلى الله عليه وآله وسلم﴾ “Bu bayrağı elə bir kəsə verəcəyəm ki, O Allah və elçisini sevir, Allah və Elçisi də onu sevir!” deyə buyurdu. Mən Əlinin yanına gəldim, gözlərindən əziyyət çəkdiyi üçün əlindən tutaraq onu Peyğəmbərin ﴿صلى الله عليه وآله وسلم﴾ yanına gətirdim. Peyğəmbər ﴿صلى الله عليه وآله وسلم﴾ onun gözlərinə tüpürərək dua etdi və gözləri sağaldı. Peyğəmbər ﴿صلى الله عليه وآله وسلم﴾ bayrağı ona verdi. Mərhab irəli çıxdı və belə dedi:

“Artıq Xeybər tanıdı, bildi ki, Mərhabam mən,

Müharibə başlayıb, döyüş başlayarkən
Mahir silah ustası, təcrübəliyəm mən.”

Əli belə buyurdu:

Anamın heydər adlandırdığı mənəm,
Meşələr aslanı tək görkəmliyəm,
Düşmənləri pərən-pərən edib tez öldürərəm.”

Mərhabın başından qılınc ilə vuraraq öldürdü və Xeybər onun əli ilə fəth edildi.” *«Muslim».*

**¤Onu Cənnətlə müjdələ¤**

Əbu Musa əl-Əşari (رضي الله عنه) demişdir: “Bir dəfə mən dəstamaz alıb evdən çıxdım və öz-özümə dedim: “Peyğəmbərdən (صلى الله عليه وآله وسلم) ayrılmayacağam, bütün günü onun yanında olacağam.”
Sonra Əbu Musə məscidə gəlib Peyğəmbəri (صلى الله عليه وآله وسلم) soruşdu. Oradakılar ona dedilər: “Filan yerə getdi.”
Əbu Musa dedi: “Mən soruşa-soruşa onun dalınca çıxdım. Nəhayət, O gedib Əris quyusu olan bağçaya girdi. Məndə gəlib qapının yanında oturdum. Bağçanın qapısı xurma budaqlarından düzəldilmişdi. Nəhayət, Peyğəmbər (صلى الله عليه وآله وسلم) təbii ehtiyacını rəf etdikdən sonra dəstəmaz aldı. Bundan sonra mən onun yanına getdim və gördüm ki, O, quyunun başında oturub ayaqlarınıda dizdən yuxarıya qədər açıb quyuya sallayıb. Mən ona salam verdim, sonrada gedib qapının yanında oturdum və öz-özümə dedim: “Bu gün mən Peyğəmbərin (صلى الله عليه وآله وسلم) qapıçısı olacağam.” Bu əsnada Əbu Bəkr gəlib qapını döydü. Mən: “Kimdir o?” deyə soruşdum. O: “Əbu Bəkrdir!” deyə cavab verdi. Mən ona: “Yerində dur” dedim, sonra Peyğəmbərin (صلى الله عليه وآله وسلم) yanına gedib dedim: “Ey Allahın Elçisi, Əbu Bəkr içəri daxil olmaq üçün izn istəyir.” Peyğəmbər (صلى الله عليه وآله وسلم) buyurdu: “İzn ver gəlsin və onu Cənnətlə müjdələ!” Mən qayıdıb Əbu Bəkrə dedim: “Gəl içəri! Allahın Elçisi (صلى الله عليه وآله وسلم) səni Cənnətlə müjdələyir!” Əbu Bəkr içəri daxil olub quyunun başında, Peyğəmbərin (صلى الله عليه وآله وسلم) sağ tərəfində oturdu və Peyğəmbər (صلى الله عليه وآله وسلم) etdiyi kimi ayaqlarını açıb quyuya salladı. Sonra mən qayıdıb oturdum. Qardaşıma gəlincə o da mənimlə gəlmək istəyirdi, lakin mən onu dəstamaz alarkən qoyub getdim. Allah ona xeyir nəsib etmək istəsə, onu da bura gətirər. Elə bu vaxt kimsə qapını itələdi. Mən: “Kimdir o?” deyə soruşdum. O: “Ömər ibn Xəttabdır!” deyə cavab verdi. Mən ona “Yerində dur” dedim, sonra Peyğəmbərin (صلى الله عليه وآله وسلم) yanına gedib ona salam verdim və dedim: “Ömər ibn Xəttab içəri girmək üçün izn istəyir.” Peyğəmbər (صلى الله عليه وآله وسلم) buyurdu: “İzn ver gəlsin və onu Cənnətlə müjdələ!” Mən qayıdıb dedim: “Gəl içəri! Allahın Elçisi (صلى الله عليه وآله وسلم) səni Cənnətlə müjdələyir!” Ömər içəri daxil olub quyunun başında, Peyğəmbərin (صلى الله عليه وآله وسلم) sol tərəfində oturdu və ayaqlarını açıb quyuya salladı. Sonra mən qayıdıb oturdum. Əgər Allah filankəsə (qardaşıma) xeyir nəsib etmək istəsə onu da bura gətirər. Bu vaxt bir nəfər gəlib qapını tərpətdi. Mən: “Kimdir o?” deyə soruşdum. O: “Osman ibn Əffandır!” deyə cavab verdi.

Mən ona “Yerində dur” dedim, sonra Peyğəmbərin ﴿صَلَّى اللهُ عَلَيهِ وَآلِهِ وَسَلَّمَ﴾ yanına gedib ona xəbər verdim. Peyğəmbər ﴿صَلَّى اللهُ عَلَيهِ وَآلِهِ وَسَلَّمَ﴾ buyurdu: “İzn ver gəlsin və ona müjdə ver ki, onun başına müsibət gəldikdən sonra Cənnətə girəcəkdir!” Mən qayıdıb dedim: ““Gəl içəri! Allahın Elçisi ﴿صَلَّى اللهُ عَلَيهِ وَآلِهِ وَسَلَّمَ﴾ sənə müjdə verir ki, sənin başına müsibət gəldikdən sonra sən Cənnətə girəcəksən.” Osman içəri daxil oldu və quyunun kənarında yer olmadığını görüb Peyğəmbərin ﴿صَلَّى اللهُ عَلَيهِ وَآلِهِ وَسَلَّمَ﴾ qarşı tərəfində oturdu.” *«əl-Buxari».*

## ¤Son söz¤

Beləcə Allahın izni ilə bu kitabı sona yetirdik. Hər bir yaradılan sona məhkumdur, yalnız Uca Allahdan başqa. Ümüd edirəm ki, bu kitabı oxuyan hər bir müsəlman kişi və qadın Allahın dinində sabit olacaq. Nöqsansız Allahım Həmd və sənalar Sənə aiddir, Səndən başqa ibadət olunmağa haqqı olan məbud yoxdur, Səndən bağışlanma diləyirəm, sənə tövbə edirəm.

Allahın Rəhmətinə ümüd edən:
***Əbu Ubeydə Usamə ibn Muhəmməd əl-Cəmməl***
Tərcümə etdi:
***Osman Sələfi***

## ¤İstifadə olunmuş ədəbiyyat¤


- Səhih əl-Buxari, Muhəmməd ibn İsmail əl-Buxari.
- Mavaiz əş-Şafi`i, Saleh Əhməd Şami.
- Münəd, Əhməd ibn Hənbəl, təhqiq Əhməd Şakir.
- Səhih Muslim, Muslim ibn Həccac əl-Quşeyri.
- Sifətu əs-Safv, ibn əl-Covzi.
- Hilyətul Ovliyə, Əbu Nəim əl-Əsbahani.
- Əhkəm əs-Sultaniyyə, Məvaridi.
- Silsilətul Əhadis əs-Səhihə, əl-Albani.
- Məvaiz əl-imam Ömər ibn Abdul-Əziz, Saleh Əhməd Şami.
- Ömər ibn Abdul-Əzizin həyatı, İbn Covzi
- Məvaiz Həsən əl-Basri, Saleh Əhməd Şami.
- əz-Zuhd, İmam Əhməd.
- Siyər Ə`ləm ən-Nubələ, əz-Zəhəbi.
- ər-Riqqətu və əl-Bukə, ibn Qudəmə.


## ¤Mündəricat¤


Ön söz ........................................................................................................................
Saleh dəvətçi ...............................................................................................................
Qurtuluş .......................................................................................................................
Firounun qızının baş darayanı .......................................................................................
Validеyinlərə yaxşı davranmaq ......................................................................................

Etdiyi yaxşı əməllərlə dua etmək ..............................................................................................
Nə üçün ölümə ikrah hissi duyuruq ..........................................................................................
Allah yolunda sədəqə malı qoruyur ..........................................................................................
Allah üçün sevməyin mükafatı ..................................................................................................
Heyvanlara yaxşı davranmaq günahlara kəffarədir ...................................................................
Sən məni ayıltdın Allah səni ayıltsın ........................................................................................
Əbu Muslim əl-Xovlani ..............................................................................................................
Allahdan Qorxmaq .....................................................................................................................
Tövbə və qurtuluş torpağı ..........................................................................................................
Əhdə vəfalı olmaq ......................................................................................................................
Allahım sənə həmd olsun ...........................................................................................................
Salehlər arasında qohumluq iman bağlarını gücləndirir ..........................................................
Hikmətli qazi ..............................................................................................................................
Dünyanı axirət üçün tərk edən ..................................................................................................
Öz çuxurunu doldurdu ...............................................................................................................
İsrail oğullarından olan cüzam xəstəliyinə tutulmuş adamın, korun və keçəlin hekayəti ................
Danışan inək və canavar ............................................................................................................
Danışıqda sadiq olmaq ..............................................................................................................
Qadınlara iffət nümünəsi ...........................................................................................................
Səfər üçün azüqə topla ..............................................................................................................
Yəmamə əhlinin başçısının islamı qəbul etməsi .........................................................................
Yarış meydanı .............................................................................................................................
Həqiqəti axtaran ........................................................................................................................
Məzlumun duası ilə Allah arasında pərdə yoxdur ......................................................................
İbn Abbas və Xəvariclər .............................................................................................................
Əkinçi .........................................................................................................................................
Qorxan qəlbdən saf kəlimələr ....................................................................................................
Saleh qadın ................................................................................................................................
Ey gəmi əhli sizin üçün iki hicrət vardır ....................................................................................
Hikmətli hökm ...........................................................................................................................
Dəstamaz günahlara kəffarədir .................................................................................................
Mömün .......................................................................................................................................
Özünü özündən qoru ..................................................................................................................
Allaha həmd olsun ki, zənnim boşa çıxmadı ..............................................................................
Əbu Zər əl-Ğifari .......................................................................................................................
Zu-Qarad döyüşü .......................................................................................................................
Onu Cənnətlə müjdələ ...............................................................................................................
Son söz .......................................................................................................................................
İstifadə olunmuş ədəbiyyat ........................................................................................................